# Xalq qəzeti

Xalqın qəzeti!

№ 07 (30976) 14 yanvar 2026-cı il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi


# Bundan sonra torpağımızda müharibə olmayacaq!

## Prezident İlham Əliyevin Tərtər və Ağdərə rayonlarına səfəri

### Tərtər elektromexanika zavodu yenidənqurmadan sonra istifadəyə verilib









**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 13-də Tərtər elektromexanika zavodunun yenidənqurmadan sonra açılışında iştirak edib.**

Dövlətimizin başçısı əvvəlcə ulu öndər Heydər Əliyevin zavodun həyətində ucaldılmış büstü önünə gül dəstəsi qoydu.

Müdafiə sənayesi naziri Vüqar Mustafayev dövlətimizin başçısına müəssisədə yaradılmış şərait barədə məlumat verdi.

Bildirildi ki, zavod 1976-cı ildə Lionozovo elektromexanika zavodunun Tərtər filialı olaraq yaradılıb. 1977-ci ilin aprelində fəaliyyətə başlayan zavodda elektrotexnika sənayesi məhsulları və xüsusi təyinatlı məhsullar istehsal edilib. İlk illərdə burada mühərrikli qayıqlar üçün “Taxometr-spidometr” məhsulları hazırlanıb.

Zavodun əsasını qoymuş ümummilli lider Heydər Əliyev 1978-ci ildə onun rəsmi açılış mərasimində iştirak edib.

Prezident İlham Əliyevin 2005-ci ildə imzaladığı Sərəncama əsasən Müdafiə Sənayesi Nazirliyi yaradılıb və Tərtər elektromexanika zavodu nazirliyin tabeliyinə verilib.

Müxtəlif növ hərbi təyinatlı məhsullar istehsal ediləcək müəssisədə bir sıra qabaqcıl dövlətlərdən alınmış müasir, yüksəkdəqiqlikli texnoloji avadanlıqlar quraşdırılıb. Texnoloji xətlərin layihələndirilməsi, istehsal axınlarının qurulması və seriyalı istehsala uyğunlaşma “Azərsilah” Müdafiə Sənayesi Holdinqi” QSC-nin yerli mütəxəssisləri tərəfindən icra edilib. Hazırda istehsal proseslərinin milli hərbi-texniki normalara, beynəlxalq keyfiyyət standartlarına uyğunlaşdırılması həyata keçirilir. Bu məqsədlə keyfiyyətə nəzarət laboratoriyası yaradılıb.

Zavodun ərazisində genişmiqyaslı tikinti və yenidənqurma işləri həyata keçirilib, yeni istehsalat binaları və sahələri, həmçinin köməkçi binalar istifadəyə verilib. Mövcud tikililərdə yenidənqurma işləri aparılıb, texnoloji prosesin tələblərinə uyğun olaraq ballistik və resurs sınaqları üçün xüsusi poliqonlar yaradılıb.

Qeyd edək ki, Azərbaycan Prezidenti müdafiə sənayesinin inkişafına xüsusi diqqət yetirir. Bu sahədə yerli şirkətlər qurulur, xarici tərəfdaşlarla əlaqələr genişləndirilir, ən müasir çağırışlara cavab verən texnologiyaların tətbiqi ilə istehsalın həcmi artırılır. Ötən il ölkəmiz 1,4 milyard manat dəyərində hərbi təyinatlı məhsul istehsal edib ki, bunların bir hissəsi Azərbaycan Silahlı Qüvvələrinin arsenalına, bir hissəsi isə ixraca yönəldilib. Hazırda Azərbaycan 20-yə yaxın ölkəyə hərbi təyinatlı məhsullar ixrac edir.

# TRIPP-lə bağlı yeni ABŞ–Ermənistan sənədi

*Gözləntilər nədən ibarətdir?*

**Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın ABŞ-a bu günlərdə gerçəkləşdirəcəyi səfər zamanı onun Birləşmiş Ştatların Dövlət katibi Marko Rubio ilə “Tramp marşrutu”nun (TRIPP) həyata keçirilməsi çərçivələrinə dair birgə bəyanat verəcəyi planlaşdırılır. Xəbəri Ermənistan XİN-in mətbuat katibi Ani Badalyan yayıb.**

Məlum olduğu kimi, ötən il avqustun 8-də Prezident İlham Əliyev, ABŞ Prezidenti Donald Tramp və Ermənistanın Baş naziri Nikol Paşinyan Azərbaycan Respublikasının Prezidenti və Ermənistan Respublikası Baş nazirinin Amerika Birləşmiş Ştatlarının Vaşinqton şəhərində keçirilən görüşünə dair Birgə Bəyannamə imzalayıblar.

*(ardı 6-cı səhifədə)*




## Siyasi balansın iqtisadi mexanizmə verdiyi yeni dizayn



Səhifə ➪ 7

## Sülhün geosiyasi dəyəri



**Cənubi Qafqaz uzun müddət postsovet məkanının ən kövrək təhlükəsizlik arxitekturalarından biri kimi çıxış edib. Münaqişə riskləri, bloklanmış kommunikasiyalar və qarşılıqlı etimadsızlıq regionu həm iqtisadi inteqrasiya imkanlarından, həm də kollektiv təhlükəsizlik mexanizmlərindən kənarda saxlayıb. Bu kontekstdə NATO-nun Cənubi Qafqaz üzrə Ofisinin rəhbəri Aleksandr Vinnikovun “Azərbaycan və Ermənistan arasında sülh regional təhlükəsizliyi gücləndirəcək” fikri dəyişən geosiyasi reallıqların analitik ifadəsidir. NATO-nun normallaşma prosesini açıq şəkildə dəstəkləməsi regionun artıq qlobal təhlükəsizlik gündəminin aktiv subyekti kimi qəbul edildiyini göstərir.**

*(ardı 6-cı səhifədə)*

## Regional sabitliyin “hidro” formulu




Səhifə ➪ 6

## Qardaşlığın qırılmaz telləri



Səhifə ➪ 7

## Səngiməyən mina terroru



Səhifə ➪ 8

## Fransanın NATO təşəbbüsü Avropanı dəyişə bilərmi?



Səhifə ➪ 8

## Yeraltı xəzinənin xalqımıza töhfəsi



Səhifə ➪ 9

# Prezident İlham Əliyev Ağdərə rayonunun Çapar kəndində



104-dür. Onlardan da 41-i yararsız, 63-ü isə qismən yararlıdır. Evlərdən 40-ı artıq istismara hazırdır. İl ərzində daha 23 ev bərpa ediləcək. İlkin olaraq kəndə 26 ailə (96 nəfər) qayıdıb.

Burada sosial məsələlərin həlli ilə bağlı bir çox iş görülüb. Belə ki, 3 ədəd mövcud transformator və elektrik xətti bərpa edilib, yeni elektrik, qaz və rabitə xətləri çəkilib, su şəbəkəsi yaradılıb, su anbarları bərpa olunub. Uzunluğu 6 kilometrə yaxın olan kənddaxili yollar yenidən qurulub. Kənddə yeni salınmış park da sakinlərin istifadəsinə veriləcək.

Sonra Prezident İlham Əliyev kəndə köçən Kəmalə Dadaşovanın ailəsinə baş çəkdi və yaşayış şəraiti ilə maraqlandı.

Doğma yurduna qayıtmasından sonsuz qürur duyduğunu bildirən Kəmalə Dadaşova Prezident İlham Əliyevə minnətdarlığını ifadə etdi.

Dövlətimizin başçısı Kəmalə Dadaşovanı yeni evinə köçməsi münasibətilə bir daha təbrik etdi.





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 13-də Ağdərə rayonunun Çapar kəndində görülmüş işlərlə tanış olub.**

Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Prezidentin xüsusi nümayəndəsi Elçin Yusubov dövlətimizin başçısına kənddə görülmüş işlər barədə məlumat verdi.

Qeyd edək ki, Çapar Ağdərə rayonunun İmarət Qərvənd kənd inzibati ərazi dairəsində, Qarabağ silsiləsinin cənub-şərq yamacında yerləşir. Burada qala və məbəd memarlıq abidələri var. Çapar kəndi Azərbaycan Silahlı Qüvvələrinin 2023-cü ildə həyata keçirdikləri antiterror əməliyyatı nəticəsində işğaldan azad edilib.

Çaparda mövcud olan fərdi evlərin sayı



# Heyvalı kəndində görülmüş işlərlə tanışlıq







**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 13-də Ağdərə rayonunun Heyvalı kəndində görülmüş işlərlə tanış olub.**

Kəndin yenidən qurulması çərçivəsində sosial infrastrukturun bərpası istiqamətində genişmiqyaslı işlər görülüb. Belə ki, 2 mövcud transformator, enerji və qaz xətləri bərpa olunub, yeni rabitə xətləri çəkilib. Sakinlərin içməli su ilə təmin olunması üçün 60 kubmetrlik çən quraşdırılıb və su şəbəkəsinin inşası üzrə işlərə başlanılıb. Bundan əlavə, 4,5 kilometr uzunluğunda kənddaxili yollar əsaslı şəkildə bərpa olunub və sakinlərin asudə vaxtı üçün yeni istirahət parkı salınıb.

Sonra Prezident İlham Əliyev kənd sakini Sarvan Abbasovun ailəsinə baş çəkdi, yeni evdə yaradılmış şəraitlə tanış oldu, məşğulluq imkanları ilə maraqlandı.

Sarvan Abbasov doğma torpaqlarına qayıtmağın sevincini bölüşərək, dövlətimizin başçısına və Ordumuza minnətdarlığını ifadə etdi.

Prezident İlham Əliyev ailənin üzvlərinə doğma yurdlarında firavan həyat arzuladı.

Dövlətimizin başçısına kənddə icra olunan abadlıq işləri və planlaşdırılan infrastruktur layihələri barədə məlumat verildi.

Heyvalı kəndi Ağdərə rayonunun eyniadlı inzibati ərazi dairəsində, Qarabağ silsiləsinin ətəyində yerləşir. İşğaldan əvvəl yerli əhalinin əsas məşğuliyyətini taxılçılıq, tütünçülük və heyvandarlıq təşkil edib, kənddə məktəb, klub və poçt kimi sosial obyektlər fəaliyyət göstərib. Kənd 2023-cü ildə həyata keçirilən antiterror əməliyyatı nəticəsində işğaldan azad edilib.

Qeyd edək ki, Heyvalıda mövcud olan 126 fərdi evdən 45-i artıq tam bərpa edilib və istismara hazırdır. İl ərzində daha 50 evin bərpası nəzərdə tutulur. Artıq doğma yurduna dönən 19 ailənin (74 nəfər) məskunlaşması üçün bütün zəruri şərait yaradılıb.



# “Qozlukörpü” Su Elektrik Stansiyasının açılışı







**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 13-də Ağdərə rayonunun Qozlukörpü kəndində “Qozlukörpü” Su Elektrik Stansiyasının (SES) açılışında iştirak edib.**

“AzərEnerji” ASC-nin İdarə Heyətinin sədri Baba Rzayev dövlətimizin başçısına bu stansiya, həmçinin Qarabağda və Şərqi Zəngəzurda yerləşən su elektrik stansiyalarının vəziyyəti, Tərtərçay silsiləsinin mövcud və perspektiv hidroenerji potensialı barədə məlumat verdi.

Bildirildi ki, işğaldan azad edilmiş ərazilərimizdə istismar olunan 307 MVt gücündə 38 su elektrik stansiyasında 2025-ci ildə 750 milyon kilovat-saat yaşıl enerji istehsal edilib. Bununla da 160 milyon kubmetr təbii qaza qənaət olunub, 280 min ton karbon qazının atmosferə atılmasının qarşısı alınıb.

Tərtərçayın hidroenerji potensialının 30 SES olması müəyyən edilib. Hazırda 22 SES “AzərEnerji” ASC tərəfindən istismardadır, 5 SES-in tikintisi icra olunur, 3 SES-in inşası nəzərdə tutulur. Qeyd edək ki, Tərtərçay tamamilə ölkə daxilində formalaşır.

Prezident İlham Əliyevin Qarabağın və Şərqi Zəngəzurun yaşıl enerji zonasına çevrilməsi ilə bağlı tapşırığına uyğun olaraq Ağdərə rayonunda, regionun ən iri su arteriyası olan Tərtərçay üzərində inşa edilmiş “Qozlukörpü” Su Elektrik Stansiyası 14,7 meqavat gücündədir. Sərt relyef, iqlim şəraiti və çətin logistika səbəbindən tikinti prosesi digər bölgələrlə müqayisədə daha çox vaxt tələb etməsinə baxmayaraq, layihə qısa müddətdə uğurla icra olunub. Dəniz səviyyəsindən 955 metr yüksəklikdə müasir baş suqəbuledici qurğu yaradılıb. Bütün texniki və ekoloji amillər nəzərə alınmaqla inşa edilən bu qurğudan stansiyaya suyun ötürülməsi üçün çətin dağlıq ərazidə 13 kilometr uzunluğunda derivasiya borusu çəkilib. Burada ölkədə ilk dəfə olaraq müasir enerji istehsalında istifadə edilən qurğular quraşdırılıb. Onlar azsulu dövrlərdə 25 faiz, bolsulu dövrlərdə isə 100 faiz məhsuldarlıqla fasiləsiz işləyə bilir.



Stansiyanın ölkə enerjisisteminə qoşulması üçün açıq paylayıcı qurğu yaradılıb, həmçinin optik kabel xətti çəkilərək stansiya rəqəmsal idarəetmə sisteminə inteqrasiya olunub.

Burada il ərzində orta hesabla 43 milyon kilovat-saat elektrik enerjisinin istehsalı nəzərdə tutulur ki, bununla da 9,5 milyon kubmetr təbii qaza qənaət ediləcək, 18 min ton karbon qazının atmosferə atılmasının qarşısı alınacaq.

Qeyd edək ki, layihə çərçivəsində ətraf mühit amillərinə diqqət yetirilib. Belə ki, çay balıqlarının derivasiya borusuna daxil olmasının qarşısının alınması üçün xüsusi hidrotexniki qurğular tikilib. Bunlar, eyni zamanda, zərərli maddələrin suya qarışmasının qarşısını almaqla, onun keyfiyyət göstəricilərində heç bir dəyişiklik etmədən aşağı axarda yenidən çaya qaytarır. Ətraf mühitə dost texnoloji avadanlıqlardan istifadə çay ekosisteminin dayanıqlığını təmin etməklə yanaşı, su ehtiyatının formalaşmasına da töhfə verəcək.

# Prezident İlham Əliyev Çıldıran kəndində







**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 13-də Ağdərə rayonunun Çıldıran kəndində görülmüş işlərlə tanış olub.**

Dövlətimizin başçısına kənddə icra olunan işlər barədə məlumat verildi.

Qeyd edildi ki, Çıldıran Ağdərə rayonunun eyniadlı inzibati ərazi dairəsində, dağətəyi ərazidə yerləşir. İşğaldan əvvəl yerli əhalinin əsas məşğuliyyətini heyvandarlıq və bitkiçilik təşkil edib. Kənddə məktəb, mədəniyyət evi, kitabxana və tibb məntəqəsi fəaliyyət göstərib. Kəndin ərazisi tarixi abidələrlə zəngindir. Burada XII əsrə aid "Alban məbədi" və XIII əsrə aid "Qırmızı məbəd" memarlıq abidələri yerləşir. Azərbaycan Silahlı Qüvvələrinin 2023-cü ilin sentyabrında həyata keçirdiyi antiterror əməliyyatı nəticəsində kəndin işğalına son qoyulub.

Kənddə 177 fərdi ev mövcuddur ki, onlardan da 69-u yararsız, 108-i isə qismən yararlıdır. İndiyədək 28 ev istismara hazır vəziyyətə gətirilib. Bu il daha 30 evin bərpası planlaşdırılır. Hazırda ilkin olaraq kəndə 13 ailə (48 nəfər) qayıdıb.

Çıldıran kəndində 2 mövcud transformator, elektrik və qaz xətləri bərpa edilib, yeni elektrik, qaz və rabitə xətləri çəkilib. Bundan başqa, su nasosu istifadəyə verilib, ümumi həcmi 190 kubmetr olan su anbarları təmizlənib və subartezian quyusu təmir olunub, 8,4 kilometr uzunluğunda kənddaxili yollar bərpa edilib, park salınıb.

Sonra Prezident İlham Əliyev kəndə köçmüş Verdi Abdullayevin evinə baş çəkdi. Dövlətimizin başçısı ailənin yaşayış şəraiti ilə maraqlandı.

Ailə başçısı Verdi Abdullayev söhbət zamanı keçmiş məcburi köçkünlük həyatından, işğal dövründə dağıdılmış infrastrukturdan söz açdı.

Prezident İlham Əliyev keçmişin ağrılı günlərinin geridə qaldığını, artıq Ağdərədə əbədi və təhlükəsiz yaşayışın təmin edildiyini vurğuladı, ailə üzvlərini yeni evlərinə köçmələri münasibətilə bir daha təbrik etdi.



# Dövlət başçısı Aşağı Oratağ kəndində







**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 13-də Ağdərə rayonunun Aşağı Oratağ kəndində görülmüş işlərlə tanış olub.**

Dövlətimizin başçısına kənddə həyata keçirilmiş sosial layihələr barədə məlumat verildi.

Bildirildi ki, bu kənd Ağdərə rayonunun eyniadlı inzibati ərazi dairəsində, dağətəyi ərazidə yerləşir. İşğaldan əvvəl kəndin əhalisi əsasən üzümçülük, heyvandarlıq, taxılçılıq və tütünçülüklə məşğul olub, burada məktəb, klub, kitabxana və tibb məntəqəsi fəaliyyət göstərib. Aşağı Oratağ kəndi Azərbaycan Silahlı Qüvvələrinin 2023-cü ildə həyata keçirdiyi antiterror əməliyyatı nəticəsində işğaldan azad olunub.

Kənddə ümumilikdə 308 fərdi ev var. Onlardan 148-i yararsız, 160-ı isə qismən yararlıdır. Hazırda 100 ev görülmüş bərpa işlərindən sonra istismara hazırdır. İl ərzində daha 60 ev əsaslı təmir və bərpa olunacaq. Kəndə ilkin olaraq 31 ailə (119 nəfər) qayıdıb.

Burada sosial infrastrukturla bağlı bir sıra işlər görülüb. Belə ki, 2 ədəd transformator və qaz xətti bərpa olunub, yeni elektrik, qaz və rabitə xətləri çəkilib, su nasosu istifadəyə verilib, ümumi həcmi 560 kubmetr olan su anbarları təmizlənib, subartezian quyusu təmir edilib. Uzunluğu 7 kilometrə yaxın kənddaxili yollar bərpa olunub. Sakinlərin istirahəti üçün park salınıb, futbol meydançası yaradılıb.

Sonra dövlətimizin başçısı kəndə köçmüş Anar Rüstəmovun ailəsinə baş çəkdi, yeni evdə yaradılmış şəraitlə tanış oldu.

Söhbət zamanı Prezident İlham Əliyev ailə üzvlərinin məşğulluq imkanları ilə maraqlandı, onlara müasir infrastrukturla əhatə olunmuş doğma yurdda firavan və xoşbəxt həyat arzuladı.

Ev sahibi Anar Rüstəmov dövlətimizin başçısına yaradılmış şəraitə görə minnətdarlığını bildirdi.



# "Dəmirli" Filiz Emalı Kompleksi ilə tanışlıq







**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 13-də Ağdərə rayonunun Canyataq kəndində "Dəmirli" Filiz Emalı Kompleksinin fəaliyyəti ilə tanış olub.**

İqtisadiyyat naziri Mikayıl Cabbarov və "Azerbaijan International Mining Company Limited" şirkətinin prezidenti və baş icraçı direktoru Rza Vəziri dövlətimizin başçısına kompleks barədə məlumat verdilər.

Bildirildi ki, kompleksə mis flotasiya zavodu, nəm tullantı anbarı, elektrik yarımstansiyası və digər tikililər daxildir. Mədən və istehsalat üzrə ümumi sahəsi 929 hektar olan kompleks Türkiyə və Almaniya texnologiyası əsasında yenidən qurulub. Yenidənqurma və bərpa işlərinə 15,3 milyon manat özəl investisiya yatırılıb.

"Dəmirli" Azərbaycanın işğaldan azad edilmiş ərazilərində dağ-mədən sənayesi üzrə işə başlayan ilk layihədir. Mis flotasiya zavodunda "Dəmirli" mədənindən çıxarılan filiz emal ediləcək və son məhsul - mis konsentratı istehsal olunacaq. Mis flotasiya zavodunun illik istehsal gücü 5,6 milyon ton filiz emalıdır.

1993-cü ildən Ermənistanın işğalı altında olan "Dəmirli" mis yatağı 2013-cü il mayın 13-dən etibarən təqribən 10 il ərzində qeyri-qanuni istismara məruz qalıb. O dövr üçün məlum olan 311 min ton çıxarılabilən mis ehtiyatının 218 min tonu, yəni 70 faizi qanunsuz şəkildə hasil edilib.

Hazırda qalıq ehtiyatların ilkin istismar dövrü 2025–2030-cu illəri əhatə edir. Bu müddətdə Çin Xalq Respublikasına 1,6 milyard manat dəyərində konsentrat şəklində 85 min ton mis metalının ixracı nəzərdə tutulur. Bununla belə, qarşıdakı illərdə mədənin mis ehtiyatlarının artırılması proqnozlaşdırılır. İlkin geoloji kəşfiyyat məlumatlarına əsasən, burada 470 min tona yaxın əlavə mis ehtiyatı mövcuddur. Aparılacaq 4 illik geoloji kəşfiyyat və tədqiqat proqramı nəticəsində bu ehtiyatların çıxarılabilən həcmi dəqiqləşdiriləcək.

Kompleksdə ilkin mərhələdə 980 nəfər daimi işlə təmin olunub. Onlardan 260 nəfəri keçmiş məcburi köçkün, o cümlədən işğaldan azad edilmiş ərazilərə qayıdan vətəndaşlardır. Növbəti illərdə əksəriyyəti yerli icmaları təmsil edən vətəndaşlar üçün daimi iş yerlərinin sayının 1250-yə çatdırılması planlaşdırılır.

Mədəndə hasilat Azərbaycan ərazisində bir sıra filiz yataqlarının kəşfiyyatı, işlənilməsi və hasilatın pay bölgüsü haqqında "AzerGold" QSC ilə ABŞ-ın "R.V. Investment Group Services" şirkəti arasında 2024-cü ildə bağlanmış saziş üzrə əməliyyat şirkəti "Azerbaijan International Mining Company Limited" tərəfindən aparılır.

Prezident İlham Əliyev tərəfindən 2024-cü ildə təsdiq edilmiş Qanuna əsasən, hasilatın pay bölgüsü haqqında saziş üzrə dövləti təmsil etmək səlahiyyəti "AzerGold" QSC-yə həvalə edilib.

Layihə çərçivəsində ətraf mühitin mühafizəsi üzrə kompleks tədbirlər həyata keçirilib. İlkin vəziyyətin qiymətləndirilməsi və ekoloji monitorinqlər aparılıb, nəticələr əsasında Ətraf və Sosial Mühitə Təsirin Qiymətləndirilməsi sənədi hazırlanıb. Layihə müddətində toz və səs emissiyalarının azaldılması, torpaq və su resurslarının qorunması məqsədilə müvafiq monitorinq, laborator analizlər, yaşıllaşdırma işləri və suyun təkrar dövriyyə sistemləri tətbiq olunur. Həmçinin fəaliyyət dayandırıldıqdan sonra ərazilərin texniki və bioloji rekultivasiyası təmin ediləcək.





Bu layihənin icrası Azərbaycanda qeyri-neft sektorunun dayanıqlı inkişafının təmin olunması, ölkəmizin ixrac qabiliyyətinin artması, işğaldan azad edilmiş ərazilərdə təbii ehtiyatların səmərəli və qanuni istifadəsinin təmin olunması baxımından böyük əhəmiyyət kəsb edir. Eyni zamanda, özəl investisiyaların cəlbi regionda sənaye və dağ-mədən sahəsinin müasirləşdirilməsinə və şaxələndirilməsinə, iqtisadi fəallığın artırılmasına, yeni iş yerlərinin yaradılmasına da mühüm töhfə verir. İşğaldan azad olunmuş ərazilərdə sahibkarlığın dəstəklənməsi istiqamətində Azərbaycan dövləti tərəfindən çox vacib qərarlar qəbul olunub. Həmin ərazilərimizdə dayanıqlı məskunlaşmanın, özəl təşəbbüslərin stimullaşdırılması, investisiyaların cəlbi və əlverişli biznes mühitinin formalaşdırılması əsas strateji hədəflərdən biri kimi müəyyənləşdirilib. Qeyd edək ki, işğaldan azad olunmuş torpaqlarımızda fəaliyyət göstərən hüquqi və fiziki şəxslər mənfəət, gəlir, əmlak, torpaq və sadələşdirilmiş vergilərdən, həmçinin bu ərazilərdə rezidentlər tərəfindən iqtisadi fəaliyyət sahələri üzrə idxal olunan texnika, texnoloji avadanlıq və qurğular, xammal və materialların idxalı 2023-cü il yanvarın 1-dən 10 il müddətinə ƏDV və gömrük rüsumundan azaddır.

Prezident İlham Əliyev süxurların partladılması üçün rəmzi düyməni basdı.

# Prezident İlham Əliyevin Aşağı Oratağ, Çıldıran, Heyvalı və Çapar kəndlərinin sakinləri ilə görüşü

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 13-də Ağdərə rayonunun Aşağı Oratağ kəndində Aşağı Oratağ, Çıldıran, Heyvalı və Çapar kəndlərinin sakinləri ilə görüşüb.**




**Dövlətimizin başçısını salamlayan qadın sakin dedi:** Sənin boyuna qurban, canım sənin boyuna qurban.

**Prezident İlham Əliyev:** Sağ olun. Necəsiniz? Necə yerləşmisiniz burada?

**Sakinlər:** Yaxşı.

**Prezident İlham Əliyev:** Yaxşıdır hər şey?

**Sakinlər:** Yaxşıdır.

**Prezident İlham Əliyev:** Allaha şükür. Təbrik edirəm sizi.

**Sakinlər:** Sağ olun.

**Prezident İlham Əliyev:** Artıq üç gündür ki, Ağdərə rayonunun dörd kəndinə yerləşmisiniz. Bu münasibətlə sizi təbrik edirəm.

**Sakinlər:** Çox sağ olun.

**Prezident İlham Əliyev:** Bütün bu kəndlərdə olmuşam: Çapar, Heyvalı, Çıldıran və Aşağı Oratağ kəndləri. Evlər gözəl təmir olunub, bərpa edilib. Son iki il ərzində biz işğaldan azad edilmiş Ağdərə rayonunun bütün qəsəbələrində, kəndlərində monitorinq aparmışıq. Birinci mərhələdə bərpa olunan kəndləri müəyyən etmişik və artıq Ağdərə rayonunun doqquz kəndinə keçmiş köçkünlər qayıtmışlar.

**Sakinlər:** Çox sağ olun.

**Prezident İlham Əliyev:** Uzun illərin həsrəti arxada qaldı, haqq-ədalət Zəfər çaldı. Azərbaycan öz ərazi bütövlüyünü, suverenliyini bərpa etdi. Azərbaycanlılar öz dədə-baba torpaqlarına qayıdıblar və burada qürurla yaşayacaqlar, xoşbəxt yaşayacaqlar, rahat yaşayacaqlar. Əminəm ki, bundan sonra müharibə olmayacaq. Azərbaycan dövləti güclü dövlətdir.

**Kişi sakin:** Sizin sayənizdə, cənab Prezident.

**Prezident İlham Əliyev:** Bizi güclü edən xalqımızdır, yumruq kimi birləşən millətimdir.

**Sakinlər:** Qarabağ Azərbaycandır!

**Prezident İlham Əliyev:** Son iki il ərzində, - antiterror əməliyyatından sonra, - 2023-cü ildən bu yana bütün bu bölgələrdə - Ağdərədə, Xocalıda, Xankəndidə, Xocavənddə həyat bərpa edilir. Beş il bundan əvvəl isə vaxtilə işğal altında olmuş digər ərazilərə köçkünlər qayıtmağa başlayıblar. Bu gün artıq 73 min insan - həm keçmiş köçkün, həm də ki, köçkün olmayan, amma azad edilmiş ərazilərdə işləyənlər, çalışanlar, oxuyanlar yerləşiblər və hər ay Qarabağa qayıdan vətəndaşların sayı artır. Burada şərait yaradılıb - işıq, su, qaz, yollar, iş yerləri.

Bu gün Qozlukörpü kəndində təxminən 15 meqavat gücündə su elektrik stansiyasının açılışını qeyd etdik. Bu bölgə elektriklə tam təmin edilib. Hətta burada istehsal olunan enerji Azərbaycanın digər bölgələrinə də ötürülür. Yollar çəkilir. Buradan Tərtərə qədər, Kəlbəcərə qədər yollar tikilir, genişlənir. Bu gün "Dəmirli" Filiz Emalı Kompleksinin fəaliyyəti ilə də tanış oldum. Orada 1000-ə yaxın iş yeri yaradılır. Yəni iş yerləri ilə bağlı heç bir problem olmayacaq. Həm dövlət, həm özəl sektor tərəfindən şərait yaradılır. Eyni zamanda, bu gözəl, səfalı, mənzərəli təbiətdən istifadə edərək əkinçilik, heyvandarlıq, arıçılıq, meyvəçilik - bütün bu işlərlə mütləq məşğul olmaq lazımdır ki, siz burada rahat, firavan yaşayasınız.







**Kişi sakin:** Bu gün üçün Sizə çox-çox təşəkkür edirik. Siz dünyaya sübut etdiniz ki, Qarabağ Azərbaycandır! Sağ olun, var olun.

**Qadın sakin:** Mən Ağdərənin Çapar kəndindənəm. Mən bir şəhidin anasıyam, bir şəhidin də bacısıyam.

**Prezident İlham Əliyev:** Allah rəhmət eləsin.

**Qadın sakin:** Bu gün mənim yanımda ikinci bir oğlum yoxdur. Azərbaycanın qeyrətli oğlanları mənim oğlumdur. Oğlum məni Sizə əmanət edib. Mən Azərbaycanın bütün şəhid anaları adından Sizə "Qarabağın qəhrəman oğlu" deyirəm.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Qadın sakin:** Siz də bizim ata yurdumuza, şəhidlərin qanı qədər, haqqı qədər müqəddəs olan Qarabağa, Ağdərəyə xoş gəlmisiniz.

**Prezident İlham Əliyev:** Sağ olun. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Onların qanı, canı bahasına, qəhrəman döyüşçülərimizin şücaəti, rəşadəti hesabına biz bu gün bu torpaqlardayıq. Biz şəhidlərimizin əziz xatirəsini qəlbimizdə əbədi yaşadacağıq. Onu da bildirməliyəm ki, şəhidlərimizin qanını artıq biz döyüş meydanında aldıq. Onların qanı yerdə qalmayıb. İşğal dövründə dəfələrlə bu sözləri biz eşitmişik, işlətmişik və bu arzularla yaşamışıq. Çünki torpaqların itirilməsi, böyük sayda şəhidlərin şəhadətə ucalması - bütün bu ədalətsizliklər bizi xalq olaraq çox incidirdi, ancaq bizi sarsıtmadı. Biz əyilmədik, iradəmizi göstərdik və döyüş meydanında həm şəhidlərimizin qisasını aldıq, həm də torpaqlarımızı qaytardıq. Son 80 il ərzində Azərbaycan kimi tam və mütləq Qələbə qazanan ikinci ölkə olmayıb. Müharibələr olub, münaqişələr olub, bu gün də davam edir. Amma heç biri tam və mütləq Qələbə ilə nəticələnməyib. Ancaq biz böyük xalq olaraq buna nail olduq, özü də cəmi 44 gün ərzində. Ondan sonra da bir gün ərzində. Biz şanlı Zəfərimizi, Zəfər yürüşümüzü iki mərhələyə bölərək həm də cavanlarımızı qoruduq. Çünki əgər 2020-ci il noyabrın 10-da müharibə dayanmasaydı, bəlkə də minlərlə şəhid verməli olacaqdıq. O cümlədən bax burada, bu dağlarda, Ağdərə dağlarında, Kəlbəcər dağlarında, Laçın dağlarında, Ağdamın minalanmış zolaqlarında minlərlə şəhid verə bilərdik. Biz onları qoruduq, onları qurban vermədik. Ancaq bilirdik ki, gün gələcək və biz bütün Qarabağı qaytaracağıq, ərazi bütövlüyümüzü bərpa edəcəyik, mənfur düşməni torpaqlarımızdan qovacağıq və tam Qələbə qazanacağıq. İndi də burada, - bir tərəfdə şəhid anası, bir tərəfdə ağbirçək, - sizinlə bərabər durmuşuq. Bu, çox xoşbəxt bir hissdir, xoşbəxt bir gündür, gözəl bir gündür. Sizi ürəkdən təbrik edirəm, burada xoşbəxt yaşayın. Sağ olun.

**Sakinlər:** Allah Sizi qorusun!

*

Sonra foto çəkdirildi.

*

**Kişi sakin:** Cənab Prezident, Allahdan Sizə uzun ömür, cansağlığı arzu edirik. Həmişə bizim yanımızda olmusan, biz də sənin arxanda.

**Digər kişi sakin:** Allah o "dəmir yumruğ"u düşmənlərimizin başının üstündən əskik etməsin. Amin. "Dəmir yumruq", "Qarabağ Azərbaycandır!"

**Qadın sakin:** Mənim ən böyük sevincim Vətənimə qayıtmaq olsa da, həyatda ən böyük arzum cənab Prezidentlə görüşmək idi. Getdiyim bütün yerlərdə deyirdim ki, bir gün mənim əlim o kişiyə çatacaq. Mənim əlim çatdı. Ən böyük sevincim, cənab Prezidentlə görüşməkdir.

**Kişi sakin:** Çox sağ olun. Allah Sizi qorusun.

**Qadın sakin:** Çox istərdim ki, gələcəkdə bir dəfə də Ağdərədə, Çaparda mənim evimin qonağı olasınız. Allahım Sizi qorusun. Amin.

**Prezident İlham Əliyev:** Gələrik, əlbəttə, hələ çox görüşəcəyik. Bu gün Ağdərə şəhərinin təzə Baş planı mənə təqdim ediləcək. Ağdərə şəhərini də biz yenidən quracağıq, necə ki, artıq doqquz kəndi abadlaşdırmışıq. Şəhəri də quracağıq. Bura çox gözəl bir sənaye və turizm mərkəzi olacaq. Bu səfalı yerlər göz oxşayır. Hər tərəf dağ, meşə, gözəl hava, bulaqlar, çaylar. Ona görə Ağdərənin gələcək inkişafı çox parlaq olacaq. İşğalçılar bu ərazidə faktiki olaraq heç bir salamat bina qoymayıblar. Bax, təmir edilmiş bütün bu binalar bu gün dövlət tərəfindən təmir edilib. Ancaq talançılıqla məşğul olublar. "Dəmirli" filiz yatağından bəlkə 2 milyard dollar dəyərində, bəlkə də çox mis aparıblar. Bu, talançılıqdır, qanunsuz istismardır. İndi biz qayıtmışıq, orada işlər qurulub. Qeyd etdiyim kimi, orada 900-dən çox, təqribən 1000-ə qədər iş yeri yaradılacaq. Özü də tapşırıq vermişəm ki, oraya cəlb olunacaq vətəndaşlar bu bölgədə yaşayan vətəndaşlar olmalıdır. İndi oranı genişləndirmək üçün mütləq əlavə sərmayə də qoyulacaq.

Kənd təsərrüfatı, turizm – yəni bura təbii bir cənnətdir. Amma mənfur düşmən buranı viran qoyub, burada daşı daş üstə qoymayıb. Onlar hər il erməni təşkilatları tərəfindən 100 milyonlarla pul yığırdılar. Onların bir manatını da, bir dollarını da buraya qoymayıblar, hamısını talayıblar. Bizim evlərimizi yandırıblar, sizi didərgin salıblar, 1 milyon insanı didərgin salıblar, Ağdamı yerlə-yeksan ediblər, Füzulini də, Zəngilanı da, Qubadlını da. Kəlbəcərdə, Laçında, Xocalıda qanunsuz məskunlaşmışdılar. Xocalıya bir eybəcər ad da vermişdilər, amma heç biri tutmadı. Çünki bu torpaqların sahibləri bizik, biz gəlmişik və biz qurub-yaradırıq.

**Qadın sakin:** Bütün bunlar Sizin güclü siyasətinizin nəticəsidir, cənab Prezident. Allah ömrünü uzun eləsin.

**Prezident İlham Əliyev:** Sağ olun. Bundan sonra ancaq müzəffər xalq kimi, qürurlu xalq kimi yaşayacağıq. İnşallah.

**Sakinlər:** Cənab Prezident, Siz dünyada Azərbaycan xalqının fəxrisiniz, minnətdarıq. Sağ olun, Sizi görməyimizə şad olduq.

# Ağdərə şəhərinin Baş planı ilə tanışlıq



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 13-də Ağdərə şəhərinin Baş planı ilə tanış olub.**

Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyev dövlətimizin başçısına Ağdərənin Baş planı barədə məlumat verdi.

Bildirildi ki, Baş plana əsasən şəhərin məskunlaşma ərazisi 444 hektardan 522 hektara çatdırılacaq. 20 illik perspektiv dövr üçün şəhər əhalisinin sayının 14 min nəfər olması proqnozlaşdırılır. Baş planın konseptual sxeminə şəhər mərkəzi, fərdi və azsıxlıqlı yaşayış sahələri, çoxfunksiyalı və ictimai-işgüzar zonalar daxildir. Bundan başqa, şəhərdə terras parkı, çayətrafı bulvar, aqroturizm, sənaye və logistika zonalarının yaradılması planlaşdırılır. Baş planla yanaşı, Ağdərə şəhərinin birinci mərhələdə yenidən qurulacaq ərazisi üzrə müfəssəl həllər də hazırlanıb. Şəhərin mənzil fondunun 420 min kvadratmetr olması, həmçinin 80 çarpayılıq xəstəxananın, 2520 şagird yerlik 5 məktəbin, 840 yerlik 5 uşaq bağçasının və peşə məktəbinin inşası planlaşdırılır. Birinci mərhələdə sahəsi 104 hektar olan şəhər mərkəzinin inkişaf etdirilməsi nəzərdə tutulur. 2030-cu ilədək şəhərdə 3590 nəfərin məskunlaşması mümkün olacaq. Burada yol və küçələrin uzunluğu 46,8 kilometr, velosiped zolaqlarının uzunluğu isə 10 kilometr təşkil edəcək. Layihə çərçivəsində ictimai və yaşayış binalarının memarlıq həlləri də işlənilib.

Baş planla tanış olan dövlətimizin başçısı müvafiq tapşırıq və göstərişlərini verdi.

*

Ağdərə şəhərində Müdafiə Nazirliyinin hərbi qulluqçuları üçün nəzərdə tutulan yaşayış binaları da istismara verilib.

Bildirilib ki, Ağdərədə Müdafiə Nazirliyinin hərbi qulluqçuları üçün ümumilikdə 3 binada təmir-bərpa işləri görülüb. Dörd və beşmərtəbəli binalardakı 72 mənzildən 8-i birotaqlı, 36-sı ikiotaqlı, 24-ü üçotaqlı, 4-ü isə dördotaqlıdır. Burada hərbçilərin və onların ailə üzvlərinin yaşaması və asudə vaxtlarının səmərəli təşkili üçün bütün şərait yaradılıb. Mənzillər su, qaz, elektrik enerjisi, internet, həmçinin mebel dəstləri ilə təchiz edilib. Binaların ətrafında da geniş abadlıq işləri görülüb, yaşıllıqlar salınıb, sakinlərin istirahəti üçün guşələr yaradılıb.

Qeyd edək ki, bu gün Azərbaycan dövləti tərəfindən Milli Ordumuzun şəxsi heyətinin sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində ardıcıl işlər görülür. Son illər Prezident İlham Əliyevin tapşırıq və göstərişlərinə uyğun olaraq, hərbi qulluqçuların mənzillə təmin olunması istiqamətində mühüm layihələr icra edilib. Bütün bunlar Müzəffər Ali Baş Komandan tərəfindən qalib Ordunun şəxsi heyətinə göstərilən yüksək qayğının bariz nümunəsidir.





# Xüsusi Əməliyyat Mərkəzinin təməlqoyması





**Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev yanvarın 13-də Ağdərə rayonunda Xüsusi Əməliyyat Mərkəzinin təməlini qoyub.**

Müdafiə naziri Zakir Həsənov Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə raport verdi.

Dövlətimizin başçısına məlumat verildi ki, bu mərkəzin yaradılmasında məqsəd xüsusi təyinatlı bölmələrin müxtəlif ərazi, relyef və hava şəraitində hazırlıqlarının təmin edilməsi, həmçinin beynəlxalq hərbi əməkdaşlıq sazişləri əsasında tədbirlərin, o cümlədən təlimlərin, kursların keçirilməsidir. Mərkəzin geniş ərazisində çoxsaylı şəxsi heyətin iştirakı ilə təlim və məşqlərin keçirilməsi mümkün olacaq. Burada təlim sahələri, o cümlədən atıcı və iriçaplı silahların atış, pilotsuz uçuş aparatlarının, o cümlədən zərbə dronlarının, müxtəlif simulyasiya, xüsusi əməliyyatların, sürücülük, üzgüçülük hazırlıqlarının məşq sahələri yaradılacaq.

Mərkəzdə qərargah, yataqxana, tibb məntəqəsi, klub, tədris və qonaq evləri, qapalı idman kompleksi, simulyasiya mərkəzi, açıq idman sahələri, helikopter meydançası, atıcılıq poliqonları və digər zəruri infrastruktur olacaq.

Prezident İlham Əliyev mərkəzin təməlini qoydu.

*AZƏRTAC*

*2026-cı il – "Şəhərsalma və Memarlıq İli"*

# Azərbaycanın şəhərsalma və memarlıq irsinin tarixdən dövlət strategiyasına keçidi



**Azərbaycanın şəhərsalma və memarlıq mədəniyyəti təkcə daş və tikililərdən ibarət fiziki irs deyil, xalqın tarixi təcrübəsinin, dünyagörüşünün, estetik zövqünün və dövlətçilik ənənəsinin maddiləşmiş ifadəsidir. Bu irs əsrlər boyu formalaşaraq təkamül yolu keçmiş, müxtəlif sivilizasiyalarla təmasda zənginləşmiş və milli kimliyin ayrılmaz tərkib hissəsinə çevrilmişdir. Məhz bu baxımdan Azərbaycanda şəhərsalma və memarlıq tarixini keçmişin bədii irsi olmaqla bərabər, dövlətin formalaşma və inkişaf prosesinin mühüm komponenti kimi dəyərləndirmək zəruridir.**

Azərbaycanın coğrafi mövqeyi tarixən onun şəhərlərinin taleyini müəyyənləşdirən əsas amillərdən biri olmuşdur. Böyük İpək Yolu üzərində yerləşən ölkə ərazisi ticarət, sənətkarlıq, mədəniyyət və ideyaların mübadiləsi üçün açıq məkan rolunu oynamış, bu isə şəhərlərin planlaşdırma quruluşunda və memarlıq simasında özünəməxsus izlər buraxmışdır. Gəncə, Naxçıvan, Şamaxı, Təbriz, Bakı kimi iri şəhərlər iqtisadi mərkəzlər olmaqla yanaşı, həm də siyasi qərarların qəbul edildiyi, elmi və dini düşüncənin formalaşdığı məkanlar kimi inkişaf etmişdir. Bu şəhərlərin böyüməsi spontan deyil, dövrün sosial-iqtisadi tələblərinə uyğun şəkildə baş vermiş, lakin bütün mərhələlərdə yerli mədəniyyətin əsas xüsusiyyətləri qorunmuşdur. Şəhərsalma strukturlarında məhəllə sistemi, ictimai məkanların funksional bölgüsü, dini və mülki tikililərin qarşılıqlı əlaqəsi Azərbaycan şəhər mədəniyyətinin xarakterik cəhətlərini təşkil etmişdir.



Bu gün ölkə ərazisində dövlət tərəfindən mühafizə olunan qalalar, karvansaralar, məscidlər, məbədlər və türbələr Azərbaycan memarlıq məktəbinin davamlılığını və estetik kamilliyini sübut edir. Möminə xatun türbəsi, Xudafərin körpüləri, Atəşgah məbədi kimi abidələr təkcə mühəndislik bacarığının deyil, həm də simvolik düşüncənin, fəlsəfi yanaşmanın məhsuludur. Bu tikililər zamanın sınağından çıxaraq milli memarlığın rəmzinə çevrilmişdir. Xüsusi qeyd olunmalıdır ki, Azərbaycanın şəhərsalma irsi beynəlxalq səviyyədə də tanınmışdır. İçərişəhər və Şirvanşahlar Sarayı kompleksi, Qız Qalası, Şəkinin tarixi mərkəzi və Xan sarayı təkcə milli deyil, ümumbəşəri dəyər kimi də qəbul edilir. Bu abidələr qədim və orta əsr şəhər mədəniyyətinin canlı nümunələri olmaqla yanaşı, şəhərsalmanın tarixi mərhələlərini ardıcıl şəkildə əks etdirir.

Azərbaycan memarlıq tarixində XII əsr xüsusi yer tutur. Bu dövrün ən parlaq simalarından biri olan Əcəmi Naxçıvani yalnız böyük sənətkar deyil, eyni zamanda, memarlıq məktəbi yaradan şəxsiyyət olmuşdur. Onun yaradıcılığı Azərbaycanla məhdudlaşmamış, Yaxın Şərq ölkələrinin memarlıq inkişafına ciddi təsir göstərmişdir. Əcəmi Naxçıvaninin əsərlərində funksionallıq, simvolizm və estetik harmoniya vəhdət təşkil edir ki, bu da orta əsr memarlığının ən yüksək mərhələsi kimi dəyərləndirilir. Çünki Azərbaycan şəhərsalma ənənəsi tarixən yalnız praktik ehtiyaclara deyil, ideya və mənəvi dəyərlərə əsaslanmışdır. Məhz buna görə də memarlıq irsi nəsillərarası yaddaşın daşıyıcısına çevrilmişdir.

### XIX əsr: Şərq və Qərb arasında yeni şəhər modeli

XIX əsrin ortalarından etibarən Azərbaycanın şəhərsalma tarixində keyfiyyətcə yeni mərhələ başlanmışdır. Xüsusilə Bakının sənayeləşməsi şəhər planlaşdırmasına yeni tələblər gətirmişdir. Neft sənayesinin inkişafı fonunda Bakı tədricən Şərq və Qərb memarlıq üslublarının sintez olunduğu nadir şəhər modelinə çevrilmişdir. Bu dövrdə şəhərin tarixi mərkəzi ilə yeni salınan məhəllələr arasında funksional və estetik balans formalaşmış, qədimliklə müasirlik eyni urban məkanda birləşmişdir. Bu proses Azərbaycan şəhərlərinin fiziki genişlənməsi ilə bərabər, həm də şəhər idarəçiliyi və planlaşdırma düşüncəsinin dəyişməsi demək idi.

Azərbaycan şəhərsalma və memarlıq irsinin XX əsrdən etibarən keçdiyi yol təsadüfi proseslərin deyil, dövlət düşüncəsinin və siyasi iradənin nəticəsi kimi formalaşmışdır. Əgər əvvəlki dövrlərdə şəhərlər əsasən tarixi, ticarət və mədəni zərurətlərin məhsulu idisə, XX əsrdən başlayaraq şəhərsalma artıq idarə olunan, planlı və strateji sahəyə çevrilmişdir. Bu mərhələdə şəhər mühiti yalnız estetik və funksional baxımdan deyil, sosial rifahın, milli kimliyin və dövlət təhlükəsizliyinin elementi kimi də dərk olunmağa başlamışdır.

Şəhərsalma və memarlıq fəaliyyəti tədricən dövlət nəzarətinə keçdi, planlaşdırma institutları yaradıldı, regional siyasətin sistemli şəkildə həyata keçirilməsinə başlanıldı. Bu dövrdə bir sıra şəhərlərin yenidən qurulması, yeni yaşayış massivlərinin salınması və ictimai məkanların formalaşdırılması milli memarlıq ənənələrinin qorunması şərti ilə reallaşdırıldı. Mikayıl Hüseynov və Sadıq Dadaşov kimi görkəmli memarların fəaliyyəti həmin mərhələnin ideoloji mahiyyətini aydın şəkildə əks etdirirdi. Onların yaradıcılığında milli ornamentika, tarixi memarlıq elementləri müasir funksional həllərlə sintez olunaraq, Azərbaycan şəhərlərinin simasında yeni, lakin köklərinə bağlı memarlıq üslubu formalaşdırdı.

### Heydər Əliyev dövrü: şəhərsalmanın dövlət strategiyasına çevrilməsi

Azərbaycan şəhərsalma və memarlıq tarixində keyfiyyətcə yeni mərhələ ümummilli lider Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi illərlə bağlıdır. Bu dövrdə şəhərsalma ilk dəfə olaraq ayrıca sahə kimi deyil, dövlət quruculuğunun tərkib hissəsi kimi dəyərləndirildi. Tarixi şəhərlərin qorunması, memarlıq abidələrinin bərpası və yeni şəhərsalma layihələrinin milli ənənələrə uyğun həyata keçirilməsi məqsədilə mühüm qərarlar qəbul edildi. Heydər Əliyevin yanaşmasının əsas fərqi ondan ibarət idi ki, şəhər mühiti yalnız cari ehtiyacların deyil, gələcək nəsillərin maraqlarının daşıyıcısı kimi nəzərdən keçirilirdi. Məhz bu illərdə memarlıq və şəhərsalma fəaliyyətinin davamlılığını təmin edən institusional mexanizmlər yaradıldı, normativ-hüquqi baza möhkəmləndirildi, tarixi irsin qorunması dövlət siyasətinin prioritetinə çevrildi. Bu strategiya sonrakı dövrlər üçün möhkəm ideoloji və idarəetmə təməli formalaşdırdı.

Dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycan şəhərlərinin memarlıq simasında yeni məzmun diqqət çəkdi. Bu mərhələdə inşa olunan monumental komplekslər ölkənin siyasi müstəqilliyini, iqtisadi potensialını və mədəni ambisiyalarını ifadə edən simvollara çevrildi. Heydər Əliyev Mərkəzi, Alov qüllələri, Ağ şəhər layihəsi kimi nümunələr paytaxtın memarlıq mənzərəsini keyfiyyətcə yeni səviyyəyə qaldırdı, eyni zamanda, müasir memarlıqla milli məkan anlayışının vəhdətini nümayiş etdirdi. Bu proses təkcə Bakını deyil, regionları da əhatə etdi. Şəhərlərin planlı inkişafı, infrastrukturun yenilənməsi və yaşayış mühitinin yaxşılaşdırılması ölkənin sosial-iqtisadi strategiyasının ayrılmaz hissəsinə çevrildi. Beləliklə, şəhərsalma və memarlıq fəaliyyəti sosial rifahın yüksəldilməsi ilə birbaşa əlaqələndirildi.

### Postmünaqişə mərhələsi: bərpa, qayıdış və yeni şəhərsalma modeli

44 günlük Vətən müharibəsindən sonra işğaldan azad olunmuş ərazilərdə aparılan bərpa və yenidənqurma işləri Azərbaycan şəhərsalma siyasətinin müasir mərhələsini müəyyənləşdirən əsas amilə çevrildi. 30 il ərzində sistemli şəkildə dağıdılmış şəhər və kəndlərin yenidən qurulmasına texniki məsələ olmaqla bərabər, həm də tarixi ədalətin və milli iradənin bərpası kimi yanaşıldı.

Hazırda "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində bu ərazilərdə müasir planlaşdırma prinsiplərinə əsaslanan, "yaşıl enerji", "ağıllı" şəhər və kənd modellərini birləşdirən yeni yaşayış mühiti formalaşdırılır. Qısa müddət ərzində onlarla yaşayış məntəqəsi üzrə planlaşdırma sənədlərinin hazırlanması və Şuşa şəhərinin tarixi simasının bərpası Azərbaycanın şəhərsalma sahəsində artıq qlobal çağırışlara cavab verən praktiki təcrübə formalaşdırdığını göstərir.

2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi isə təsadüfi qərar deyil. Bu addım 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" ilə başlanan ideoloji xəttin məntiqi davamıdır. Dövlət bu qərarla göstərir ki, suverenlik yalnız siyasi və hüquqi kateqoriya deyil, eyni zamanda, məkanın, şəhərin və yaşayış mühitinin milli iradəyə uyğun qurulmasıdır. Bu təşəbbüs şəhərsalma və memarlığı milli kimliyin qorunması, mədəni irsin yaşadılması və dayanıqlı gələcəyin təmin edilməsi kontekstində birləşdirir. Şəhər mühiti sadəcə yaşayış sahəsi olmaqla yanaşı, sosial ədalətin, ekoloji tarazlığın və ictimai rifahın reallaşdığı məkan kimi təqdim olunur.

Azərbaycanın BMT-nin Məskunlaşma Proqramı ilə əməkdaşlığı, milli şəhərsalma forumlarının təşkili və 2026-cı ildə Dünya Şəhərsalma Forumunun (WUF-13) Bakıda keçirilməsi ölkənin qlobal şəhərsalma gündəliyində artan rolunu təsdiqləyir. Azərbaycan bu proseslərdə təcrübə təqdim edən və təşəbbüs irəli sürən tərəfdaş kimi çıxış edir. Beləliklə, Azərbaycanın şəhərsalma və memarlıq irsi tarixdən müasirliyə uzanan davamlı xətt təşkil edir. Bu xətt XX əsrdə dövlət planlaşdırmasına, müstəqillik dövründə milli identiklik və modernləşməyə, postmünaqişə mərhələsində isə bərpa və dayanıqlı inkişaf modelinə çevrilmişdir. 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi və WUF-13-ə ev sahibliyi isə bu uzun yolun məntiqi yekunu olmaqla yanaşı, həm də Azərbaycanın gələcək inkişaf strategiyasının mühüm ideoloji və praktiki dayağı kimi çıxış edir.

***Kəramət QƏNBƏROV,***
***Dövlət İdarəçilik Akademiyası sənədlərlə iş və arxiv şöbəsinin müdiri, dövlət qulluğu və kadr siyasəti kafedrasının müəllimi***

# Prokurorluqda andiçmə mərasimi



**Yanvarın 13-də Azərbaycan Respublikasının Baş Prokurorluğunda müsabiqə yolu ilə prokurorluq orqanlarında qulluğa yeni qəbul edilmiş gənc əməkdaşların andiçmə mərasimi keçirilib.**

Tədbirdə çıxış edən Baş prokuror Kamran Əliyev bildirib ki, 2025-ci il Azərbaycan Respublikasının ictimai-siyasi həyatında xüsusi məna kəsb edir. Ötən il prokurorluq işçiləri üçün də əlamətdar bir il olub, "Konstitusiya və Suverenlik İli" çərçivəsində Baş Prokurorluq tərəfindən də geniş və məqsədyönlü fəaliyyət həyata keçirilib.

Bildirilib ki, 2020-ci ildə Vətən müharibəsinin başa çatmasından sonra keçirilmiş 6 müsabiqənin nəticələri üzrə müvəffəqiyyət qazanmış 24 nəfər Vətən müharibəsi iştirakçısı prokurorluq orqanlarında qulluğa qəbul edilib. Onlardan 2 nəfəri 2020-ci ildə, 10 nəfəri 2021-ci ildə, 6 nəfəri 2022-ci ildə, 3 nəfəri 2023-cü ildə, 2 nəfəri 2024-cü ildə, 1 nəfəri isə 2025-ci ildə elan edilmiş müsabiqə üzrə uğur qazanıb.

Qeyd olunub ki, ümummilli lider Heydər Əliyevin 19 iyun 2001-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş "Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında Əsasnamə"yə uyğun olaraq Baş Prokurorluq tərəfindən növbəti dəfə 15 aprel 2025-ci il tarixdə elan edilmiş 27-ci müsabiqənin nəticələri üzrə 51 gənc hüquqşünas qulluğa qəbul olunub.

Daha sonra prokurorluqda qulluğa yeni qəbul olunmuş gənclərin vəzifələrə təyin edilməsi barədə əmr elan edilib, işə qəbul olunanlar təntənəli surətdə and içib və onlara xidməti vəsiqələr Baş prokuror tərəfindən təqdim olunub.



Tədbirdə çıxış edən Fərhad Bədəlbəyli və Elbay Qasımzadə işə qəbul olunan gənc əməkdaşları təbrik edərək onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıblar.

Prokurorluqda qulluğa yeni qəbul olunmuş gənclərdən Nərmin Həmzəyeva və Orxan Səhratzadə çıxış edərək gənc mütəxəssislərə göstərilən dövlət qayğısına görə ölkə başçısına öz minnətdarlıqlarını bildirərək, onlara göstərilən yüksək etimadı doğruldacaqlarına söz veriblər.

Tədbir iştirakçıları adından Azərbaycan Prezidenti İlham Əliyevə müraciət qəbul edilib.

***XQ***

# İtaliya ilə strateji tərəfdaşlığın perspektivləri



**Yanvarın 13-də xarici işlər naziri Ceyhun Bayramov ilə İtaliyanın ölkəmizdə səfərdə olan xarici işlər və beynəlxalq əməkdaşlıq nazirinin müavini Edmondo Çirielli arasında görüş keçirilib.**

Görüşdə Azərbaycan və İtaliya arasında ikitərəfli çərçivədə mövcud əməkdaşlıqdan məmnunluq ifadə olunub, siyasi, təhlükəsizlik, iqtisadi, ticarət, energetika, humanitar, təhsil və digər sahələrdə çoxölçülü strateji tərəfdaşlıq əlaqələrinin perspektivlərindən bəhs edilib. Xüsusilə enerji və təhsil sahələrində birgə layihələrin, İtaliya-Azərbaycan Universitetinin fəaliyyətinin əhəmiyyəti qeyd olunub. Bakıda keçirilmiş Azərbaycan və İtaliya arasında İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 6-cı iclasının uğurla tamamlandığı, əldə olunmuş razılıqların iki ölkə arasında münasibətlərə əlavə təkan verəcəyi vurğulanıb.

Dünən Azərbaycan və İtaliya XİN-ləri arasında siyasi məsləhətləşmələr də keçirilib.

***XQ***

# Azərbaycanın və Venesuelanın xarici işləri nazirləri arasında telefon danışığı olub

**Yanvarın 13-də xarici işlər naziri Ceyhun Bayramov ilə Venesuelanın xarici işlər üzrə xalq hakimiyyəti naziri İvan Xil Pinto arasında telefon danışığı olub.**

Telefon danışığı zamanı Venesuelada son hadisələr, eləcə də Azərbaycan və Venesuela arasında ikitərəfli və çoxtərəfli əməkdaşlıq məsələləri müzakirə olunub.

Nazir Ceyhun Bayramov Venesuelada baş verən hadisələr nəticəsində həyatını itirənlərin ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı verib. Venesuelada sülh və sabitliyin bərqərar olacağına, Venesuelanın birliyinin qorunacağına ümidvar olduğunu bildirib.

Venesuelalı nazir son hadisələr barədə ətraflı məlumat verib. Venesuelada prezident vəzifələrinin müvəffəqiyyətlə icra edildiyini, dövlət qurumlarının işlək vəziyyətdə olduğunu bildirib. Nazir bununla yanaşı, ABŞ tərəfi ilə dialoqun davam etdiyini, ABŞ şirkətlərinin, xüsusilə energetika sahəsində fəaliyyətlərinin bərpa olunduğunu, səfirliklərin qarşılıqlı şəkildə fəaliyyətə başlaması üçün danışıqlar aparıldığını diqqətə çatdırıb.

Nazirlər Azərbaycanla Venesuela arasında ikitərəfli münasibətlərin inkişafı istiqamətində səylərin davam etdirilməsinin, beynəlxalq təşkilatlar, xüsusilə BMT və Qoşulmama Hərəkatı çərçivəsində qarşılıqlı dəstək və həmrəyliyə əsaslanan əməkdaşlığın vacibliyini vurğulayıblar.

# Vyanada "Türk həftəsi"



**Yanvarın 12–15-də Vyana şəhərində Türk Dövlətləri Təşkilatı və təşkilata üzv dövlətlərin BMT-nin Vyana Ofisindəki nümayəndəliklərinin birgə təşkilatçılığı ilə "Türk həftəsi" keçirilir.**

"Türk həftəsi" BMT-nin Vyana Bölməsində "İpək yolu üzərində Türk dünyası" adlı sərginin təntənəli açılış mərasimi ilə başlayıb. Azərbaycanın Vyanada yerləşən Beynəlxalq Təşkilatlar yanında Daimi Nümayəndəliyinin təşkilatçılığı ilə keçirilmiş sərginin açılış mərasimində hazırda TDT-yə sədrlik edən ölkəni - Azərbaycanı təmsil edən xarici işlər nazirinin müavini Samir Şərifov Türk Dövlətləri Təşkilatında Azərbaycanın sədrliyinin prioritetləri haqqında məlumat verib. O, türk dövlətlərinin əməkdaşlığının iqtisadi potensialına toxunaraq, Orta Dəhlizin Şərqlə Qərb arasında oynadığı rolu vurğulayıb. S.Şərifov, həmçinin türk dövlətləri arasında mədəniyyət, elm və təhsil sahələrində əməkdaşlığın aktual məsələlərinə toxunaraq, ortaq türk mədəni irsinin və dilinin öyrənilməsinə həsr edilmiş ilk Türkoloji Qurultayın 100 il öncə Bakıda keçirildiyini və cari ildə 2-ci Türkologiya Konqresinin də Bakıda keçiriləcəyini iştirakçıların diqqətinə çatdırıb.

Sərginin açılışı zamanı TDT-nin Baş katibi Kubanıçbek Ömüralıyev, BMT-nin Narkotiklər və Cinayətkarlıq üzrə İdarəsinin, BMT-nin Sənaye İnkişafı Təşkilatının və Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin rəhbər şəxsləri də çıxış ediblər.




Xarici işlər nazirinin müavini Samir Şərifov və TDT-nin Baş katibi Kubanıçbek Ömüralıyev səfər çərçivəsində, həmçinin Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin baş direktoru Rafael Mariano Qrossi, BMT-nin Kosmik Fəza Məsələləri İdarəsinin direktor müavini Driss El-Hadani və BMT-nin Sənaye İnkişafı Təşkilatının baş direktorunun müavini Fatu Haydara ilə görüşüb, TDT ilə bu təşkilatlar arasında potensial əməkdaşlıq məsələləri müzakirə olunub.

Bundan əlavə, "Türk həftəsi" çərçivəsində ATƏT-in mənzilqərargahında dəyirmi masanın, qala konsertin və üçüncü təlim proqramının keçirilməsi nəzərdə tutulur.

***XQ***

# Sülhün geosiyasi dəyəri



(əvvəli 1-ci səhifədə)

Prosesin mahiyyətini daha dərindən anlamaq üçün üç əsas siyasi-analitik sual aktuallaşır. Əvvəlcə cavablandırmaq lazımdır ki, NATO-nun normallaşma prosesinə verdiyi dəstək hansı geosiyasi maraqlarla izah olunur? Alyansın Azərbaycan–Ermənistan normallaşma prosesinə münasibəti formal olaraq neytral müşahidəçi və dolayı dəstəkçi statusu ilə xarakterizə olunur. Lakin beynəlxalq münasibətlər nəzəriyyəsi prizmasından yanaşdıqda, bu mövqe klassik neytrallıqdan daha çox strateji risklərin idarə olunması və təhlükəsizlik məkanının genişləndirilməsi məntiqinə söykənir. NATO üçün Cənubi Qafqaz Avro–Atlantik təhlükəsizlik sisteminin periferiyasında yerləşən, lakin onun dayanıqlılığına birbaşa təsir edən kritik geosiyasi qovşaqdır.

Birinci fundamental amil regionun geostrateji mövqeyidir. Cənubi Qafqaz Qara dəniz hövzəsini Xəzər və Mərkəzi Asiya enerji məkanına, oradan isə Yaxın Şərq və Cənubi Asiya bazarlarına bağlayan tranzit ox rolunu oynayır. Enerji kəmərləri, nəqliyyat dəhlizləri və rəqəmsal infrastruktur xətləri məhz bu məkandan keçir. Belə bir infrastrukturun təhlükəsizliyi NATO üzvü olan Avropa ölkələrinin enerji şaxələndirmə strategiyalarının əsas dayaqlarından biridir. İkinci mühüm aspekt təhlükəsizlik boşluğu fenomenidir. Siyasi qeyri-sabitlik olan regionlar adətən qeyri-dövlət aktorlarının, radikal şəbəkələrin, transmilli cinayətkarlığın və böyük güclərin proksi rəqabətinin aktivləşdiyi məkana çevrilir. NATO-nun təhlükəsizlik doktrinasında bu cür "boşluqların" yaranması birbaşa risk mənbəyi kimi qiymətləndirilir. Cənubi Qafqazda uzunmüddətli münaqişənin davam etməsi bu boşluğun institusionallaşmasına gətirib çıxara bilərdi. Normallaşma prosesi isə həmin boşluğu tədricən dolduraraq idarə olunan və proqnozlaşdırıla bilən təhlükəsizlik mühitinə keçidi təmin edir. Üçüncü amil böyük güclər balansı kontekstidir. Cənubi Qafqaz tarixən Rusiya, Türkiyə, İran və son illər artan şəkildə Çin maraqlarının kəsişdiyi məkan olub. NATO-nun regionda birbaşa hərbi iştirakdan çəkinməsi balanslı strategiya olsa da, normallaşma prosesini dəstəkləməklə Alyans dolayı yolla regional güc konfiqurasiyasının kəskin şəkildə birtərəfli dominanta çevrilməsinin qarşısını almağa çalışır. Burada məqsəd konfrontasiyanı dərinləşdirmək deyil, çoxqütblü balansın sabit çərçivədə saxlanılmasıdır. Sülh mühiti regional aktorların daha müstəqil manevr imkanlarını artırır və xarici təsir alətlərinin manipulyasiya potensialını zəiflədir. Aleksandr Vinnikovun "biz birbaşa iştirakçı deyilik" ifadəsi NATO-nun institusional legitimlik və beynəlxalq hüquqi neytrallıq xəttini qorumaq strategiyasına uyğundur. Alyans açıq vasitəçi statusu götürsəydi, proses avtomatik olaraq geosiyasi bloklaşma müstəvisinə keçə bilərdi. Bunun əvəzinə "müttəfiqlərin səylərini dəstəkləmək" formulu vasitəsilə NATO dolayı təsir modeli tətbiq edir. ABŞ və Avropa İttifaqı üzvlərinin diplomatik təşəbbüsləri, faktiki olaraq, NATO-nun təhlükəsizlik arxitekturasının genişlənmiş stabil perimetri kimi çıxış edir. Dördüncü ölçü Qara dəniz təhlükəsizlik kompleksi ilə əlaqəlidir. Ukrayna müharibəsindən sonra Qara dəniz regionu NATO üçün prioritet təhlükəsizlik xəttinə çevrilib. Cənubi Qafqazda qeyri-sabitlik bu təhlükəsizlik kompleksinə dolayı təzyiq yaradır və logistik, hərbi-mobil və enerji marşrutlarının təhlükəsizliyini zəiflədir.



Nəhayət, beşinci amil liberal təhlükəsizlik yanaşmasıdır. NATO həm də institusional qaydalara əsaslanan təhlükəsizlik icmasıdır. Sülh sazişinin imzalanması, ratifikasiyası və icrası regional davranış normalarını beynəlxalq hüquq çərçivəsinə yaxınlaşdırır. Bütün bunlar isə uzunmüddətli perspektivdə konfliktlərin siyasi-institusional mexanizmlərlə həllini təşviq edir və NATO-nun normativ təsir imkanlarını gücləndirir.

Bəs Azərbaycan–Ermənistan sülhü regional təhlükəsizlik arxitekturasını konkret olaraq necə dəyişə bilər? Azərbaycan və Ermənistan arasında mümkün sülh sazişi Cənubi Qafqazın təhlükəsizlik arxitekturasında struktur xarakterli transformasiya yarada bilər. Politoloji baxımdan bu proses üç əsas ölçüdə – hərbi-strateji, geoiqtisadi və normativ-institusional səviyyələrdə özünü göstərə bilər. Birinci səviyyə hərbi-strateji balansın yenidən konfiqurasiyasıdır. Uzun müddət davam edən qarşıdurma klassik "təhlükəsizlik dilemması"nı dərinləşdirmişdi: tərəflər öz müdafiə potensialını gücləndirdikcə, bu addımlar qarşı tərəfdən hücum hazırlığı kimi qəbul olunur, nəticədə silahlanma spiralı formalaşırdı. İkinci səviyyə geoiqtisadi təhlükəsizlik modelinin formalaşmasıdır. Kommunikasiya və nəqliyyat dəhlizlərinin açılması Cənubi Qafqazı qapalı və fraqmentasiya olunmuş təhlükəsizlik mühitindən tranzit və qarşılıqlı asılılıq üzərində qurulan təhlükəsizlik modelinə keçirir. Üçüncü səviyyə normativ və institusional təhlükəsizlik mühitinin təşəkkülüdür. Sülh sazişinin ratifikasiyası və icrası beynəlxalq hüququn – sərhədlərin toxunulmazlığı, suverenlik, müqavilə öhdəliklərinə sadiqlik kimi prinsiplərin regional davranış modelinə çevrilməsinə imkan yaradır. Belə transformasiya regionu "postmünaqişə zonası"ndan "institusional əməkdaşlıq məkanı"na keçirir və xarici aktorların təsir imkanlarını daha şəffaf və proqnozlaşdırıla bilən çərçivəyə salır.

Dördüncü mühüm ölçü regional təhlükəsizlik kompleksinin yenidən dizaynıdır. Azərbaycan–Ermənistan sülhü Cənubi Qafqazın təhlükəsizlik kompleksini qarşıdurmayönümlü modeldən əməkdaşlıqyönümlü modelə transformasiya edə bilər. Beşinci aspekt siyasi diskursun transformasiyasıdır. Münaqişə dövründə siyasi legitimlik əsasən təhlükə narrativləri üzərində qurulurdu. Sülh prosesi isə daxili siyasi gündəmi iqtisadi inkişaf, regional inteqrasiya və institusional modernləşmə istiqamətinə yönəldə bilər.

*

Azərbaycanın NATO ilə tərəfdaşlığı sülh prosesində hansı strateji üstünlüklər yaradır? NATO-nun Cənubi Qafqaz üzrə Ofisinin rəhbəri Aleksandr Vinnikovun Azərbaycanı Alyansın "ən fəal tərəfdaşlarından biri" kimi xarakterizə etməsi ölkəmizin regional təhlükəsizlik arxitekturasında funksional aktora çevrildiyinin institusional təsdiqidir. Burada birinci strateji üstünlük institusional uyğunlaşma və əməliyyat qabiliyyətinin yüksəlməsidir. NATO ilə tərəfdaşlıq çərçivəsində Azərbaycan müdafiə planlaşdırılması, fövqəladə hallar üzrə koordinasiya, sərhəd təhlükəsizliyi sahələrində institusional bilik və texniki standartlar əldə edib. Sülhün davamlılığı üçün əsas şərtlərdən biri idarəolunan risk mühiti və çevik təhlükəsizlik institutlarının mövcudluğudur. İkinci üstünlük beynəlxalq legitimlik və normativ etibarlılıq kapitalıdır. NATO ilə intensiv əməkdaşlıq Azərbaycanın təhlükəsizlik siyasətinin beynəlxalq standartlara uyğunluğunu nümayiş etdirir və regional təşəbbüslərə əlavə siyasi çəkidarlıq qazandırır.

Üçüncü strateji üstünlük geosiyasi balans və çoxvektorlu manevr imkanlarıdır. Azərbaycan xarici siyasətində balanslaşdırılmış çoxvektorlu xətti qoruyaraq həm regional güclərlə, həm də Qərb təhlükəsizlik platformaları ilə paralel əməkdaşlıq modelini saxlayır. NATO ilə tərəfdaşlıq bu balansın Qərb komponentini institusional çərçivəyə salır və Azərbaycanın geosiyasi çevikliyini artırır. Belə bir model nə bloklaşma siyasətinə, nə də təhlükəsizlik asılılığına gətirib çıxarır; əksinə, dövlətə strateji muxtariyyət qazandırır. Sülh prosesi kontekstində bu balans mexanizmi Azərbaycanın regional təşəbbüslərinin legitimliyini gücləndirir və sülhün yalnız diplomatik razılaşma kimi deyil, real təhlükəsizlik zəmanətləri ilə dəstəklənməsinə imkan yaradır.

Dördüncü mühüm ölçü təhlükəsizlik ixracı və regional liderlik potensialıdır. NATO ilə əməkdaşlıq nəticəsində formalaşan institusional bacarıqlar Azərbaycanın regional layihələrdə təhlükəsizlik təminatçısı rolunu gücləndirir. Beşinci aspekt siyasi-diplomatik kapitalın artmasıdır. NATO ilə tərəfdaşlıq Azərbaycanın beynəlxalq platformalarda danışıq mövqeyini gücləndirir və ölkəni regional dialoqlar üçün etibarlı tərəfdaş kimi təqdim edir.

Son olaraq qeyd edək ki, NATO-nun Azərbaycan–Ermənistan normallaşmasını açıq şəkildə dəstəkləməsi Cənubi Qafqazın artıq Avro–Atlantik təhlükəsizlik məkanına toxunan strateji region kimi qəbul edildiyini göstərir. Əgər sülh sazişi ardıcıl şəkildə icra olunarsa, Cənubi Qafqaz risk istehsal edən məkandan təhlükəsizlik və əlaqəlilik ixrac edən geosiyasi platformaya çevrilə bilər.

*Şəbnəm ZEYNALOVA,*
*XQ-nin siyasi analitiki,*
*siyasi elmlər üzrə fəlsəfə doktoru*

# TRIPP-lə bağlı yeni ABŞ–Ermənistan sənədi

(əvvəli 1-ci səhifədə)

Tərəflərin regionda və onun qonşuluğunda dövlətlərin suverenliyi, ərazi bütövlüyü və yurisdiksiyasına hörmət əsasında sülhün, sabitliyin və rifahın təşviqi məqsədi ilə regional kommunikasiyaların açılmasının əhəmiyyətini təsdiqləndikləri, bu səylərin Azərbaycanın əsas hissəsi və onun Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantını, Ermənistan üçün beynəlxalq və ölkədaxili bağlantılar üzrə qarşılıqlı faydaları ehtiva etdiyini vurğuladıqları sənəddə, həmçinin bildirilib ki, Ermənistan öz ərazisində "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" (TRIPP) bağlantı layihəsi naminə çərçivənin müəyyənləşdirilməsi istiqamətində ABŞ və üçüncü tərəflərlə əməkdaşlıq quracaq: "Biz bu məqsədə ən qısa zamanda nail olmaq üçün xoş niyyətlə səy göstərməyə dair qətiyyətimizi təsdiq edirik".




Qeyd edək ki, üzərindən 6 aya qədər müddət keçməsinə baxmayaraq, TRIPP-in reallaşdırılması istiqamətində əməli tədbirlər görülməyib. Yalnız ötən ilin sonunda yayılan məlumatlarda layihə üzrə tikinti işlərinə yayda başlanacağı vurğulanıb. Elə isə sual yaranır: ABŞ-da imzalanması planlaşdırılan sənəddən nə gözləmək mümkündür? Əlbəttə, region üçün vacib mövzunun yüksək səslə gündəmə gətirilməsi onun aktuallığını qoruduğu anlamını verir və bu baxımdan Mirzoyanın Birləşmiş Ştatlara səfərini müsbət qiymətləndirmək mümkündür.

İmzalanması nəzərdə tutulan bəyanatı həm də ona görə faydalı saymaq olar ki, bu, siyasi-strateji çərçivə sənədi mahiyyəti daşıyacaq. Söhbət məcburedici hüquqi qüvvəsi olmayan çərçivə sənədindən gedir. Ehtimal etmək olar ki, tərəflər onu imzalamaqla əməkdaşlığa siyasi iradə motivi qazandıracaq, gələcək addımların istiqamətini açıqlayacaq, konkret fəaliyyət platforması yaradacaqlar. Əlbəttə, İrəvanın və Vaşinqtonun ayrı-ayrılıqda da mənfəətlərinin mövcudluğu vurğulanmalıdır.

Məsələn, ABŞ bu bəyanatla Ermənistanın Qərbə inteqrasiyasına siyasi dəstək göstərdiyini, ölkənin Rusiya nəqliyyat və təhlükəsizlik orbitindən tədricən çıxmasını təşviq etdiyini, İrəvanı regional logistika layihələrində Qərbin tərəfdaşı kimi göstərmək niyyətini açıqlayacaq. Nəzərə alaq ki, Vaşinqtonun Cənubi Qafqazda nəqliyyat marşrutlarının açılmasında iştirakçılıq məramı ortadadır. İrəvana gəldikdə, onun üçün ABŞ-da imzalanacaq bəyanatın məqsədləri daha praktikdir. Bu mənada Ermənistan rəhbərliyinin Rusiyanın mümkün təzyiqlərinə qarşı siyasi-ideoloji sığorta mexanizmini gücləndirməyi düşünməsi mümkündür. Habelə, sənədin ABŞ və Qərb investisiyaları, beynəlxalq maliyyə institutları üçün "yaşıl işıq" mahiyyəti vurğulanmalıdır.

TRIPP-lə əlaqədar yeni bəyanatın birbaşa anti-Azərbaycan motivi ehtimal edilməsədə, müəyyən risk faktoru var ki, bu barədə sonda söz açacağıq. Hələlik isə deyək ki, ABŞ-da imzalanacaq sənədin Ermənistanın daxili ictimai rəyi üçün mesaj anlamı var. Axı rəsmi İrəvan "Tramp marşrutu" ideyasını düşüncələrdə möhkəmləndirmək istəyir. Bu isə Azərbaycanın Zəngəzur dəhlizi ritorikasının güclənməməsi, yaxud bu ritorikanın zəiflədilməsi məqsədi daşıya bilər. Nəzərə alaq ki, baş nazir Nikol Paşinyan iqtidarı erməni ictimai rəyini sırf TRIPP xüsusunda kökləməkdə maraqlıdır. Çünki Ermənistandakı başıpozuq kütlə layihəni Bakının İrəvana diktəsi kimi qiymətləndirir və belə bir durum yayda seçki kimi çətin mərhələdən keçəcək Paşinyan administrasiyasının vəziyyətini çətinləşdirir. Deməli, yeni sənədi ABŞ-ın dolayısı ilə erməni iqtidarına seçki dəstəyi prizmasından da qiymətləndirmək yerinə düşər. Azərbaycan üçün məsələ ona görə faydalıdır ki, imzalanması planlaşdırılan bəyanat regional nəqliyyat məsələsinin, bir növ, beynəlmiləlləşdirilməsinə xidmətdir. Çünki ölkəmiz Naxçıvana yolda maraqlıdır. Yəni Bakıya yolun Birgə Bəyannamədə nəzərdə tutulan maneəsizlik kazusunu vurğulayan istənilən anlaşma məqbuldur.

Sonda haqqında söz açdığımız məqama yenidən qayıdaraq Ermənistan XİN-in ötən ilin dekabrında "Sputnik Ermənistan"ın sorğusuna cavab olaraq yaydığı açıqlama üzərində dayanaq. Açıqlamada bildirilmişdi ki, "Tramp marşrutu" layihəsinin icrasının praktik mərhələsi, o cümlədən tikinti işlərinin başlanması 2026-cı ilə planlaşdırılır və hazırda layihənin hüquqi bazasının və tənzimləmə mexanizmlərinin formalaşdırılması istiqamətində amerikalı tərəfdaşlarla intensiv danışıqlar aparılır. Müəyyən detallar üzərində dayanan Ermənistan xarici siyasət idarəsindən o da bildirilmişdi ki, Erməni–Amerikan birgə müəssisəsi – "TRIPP Company" Ermənistanda qeydiyyatdan keçəcək, dəmir və avtomobil yolları, neft-qaz kəmərləri, eləcə də fiber-optik rabitə xətləri daxil olmaqla, zəruri infrastrukturun inkişaf etdirilməsi hüququnu əldə edəcək.

Onu da deyək ki, Ermənistan XİN-in sözügedən açıqlamasında "Tramp marşrutu" rəsmi İrəvanın irəli sürdüyü "Sülh kəsişməsi"nin tərkib hissəsi qismində təqdim olunmuşdu. Ölkəmiz üçün anonsunu verdiyimiz risk faktoru məhz budur. Məlum olduğu kimi, illər əvvəl açıqlanmış "Sülh kəsişməsi"nin mahiyyəti TRIPP-lə o qədər də düz mütənasib deyildi. Çünki "kəsişmə" Naxçıvana yol məntiqini, loru dildə desək, dağa-daşa salırdı. Ona görə Azərbaycan "Tramp marşrutu"nun həyata keçirilməsi çərçivələrinə dair birgə bəyanatla bağlı prosesi diqqətlə izləməli, heç bir detalı kənara qoymamalıdır. Gedişatın məhz belə olacağı birmənalıdır.

*Ə.CAHANGİROĞLU*
*XQ*

# Regional sabitliyin "hidro" formulu

## *Transsərhəd imkanlar və Azərbaycanın ədalətli mövqeyi*

**Şirin su ehtiyatlarının azalması, demoqrafik artım kimi qlobal tendensiyalar su faktorunu tədricən geosiyasi təzyiq alətinə və milli suverenliyin strateji elementinə çevirib. Azərbaycan Prezidenti İlham Əliyevin Bakı şəhəri və Abşeron yarımadasında su təchizatı, tullantı, yağış suları sistemlərinin təkmilləşdirilməsinə dair Dövlət Proqramına həsr olunan müşavirədə səsləndirdiyi konseptual fikirlər, işğaldan azad edilmiş ərazilərdəki su infrastrukturunun bərpası və vaxtilə Ermənistan tərəfindən həyata keçirilən su terroru barədə bəyanatı ölkənin yeni hidro-siyasət strategiyasının konturlarını müəyyən edir. Dövlət başçısının "Sərsəng" və "Suqovuşan" su anbarlarının tamamilə yenidən qurulması və onların strateji əhəmiyyəti barədə vurğuladığı məsələlər Cənubi Qafqazın geosiyasi mənzərəsində Azərbaycanın diktə etdiyi yeni reallıqların təsdiqidir.**




Tarixi və siyasi nöqteyi-nəzərdən yanaşdıqda Ermənistanın otuz ilə yaxın davam edən işğal dövründə yürütdüyü siyasətin mahiyyəti beynəlxalq hüququn bütün norma və prinsiplərinə zidd olaraq planlı şəkildə ekoloji fəlakət və humanitar böhran yaratmağa hesablanmışdı. Prezidentin çıxışında istifadə etdiyi su terroru ifadəsi heç də təsadüfi seçilməmiş, əksinə, qarşı tərəfin əməllərinin hüquqi və siyasi qiymətini dəqiqliyi ilə ifadə edən terminoloji vahiddir. Tərtərçayın yatağında yerləşən və 1976-cı ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə inşa edilən "Sərsəng" su anbarı 560 milyon kubmetr su tutumu ilə regionun ən strateji hidrotexniki qurğusudur. Həmin nəhəng su hövzəsinin uzun illər işğal altında qalması Aşağı Qarabağın düzənlik rayonlarının, o cümlədən Tərtər, Ağdam, Bərdə, Goranboy, Yevlax və Ağcabədi rayonlarının yüz minlərlə hektar əkin sahəsinin suvarılmasını iflic vəziyyətinə salmışdı. Ermənistan rəhbərliyi sudan asimmetrik müharibə vasitəsi və siyasi şantaj aləti kimi istifadə etməklə regionda süni ekoloji gərginlik ocağı yaratmışdı. Bu cinayətkar fəaliyyət Avropa Şurası Parlament Assambleyasının 2016-cı ildə qəbul etdiyi 2085 saylı qətnaməsində də öz əksini tapıb. Sənəddə Ermənistanın Azərbaycanın sərhədyanı rayonlarının əhalisini qəsdən sudan məhrum etməsi faktı təsdiqlənərək, bu əməllər ekoloji təcavüz kimi qiymətləndirilib.

Azərbaycan Prezidenti, Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən uğurlu hərbi əməliyyatlar və xüsusilə 2023-cü ilin sentyabrında baş tutan lokal antiterror tədbirləri nəticəsində dövlət suverenliyinin tam bərpası su terroruna birdəfəlik son qoymaqla yanaşı, regionun inkişafında yeni mərhələnin başlanğıcı oldu. İlham Əliyevin müşavirədə bəyan etdiyi kimi, hazırkı dövrdə hər iki strateji obyekt "Sərsəng" və "Suqovuşan" su anbarları tamamilə yenidən qurulmuş və ən müasir standartlara uyğunlaşdırılmışdır. "Sərsəng" su anbarının Azərbaycanın tam nəzarətinə keçməsi iqtisadi və siyasi baxımdan bir neçə mühüm strateji nəticə doğurur. İlk növbədə, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının kənd təsərrüfatı potensialının reanimasiyası və sürətli inkişafı təmin olunur. Yüz min hektara yaxın torpaq sahəsinin dayanıqlı suvarma suyu ilə təminatının yaxşılaşdırılması ölkənin ərzaq təhlükəsizliyinə töhfə verəcək.

Məsələnin digər mühüm tərəfi hidroenerji potensialının reallaşdırılması və "yaşıl enerji" keçidinin sürətləndirilməsidir. "Sərsəng" və "Suqovuşan" üzərindəki su elektrik stansiyalarının bərpası və modernləşdirilməsi Azərbaycanın Yaşıl Enerji Dünyası naminə həmrəylik şüarı altında elan etdiyi qlobal təşəbbüslərin və daxili enerji strategiyasının tərkib hissəsidir. İşğaldan azad edilmiş ərazilərin Yaşıl Enerji Zonası elan edilməsi kontekstində sözügedən hidroqovşaqlar ekoloji cəhətdən təmiz enerjinin istehsalını təmin edərək regionun enerji dayanıqlılığını artırır və karbon emissiyasının azaldılmasına xidmət edir.

Dövlət başçısının müşavirədə toxunduğu məsələlərin təhlili göstərir ki, hazırkı mərhələdə həyata keçirilən nəhəng infrastruktur layihələri və strateji su obyektlərinin bərpası yaxın perspektivdə regionda baş verəcək bir sıra mühüm hadisələrin və qlobal trendlərin əsasını təşkil edir. Prosesdən sonra baş verə biləcək hadisələri siyasi-analitik yanaşma əsasında proqnozlaşdırdıqda, ilk növbədə, aqrar sektorun intibahı və ixrac diversifikasiyası diqqəti cəlb edir. "Sərsəng" su anbarının tam gücü ilə fəaliyyətə başlaması Qarabağ düzənliyində aqrar landşaftı kökündən dəyişdirəcək və regionun iqtisadi simasını yeniləyəcək. Azərbaycanın həyata keçirdiyi ekoloji layihələr beynəlxalq ekoloji təşkilatların diqqətini cəlb edəcək və Bakı COP29 tədbirindən sonrakı dövrdə də iqlim dəyişmələri ilə mübarizədə regional lider rolunu möhkəmləndirəcək.

Üçüncü vacib məqam transsərhəd su diplomatiyasında Azərbaycanın üstünlüyünün və geosiyasi mövqeyinin güclənməsidir. Cənubi Qafqazda su resurslarının idarə olunması üzrə yeni formatlar və əməkdaşlıq mexanizmləri yaranacaq. Ölkəmizin əsas su mənbələrini və anbarlarını nəzarətə götürməsi rəsmi Bakıya gələcək danışıqlarda, xüsusilə postmünaqişə dövründə Ermənistanla münasibətlərin normallaşması prosesində əlavə siyasi rıçaqlar verir. İrəvan hökuməti və onun havadarları anlamalıdırlar ki, regional əməkdaşlıq, mehriban qonşuluq olmadan su və enerji təhlükəsizliyini təmin etmək mümkün deyil.

Dördüncü istiqamət əhalinin məskunlaşması və Böyük Qayıdış prosesinin sürətlənməsidir. Su həyatdır və suyun olduğu yerdə sivilizasiya, inkişaf, məskunlaşma var. Su təminatının etibarlı və keyfiyyətli şəkildə həll olunması keçmiş məcburi köçkünlərin azad edilmiş ərazilərə qayıdış prosesini sürətləndirəcək, onların doğma yurdlarında dayanıqlı məskunlaşmasını təmin edəcəkdir.

Dövlət başçısının tapşırıqlarına əsasən su itkilərinin azaldılması və uçot sisteminin təkmilləşdirilməsi vacib vəzifələrdir. Köhnəlmiş infrastrukturda baş verən texniki itkilər və sudan qeyri-səmərəli istifadə ən azı suverenlik qədər vacib və strateji məsələlərdir. "Sərsəng" və "Suqovuşan"dan gələn suyun hər damlasının qızıl dəyərində olduğunu nəzərə alaraq fermerlər, istehlakçılar arasında maarifləndirmə işlərinin aparılması, sudan qənaətlə istifadə mədəniyyətinin formalaşdırılması müasir suvarma texnologiyalarına keçidin stimullaşdırılması tələb olunur. Dövlət subsidiya və güzəşt mexanizmləri vasitəsilə sahibkarları suya qənaət edən texnologiyalara yönəldəcək və resurslardan səmərəli istifadəni təşviq edəcəkdir. Prezidentin səsləndirdiyi su terroru faktı gələcəkdə Ermənistana qarşı beynəlxalq məhkəmələrdə qaldırılacaq təzminat davalarında və ekoloji cinayətlərə görə məsuliyyətə cəlbetmə prosesində güclü hüquqi arqument rolunu oynayacaq.

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən su strategiyası çoxşaxəli, kompleks və gələcəyə yönəlmiş xarakter daşıyır. Strateji kurs hərbi qələbəni iqtisadi inkişafa, iqtisadi inkişafı isə sosial rifaha və ekoloji tarazlığa çevirmək məharətidir. "Sərsəng"in bərpa olunmuş bəndi Azərbaycan dövlətçiliyinin sarsılmazlığının, iradəsinin və əbədiliyinin rəmzidir. Tarix bir daha sübut etdi ki, ədalət gec-tez zəfər çalır və haqqı tapdanan xalq öz liderinin ətrafında dəmir yumruq kimi birləşərək həm torpağını, həm də suyunu azad etməyə, tarixi ədaləti bərpa etməyə qadirdir.

Qarşıdan gələn illərdə Azərbaycanın suverenliyi, həm də su, ərzaq və enerji təhlükəsizliyinin tam təmin olunması ilə ölçüləcəkdir. Dövlət başçısının qətiyyətli mövqeyi onu deməyə əsas verir ki, rəsmi Bakı bütün qlobal və regional çağırışlara adekvat cavab verməyə, milli maraqları ən yüksək səviyyədə qorumağa və regionun inkişaf gündəliyini müəyyən etməyə qadirdir.

*Yusif ŞƏRİFZADƏ*
*XQ*

# Siyasi balansın iqtisadi mexanizmə verdiyi yeni dizayn

## *Azərbaycan ABŞ-ın özəl sektorunun maraq dairəsinə daxil olub*

**Müasir beynəlxalq sistemdə nəqliyyat xətləri artıq ticarətin texniki infrastrukturu funksiyasını aşaraq dövlətlərin geosiyasi çəkisini ölçən əsas indikatorlardan birinə çevrilib. Bu gün "böyük güclər" klassik hərbi-siyasi alyans modelindən daha çox, iqtisadi arteriyalar üzərindən qurulan təsir mexanizmlərinə üstünlük verirlər. Bu konfiqurasiyada TRIPP xətti Azərbaycanın regional rolunu logistika ölkəsi statusundan çıxarıb, Avrasiyanın iqtisadi və siyasi arxitekturasını formalaşdıran aktora çevirən yeni nəsil güc platformasına dönür.**

ABŞ Ticarət və İnkişaf Agentliyinin (USTDA) Yaxın Şərq, Şimali Afrika, Avropa və Avrasiya regionları üzrə regional direktoru Karl Kressin rəhbərlik etdiyi nümayəndə heyətinin Bakıya səfəri zamanı müzakirə olunan mövzular əsasən tranzit və loqistika məsələlərini əhatə edirdi. XİN-də keçirilən görüşdə tərəflər TRIPP marşrutu da daxil olmaqla regional bağlantılar, iqtisadi sərmayə kimi sahələrdə ikitərəfli əməkdaşlığın mövcud vəziyyəti və ABŞ-ın özəl sektor nümayəndələrinin müvafiq infrastruktur və logistika əməkdaşlığın inkişaf perspektivləri müzakirə ediblər.

ABŞ özəl sektorunun ölkəmizə yönələn marağı reallığın iqtisadi proyeksiyasıdır və Vaşinqtonun regiona dair uzunmüddətli strategiyasının biznes xətti üzərindən icra olunduğunu açıq şəkildə göstərir. Tramp marşrutu Qara dəniz – Xəzər – Mərkəzi Asiya – Çin oxu üzrə formalaşan ticarət axınlarının əsas qovşağını təşkil edir. Avropa İttifaqının "Global Gateway", ABŞ-ın "Partnership for Global Infrastructure and Investment (PGII)" təşəbbüsləri kontekstində bu xətt artıq alternativ dəhliz anlayışı kimi deyil, Rusiyadan yan keçən əsas strateji marşrut kimi qəbul edilir.

Vaşinqton üçün bu xəttin siyasi əhəmiyyəti enerji təhlükəsizliyi, sanksiya risklərinin neytrallaşdırılması, Çindən ticarət asılılığının şaxələndirilməsi və regionda qərb yönümlü iqtisadi blokun möhkəmləndirilməsi kimi bir neçə əsas prioriteti eyni vaxtda birləşdirir. ABŞ özəl biznesinin Azərbaycan bazarına daxil olması isə bu geosiyasi dizaynın bu sektor üzərindən institusionallaşdırılması anlamına gəlir.

Azərbaycanın liman, dəmir yolu və avtomobil magistralları üzərində apardığı modernləşmə proqramları TRIPP xəttini Qafqazın əsas logistikasına, onurğa sütununa çevirib. Bakı Beynəlxalq Dəniz Ticarət Limanının yükötürmə qabiliyyətinin mərhələli şəkildə 25 milyon tona, konteyner dövriyyəsinin isə 500 min TEU-dan yuxarı səviyyəyə yüksəldilməsi hədəfi, Bakı–Tbilisi–Qars dəmir yolu xəttinin genişləndirilməsi, Ələt Azad İqtisadi Zonasının regional paylama mərkəzi kimi formalaşdırılması ABŞ-ın logistika operatorları, infrastruktur fondları və sənaye konsorsiumları üçün ölçüləbilən investisiya bazası yaradır. Bu, artıq perspektiv diskursu yox, konkret maliyyə planlaması ilə müşayiət olunan real layihə portfelidir.



Enerji kontekstində Azərbaycanın mövqeyi TRIPP-in siyasi təhlükəsizlik dayağını təşkil edir. Cənub Qaz Dəhlizi vasitəsilə Avropaya yönələn təbii qaz axınları, Qara dəniz üzərindən planlaşdırılan yüksək gərginlikli kabel xətləri, Xəzər hövzəsində genişlənən külək və günəş layihələri ABŞ enerji şirkətləri üçün regionu "yaşıl enerji bazası" kimi təqdim edir. Vaşinqton bu platforma üzərindən Avropanın enerji şaxələndirmə xəttini möhkəmləndirir, eyni zamanda, Rusiya qazına alternativ arxitekturanın iqtisadi əsaslarını gücləndirir. Azərbaycan bu prosesdə tranzit ölkə rolunu aşaraq enerji diplomatiyasının əsas düyün nöqtəsinə çevrilir.

Siyasi müstəvidə ABŞ özəl sektorunun fəallaşması iki paralel xətti birləşdirir. Bir tərəfdən, bu, regionda qərb kapitallı infrastrukturun genişlənməsi ilə Moskva və Pekin təsirinin balanslaşdırılmasına xidmət edir. Digər tərəfdən, Cənubi Qafqazda iqtisadi təhlükəsizlik kəmərinin formalaşdırılması Vaşinqtonun regional sabitlik doktrinasının praktik mexanizminə çevrilir. Azərbaycanın təqdim etdiyi hüquqi sabitlik, sərmayələrin qorunması mexanizmləri, vergi güzəştləri, arbitraj imkanları və vahid pəncərə sistemi ABŞ fondları üçün aşağı riskli bazar modeli yaradır.

Bu model artıq beynəlxalq maliyyə institutlarının da diqqət mərkəzindədir. ABŞ-ın İnkişaf Maliyyə Korporasiyası (DFC), Ticarət və İnkişaf Agentliyi (USTDA), eləcə də böyük infrastruktur fondları Azərbaycanı Orta Dəhliz üzrə layihələrin mərkəzi icra platforması kimi nəzərdən keçirir. Liman, dəmir yolu, sənaye parkları, rəqəmsal logistika, "ağıllı gömrük" və "yaşıl nəqliyyat" sahələrində texnoloji modernləşmə xətti üzrə formalaşan layihələr regionda qərb texnologiyalarının normativ standart kimi yerləşdirilməsi missiyasını daşıyır.

Prezident İlham Əliyev bu layihənin önəmindən bəhs edərkən vurğulayıb: "Bu layihə tam başa çatandan sonra onun yükötürmə qabiliyyəti 15 milyon tona bərabər olacaq... Yüklər Azərbaycanda cəmləşəcək və Azərbaycandan müxtəlif istiqamətlərə gedəcək. Ona görə də Zəngəzur dəhlizinin reallaşması artıq həll olunmuş məsələ kimi qəbul edilməlidir. Mən inanmıram ki, Ermənistan bu məsələdən boyun qaçırsın, bu, özünəqəsd kimi qiymətləndirilə bilər".

TRIPP marşrutu ətrafında qurulan əməkdaşlıq Azərbaycan–ABŞ münasibətlərində klassik diplomatik çərçivəni aşan yeni mərhələnin konturlarını formalaşdırır. Bu mərhələ ticarət statistikasının artımından daha geniş məna daşıyır: Cənubi Qafqazda siyasi balansın iqtisadi mexanizmlər üzərindən yenidən dizaynı, Avrasiyanın yeni logistika xəritəsində Azərbaycanın mərkəzi aktor kimi möhkəmlənməsi və ABŞ özəl sektorunun regiona institusional girişinin təmin olunması anlamına gəlir. TRIPP bu mənada Vaşinqtonun Avrasiya strategiyasının görünən iqtisadi onurğa sütunudur.

***Tacir SADIQOV***
***XQ***

# 5 illik siyasi qadağanın pərdəarxası

## *Marin Le Penə qarşı hüquqi sanksiya, yoxsa siyasi qərəz?*

**Müasir Fransada siyasi mübarizə getdikcə ideoloji rəqabət çərçivəsindən çıxaraq hüquqi-institusional nəzarət mexanizmləri üzərindən formalaşan yeni mərhələyə qədəm qoyur. Formal olaraq demokratik prinsiplərin və hakimiyyət bölgüsünün mövcud olduğu iddia edilən sistemdə Emmanuel Makronun siyasi xəttinə qarşı çıxanların yolunun ardıcıl şəkildə istintaq, məhkəmə və həbs qərarlarına aparması artıq tendensiyaya çevrilib.**

Görünür, Fransada "qanunun aliliyi" anlayışı getdikcə ucuzlaşdırılır. Hakimiyyət legitimliyini hüquqi mexanizmlər üzərindən qorumağa çalışdıqca, siyasi mübarizəni asimmetrik və riskli hala çevirir. Yəni ölkədə müxalif olmaqla potensial hüquqi məsuliyyət daşımaq eyni anlama gəlir. İfrat sağçı Marin Le Pen ətrafında cərəyan edən son proseslər bu modelin bariz nümunəsidir.

Uzun illər Fransa siyasətində sistemdaxili rəqib kimi mövcud olan, seçkilər yolu ilə hakimiyyətə gəlməyə çalışan fiqurun birdən-birə "demokratik ictimai qaydanın qorunması" arqumenti ilə siyasi mühitdən kənarlaşdırılması Fransa demokratiyasının liberal modeli ilə ziddiyyət təşkil edir. Burada əsas məsələ Le Penin hüquqi günahkarlığından daha çox onun siyasi rəqabətinin nə üçün məhkəmə zalında həll edilməsidir? Əgər bir siyasətçi seçici dəstəyi ilə real hakimiyyət alternativinə çevrilirsə və onun fəaliyyəti hüquqi bloklama ilə qarşılaşırsa, bu, artıq açıq-aşkar qərəzdən irəli gəlir. Məhkəmənin qərarı siyasi nəticə doğuran alətə çevrildikdə isə, hüquqi prosesin neytrallığı sual altına düşür. Başqa sözlə desək, Le Penin beşillik siyasi fəaliyyət qadağası, faktiki olaraq, seçici iradəsinin məhdudlaşdırılması anlamına gəlir.

**ARAYIŞ:** *2004–2016-cı illərdə Marin Le Pen Avropa Parlamentinin üzvü olub və bu status ona Avropa İttifaqı büdcəsindən maliyyələşən parlament köməkçiləri saxlamaq hüququ verirdi. Qaydalara əsasən, əldə olunan vəsait Avropa Parlamentində qanunvericilik fəaliyyəti ilə birbaşa bağlı işlər üçün istifadə edilməli idi. Yəni köməkçilər Brüsseldə və ya Strasburqda parlamentar fəaliyyət göstərməli, milli partiya strukturlarında işləməməli idilər. İstintaqın nəticələrinə görə, Marin Le Pen və onun rəhbərlik etdiyi ifrat sağçı Milli Birlik Partiyasının bəzi üzvləri bu qaydanı sistemli şəkildə pozublar.*

*Sənədlərində qeyd olunur ki, Avroparlamentdən ayrılmış milyonlarla avro partiya əməkdaşlarının maaşlarının ödənilməsinə yönəldilib. Onlar "Avropa Parlamentinin köməkçisi" statusu daşısalar da, əslində, partiyaya işləyiblər, seçki kampaniyalarında iştirak ediblər. İstintaq materiallarında onlarla elektron yazışma, əmək müqavilələri və iş bölgüsünü sübut edən sənədlər var. Nəticədə, məhkəmə Marine Le Peni vəsaitlərin mənimsənilməsində təqsirli bilib. Ona qarşı bir neçə sanksiya tətbiq edilib: Beş il müddətinə dövlət vəzifələrinə namizəd olmaq qadağası, maliyyə cəriməsi və Avropa Parlamentinə milyonlarla avro məbləğində kompensasiya öhdəliyi.*

Ən çox müzakirə doğuran məqam qadağanın dərhal qüvvəyə minməsi olub. Adətən bu cür qərarlar apellyasiya prosesinin başa çatmasından sonra icra edilir. Lakin hakimlər bu işdə istisna tətbiq edərək bildiriblər ki, qadağanın təxirə salınması "demokratik ictimai qaydaya bərpaolunmaz zərər" vura bilər. Əsaslandırma hüquqi baxımdan mümkün olsa da, siyasi müstəvidə ciddi polemika yaradıb. Le Pen və tərəfdarları məhz bu nöqtədə qərarın siyasi motivli olduğunu iddia edirlər. Onların arqumentinə görə, məhkəmə hüquqi məsələni siyasi nəticə doğuracaq şəkildə tövsif edib və bununla da 2027-ci il prezident seçkilərində güclü namizədin fəaliyyətinin qarşısını alıb. Le Pen açıq şəkildə bildirib ki, məhkəmə sistemi onu siyasi yarışdan kənarlaşdırmaq üçün alətə çevrilib. Qarşı tərəf isə vurğulayır ki, məsələ ictimai vəsaitlərin qorunması ilə əlaqədardır. Avropa Parlamentinin hüquqşünasları məhkəmədə bildiriblər ki, bu cür pozuntulara göz yumulması Aİ institutlarının legitimliyinə ciddi zərbə vura bilər.



İctimai rəy sorğuları göstərir ki, fransızların əhəmiyyətli hissəsi məhkəmə qərarını dəstəkləyib. Bununla belə, beynəlxalq müstəvidə, eləcə də "Reuters" agentliyinin yaydığı məlumatlarda qərar Avropada artan "hüquqi-siyasi qarşıdurma" tendensiyasının tərkib hissəsi kimi qiymətləndirilib. Hazırda Le Pen apellyasiya mərhələsindədir. Əgər apellyasiya məhkəməsi qadağanı ləğv edər və ya müddətini azaldarsa, onun 2027-ci il seçkilərində iştirak ehtimalı yenidən gündəmə gələ bilər. Əks halda, Fransa siyasətində bir dövr, faktiki olaraq, bağlanmış sayılacaq və ifrat sağın liderliyi yeni fiqurların üzərinə keçəcək.

Fransada "Sarı jiletlilər" hərəkatından tutmuş pensiya islahatlarına qarşı kütləvi aksiyalara qədər bütün etiraz dalğaları oxşar ssenari ilə idarə olunur. Söhbət gücləndirilmiş polis müdaxiləsi, kütləvi həbslər, sürətləndirilmiş məhkəmə prosedurları və ağır cəzalardan gedir. Bu halda insanların etiraz hüququ tədricən ictimai asayiş riski kimi təqdim olunur. Bir şey dəqiqdir ki, Makron administrasiyası üçün əsas risk konkret ideologiya deyil. Nə ifrat sağ, nə radikal sol, nə də küçə hərəkatları arasında prinsipal fərq qoyulur. Vahid meyar odur ki, sistemin legitimliyini sorğulayan hər kəs təhlükə kimi qəbul edilir. Bu kontekstdə "məhkəmə müstəqilliyi" anlayışı getdikcə simvolik məna daşıyır. Hakimlər formal olaraq qanuna istinad etsələr də, qərarların siyasi nəticələri öncədən məlum olur. Əlbəttə ki, Makron və onun komandasının iradəsinə uyğun olaraq...

### *Ekspert rəyi*



**Hüseyn SULTANLI, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin məsləhətçisi**

Fransada daxili siyasi mühit hələ də qəzəb, qeyri-sabitlik və qeyri-müəyyənliklə səciyyələnir. Ölkədə baş verən hadisələr artıq illərdir davam edən daxili böhranın davamı kimi qiymətləndirilir. Həmin böhran çərçivəsində Prezidentin legitimliyi dəfələrlə sual altına düşüb. Makronun sabit hökumət formalaşdıra bilməməsi, onun siyasi və demokratik legitimliyinin getdikcə daha çox müzakirə olunmasına gətirib çıxarıb. Sözügedən kontekstdə diqqət çəkən nümunələrdən biri də Marin Le Penin işi ilə bağlıdır. Onun beş il müddətinə Fransa prezidentliyinə namizədliyinin qadağan edilməsi ilə bağlı qərar ciddi etirazlara yol açıb. Hətta Le Penin tərəfdarları ilə yanaşı, Avropanın müxtəlif ölkələrindən olan siyasətçilər, o cümlədən Macarıstanın Baş naziri Viktor Orban qərarı siyasi motivli addım kimi qiymətləndirib. Le Pen və onun rəhbərlik etdiyi Milli Birlik Partiyasının tərəfdarları israrla bildirirlər ki, bu iş dövlət vəzifəsinə namizədlik hüququnun əlindən alınmasını əsaslandırmır. Apellyasiya prosesinin nəticəsinə gəldikdə, bu, Fransa siyasətinin gələcəyi baxımından həlledici olacaq. Le Penin mümkün məğlubiyyətinin cəmiyyətdə yaradacağı sarsıntılar artıq zəifləyən Makronun reytinqi üçün ciddi nəticələr doğura bilər.

Yeri gəlmişkən, Makronun fəaliyyətinə yönələn əsas tənqidlərdən biri də islahat qanunlarını irəli sürmək üçün icra hakimiyyətinin səlahiyyətlərindən qeyri-populyar şəkildə istifadə etməsidir. Buna misal olaraq 2023-cü ildə Konstitusiyanın 49.3-cü maddəsindən istifadə edilərək pensiya islahatı qanununun zorla qəbul etdirilməsini göstərmək olar. Eyni zamanda, onun ölkəsini uzunmüddətli siyasi dalandan çıxara bilməməsi də ciddi iradlar doğurur. 2024-cü ilin iyununda tələsik və uğursuz şəkildə növbədənkənar seçkilərin elan edilməsindən sonra Milli Assambleyanın parçalanmış vəziyyətdə qalması Prezidentin manevr imkanlarını xeyli məhdudlaşdırıb. Bu amillər 2027-ci il prezident seçkiləri ərəfəsində rəy sorğularında Milli Birlik Partiyasına verilən rekord səviyyəli dəstəklə birləşərək artıq zəifləməkdə olan Makron dövrünə həlledici zərbə vura bilər.

***Nəzrin ELDARQIZI***
***XQ***

# Qardaşlığın qırılmaz telləri

## *Azərbaycan–Türkmənistan əməkdaşlığı hər iki tərəfə böyük fayda gətirəcək*

**Bu il Aşqabadda Türkmənistan və Azərbaycan arasında iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 9-cu iclası keçiriləcək. Bu barədə Türkmənistan Xarici İşlər Nazirliyi məlumat yayıb. Xəbərdə bildirilir ki, məlumat XİN başçısı Rəşid Meredovun Azərbaycanın Aşqabaddakı səfiri Qismət Gözəlovla görüşündə açıqlanıb. Görüşdə iki ölkə arasında siyasi-diplomatik, ticari-iqtisadi və mədəni-humanitar sahələrdəki aktual istiqamətlər müzakirə olunub, ən ali səviyyəli səfərlərin və liderlərarası görüşlərin təşkili məsələlərinə xüsusi diqqət yetirilib, bunun ikitərəfli əməkdaşlıqda roluna toxunulub.**



Azərbaycan və Türkmənistan arasında münasibətlər strateji xarakter daşıyır. Hər iki ölkə arasında yüksək səviyyədə qarşılıqlı etimad mövcuddur ki, bu da beynəlxalq platformalarda koordinasiyalı fəaliyyət üçün əlverişli zəmin yaradır. Bu əməkdaşlıq enerji diplomatiyası üçün də vacib imkanlar yaradır. Enerji sahəsində əməkdaşlıq yalnız iqtisadi maraqlara xidmət etmir, həm də ixrac marşrutlarının şaxələndirilməsi və regional enerji balansının qorunması kimi geosiyasi məqsədləri dəstəkləyir. Xəzər dənizinin hüquqi statusuna dair razılaşmalar, enerji və nəqliyyat layihələri, dəniz təhlükəsizliyi və ekoloji tarazlıq sahəsində qarşılıqlı dialoq imkanlarını genişləndirir.

Uzun müddət mübahisə mövzusu olmuş "Kəpəz"/"Sərdar" yatağı ilə bağlı razılıq da iki ölkə arasında əməkdaşlığın konkret nümunəsidir. Yataq Xəzər dənizində sərhəd bölgəsində yerləşir və "Dostluq" adı altında birgə işləniləcək. Qeyd edək ki, bu yataq SSRİ dövründə kəşf olunub. Azərbaycan tərəfinin infrastruktur və texnologiyası onun hasilatının dünya bazarına çıxarılmasını təmin edəcək. Məsələ burasındadır ki, Türkmənistanın dərinsulu dəniz ərazilərində yataqların işlənməsinə imkan verən infrastrukturu, yataqdan çıxarılacaq nefti, qazı sahilə daşıyacaq kəməri yoxdur. Bunları yaratmaq, sahildən çox uzaqda yerləşən neft-qazı Türkmənistan sahilinə çatdırmaq üçün boru kəmərlərini çəkmək külli miqdarda vəsait tələb edir. Azərbaycan isə hər iki istiqamətdə həm böyük təcrübəyə, həm də müasir infrastruktura malikdir. "Dostluq" yatağından hasil olunacaq neft-qazı rahatlıqla AÇG-dən sahilə gələn boru ilə nəql etmək mümkündür. Karbohidrogen ehtiyatlarının işlənməsi və dünya bazarlarına çıxarılması sahəsində Azərbaycanın əldə etdiyi uğurlar imkan verəcək ki, yataqdan hasil olunan yanacaq dünya bazarlarına çatdırsın. Bu isə Türkmənistanın TAP və TANAP kimi boru xətləri vasitəsilə qazı Avropa bazarına çıxarmaq potensialını artıracaq.

İqtisadi əməkdaşlıq isə yalnız enerji sahəsi ilə məhdudlaşmır. Azərbaycan və Türkmənistan həm də Orta Dəhliz təşəbbüsü çərçivəsində nəqliyyat və logistika sahəsində strateji əlaqələr qurur. Xəzər dənizi üzərindənnəqliyyat və enerji daşımaları iki ölkəni bir-birini tamamlayan tranzit mərkəzlərinə çevirir və Avropa–Asiya ticarət əlaqələrinin inkişafına töhfə verir. Bununla da enerji və logistika sahələrində qarşılıqlı əməkdaşlıq Türkmənistan–Azərbaycan tərəfdaşlığının strateji mahiyyətini daha da möhkəmləndirən amillərdən biridir.

Xüsusilə son illərdə Bakı–Türkmənbaşı bərə xətti ilə yük dövriyyəsi əhəmiyyətli dərəcədə artıb. Məsələn, 2023-cü ildə Türkmənistan limanlarından Bakı limanı vasitəsilə yükaşırma 3 milyon ton təşkil edib, 2024-cü ildə 12,5 faiz artaraq 3,36 milyon tona çatıb. 2025-ci ilin ilk rübündə artım 16,7 faizə yüksəlib. Bu göstəricilər Azərbaycan–Türkmənistan nəqliyyat əməkdaşlığının sabit və artan dinamikasını göstərir. Eyni zamanda, iki ölkə arasında əməkdaşlıq "Lapis-Lazuli" marşrutu üzrə də genişlənir. Bu dəhliz Azərbaycan dəmir yolu və liman infrastrukturu ilə əlaqələndirilərək Əfqanıstan və Avropa bazarları yük daşımalarını artıracaq.

Maraqlıdır ki, yeni iqtisadi imkanlar Azərbaycan – Türkmənistan əməkdaşlığını yalnız yanacaq, nəqliyyat–logistika ilə məhdudlaşdırmır. Dəhliz üzərindən daşınan yüklərin həcminin artması ilə yanaşı, yeni iqtisadi sahələrdə əməkdaşlıq da reallaşacaq. Türkmənistanın neft-qaz məhsulları, eləcə də kimya və tekstil sənayesində də əməkdaşlıq imkanları mövcuddur.

"Dostluq" yatağı və Transxəzər enerji layihələri regionda iqtisadi və geosiyasi əməkdaşlığın güclənməsinə, qarşılıqlı sərmayə imkanlarının genişləndirir. İki qardaş ölkə arasında strateji tərəfdaşlığın möhkəmlənməsi ortaq iqtisadi maraqlara, həm də Türk Dövlətləri Təşkilatının güclənməsinə, Mərkəzi Asiyanın Qafqaza daha sıx inteqrasiyasına xidmət edir.

Onu da qeyd edək ki, görüş zamanı mədəni-humanitar əlaqələrin inkişafına da xüsusi diqqət yetirilib. Bu il Türkmənistanda Azərbaycan Mədəniyyəti Günlərinin keçirilməsi planlaşdırılır. Türkmənistan və Azərbaycan xalqları arasında tarixən formalaşmış ortaq mədəni ənənələr, dil yaxınlığı və mənəvi dəyərlər mədəni-humanitar əməkdaşlığın təməlini təşkil edir. Bu yaxınlıq münasibətlərin cəmiyyətlər arasında davamlı şəkildə inkişaf etməsinə şərait yaradır. Humanitar sahədə əlaqələr qarşılıqlı anlaşma və etimad mühitinin formalaşmasında mühüm rol oynayaraq, iki ölkə arasında siyasi və iqtisadi əməkdaşlığı tamamlayan amil kimi çıxış edir.

Son illər mədəni mübadilə və humanitar dialoqun intensivləşməsi bu istiqamətdə atılan addımların ardıcıl xarakter daşıdığını göstərir. Qarşılıqlı səfərlər, elmi və mədəni simpoziumlar, sərgi və konsert proqramları, həmçinin müxtəlif ictimai tədbirlər xalqlar arasında birbaşa təmasları gücləndirir, ortaq tarixi-mədəni irsin daha dərindən dərk olunmasına imkan yaradır. Bu cür tədbirlər yalnız mədəniyyətin təşviqi ilə məhdudlaşmır, eyni zamanda, qarşılıqlı etimadın möhkəmlənməsinə və ictimai rəyin müsbət istiqamətdə formalaşmasına töhfə verir.

Bundan başqa, Türkmənistan Xalq Məsləhətinin sədri Qurbanqulu Berdiməhəmmədovun Füzuli və Şuşaya səfəri, bərpa-quruculuq işləri ilə tanış olması Azərbaycana mənəvi dəstəyi nümayiş etdirir. Bu səfər strateji tərəfdaşlığın güclənməsi və ikitərəfli münasibətlərin dərinləşməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Berdiməhəmmədovun xüsusilə Şuşada yerləşən Yeni Şuşa məscidində tikinti işlərinin gedişi ilə tanış olması isə Türkmənistanın Azərbaycanın mədəni irsinin bərpasına verdiyi mənəvi və simvolik dəstəyi göstərir.

**Politoloq Elməddin Behbud** XQ-yə bildirdi ki, Azərbaycan və Türkmənistan arasında mövcud strateji tərəfdaşlıq yalnız siyasi ritorikaya söykənmir: "O, həm də konkret iqtisadi və institusional mexanizmlərlə dəstəklənir. Xüsusilə, enerji resurslarının paylaşımı və regional nəqliyyat-logistika imkanlarının inteqrasiyası bu əməkdaşlığı yalnız ikitərəfli deyil, eyni zamanda, regional səviyyədə strateji əhəmiyyətli edir. Tarixi-mədəni yaxınlıq isə siyasi etimad və uzunmüddətli tərəfdaşlıq üçün möhkəm zəmin yaradır. Bu baxımdan, formalaşmaqda olan model Azərbaycanın Mərkəzi Asiya ölkələri və Türk Dövlətləri Təşkilatı çərçivəsində geoiqtisadi inteqrasiyasına yeni imkanlar açır: həm enerji təhlükəsizliyinin təmin olunması, həm regional ticarət və tranzit marşrutlarının inkişafı, həm də türk dünyası daxilində iqtisadi əlaqələrin gücləndirilməsi perspektivləri ortaya çıxır. Əməkdaşlıq həm ikitərəfli strateji maraqları, həm də geniş regional geoiqtisadi strategiyanı birləşdirən çoxşaxəli bir modeldir. Bu, həm də geosiyasi balans baxımından mühüm əhəmiyyət kəsb edir. Bir sözlə, Azərbaycanın təşəbbüsləri və Türkmənistanın dəstəyi nəticəsində formalaşan əməkdaşlıq platformaları regionda sabitlik, qarşılıqlı etimad və iqtisadi inkişaf üçün münbit zəmin yaradır".



***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Fransanın NATO təşəbbüsü Avropanı dəyişə bilərmi?



**Son günlər Fransada baş verən siyasi hadisə Avropanın təhlükəsizlik sistemində dərin çatların yarandığını açıq şəkildə göstərir.**

Fransa parlamentinə ölkənin NATO üzvlüyündən çıxmasını tələb edən qanun layihəsinin daxil olması alyansın gələcəyi ilə bağlı illərdir səssizcə aparılan müzakirələri ictimai və siyasi gündəmin mərkəzinə çıxarıb. Hələlik bu təşəbbüsün real nəticəyə çevrilib-çevrilməyəcəyi bəlli olmasa da, faktın özü Avropa təhlükəsizlik arxitekturasının nə qədər kövrək olduğunu nümayiş etdirir. Fransa kimi hərbi gücü, siyasi çəkisi və tarixi ambisiyaları olan bir dövlətin NATO-dan çıxışı ideyasının parlament səviyyəsində səslənməsi təsadüfi deyil.

NATO uzun illər Avropa üçün təkcə hərbi alyans deyil, həm də təhlükəsizlik hissinin sinonimi olub. Bu struktur Avropanı müharibə qorxusundan qoruyub, siyasi sabitliyin təminatçısına çevrilib. İndi isə Fransa faktoru bu sabitliyin sarsıla biləcəyini göstərir. Alyans daxilində ABŞ-dan sonra ən müstəqil strateji mövqeyə və nüvə silahına malik ölkənin kənara çəkilməsi NATO-nun Avropa dayaqlarını zəiflədər, onu daha çox ABŞ–Britaniya mərkəzli mexanizmə çevirər. Belə bir dəyişiklik Transatlantik tərəfdaşlığın ruhunu boşaldar və NATO-nu formal struktura endirə bilər.

Fransanın mümkün çıxışı Avropada zəncirvari reaksiyaya səbəb ola bilər. Bu addım digər ölkələr üçün presedent yaradaraq NATO-ya skeptik yanaşan siyasi qüvvələrin mövqelərini gücləndirər. Almaniyada, İtaliyada və Şimali Avropada alyansın gələcəyi ilə bağlı suallar daha ucadan səslənməyə başlaya bilər. Nəticədə, NATO formal olaraq mövcud qalsa belə, onun real çəkindirici gücü zəifləyər, kollektiv müdafiə anlayışı isə kağız üzərində qalmaq riski ilə üzləşər.

Avropa üçün bu prosesin ən ağrılı tərəfi daxili parçalanma təhlükəsidir. Fransa illərdir "strateji muxtariyyət" ideyasını irəli sürür və Avropanın ABŞ-dan asılı olmadan öz təhlükəsizliyini təmin etməsini müdafiə edir. NATO-dan çıxış bu ideyanın ən radikal ifadəsi ola bilər. Lakin Şərqi Avropa ölkələri üçün bu yol cəlbedici görünmür. Onlar ABŞ-ın təhlükəsizlik zəmanətlərini həyati hesab edir və Fransa liderliyində qurula biləcək Avropa təhlükəsizlik modelinə ehtiyatla yanaşırlar. Beləliklə, Avropa vahid təhlükəsizlik məkanından çoxsürətli və parçalanmış geosiyasi məkana çevrilə bilər.

Bu vəziyyət qlobal güclər üçün də yeni imkanlar yaradar. Rusiya Avropada yaranan qeyri-müəyyənlikdən istifadə edərək təsir dairəsini genişləndirməyə çalışar. Çin isə hərbi deyil, iqtisadi və siyasi vasitələrlə Avropada mövqelərini gücləndirər. Avropa daxilində koordinasiyanın zəifləməsi bu güclərin manevr imkanlarını daha da artırar.

Fransanın NATO-dan çıxışı, eyni zamanda, nüvə təhlükəsizliyi məsələsini də yenidən gündəmə gətirər. Fransa nüvə potensialı ilə Avropa təhlükəsizliyinin qeyri-rəsmi sütunlarından biri sayılır. Onun alyansdan kənarda qalması Avropada nüvə deterrensiyasının daha çox ABŞ-a bağlanmasına gətirib çıxarar. Bu isə paradoksal şəkildə Avropanın müstəqilliyini artırmaq əvəzinə, strateji asılılığı daha da dərinləşdirər.

Beləliklə, Fransa parlamentinə NATO-dan çıxışla bağlı qanun layihəsinin təqdim olunması, sadəcə, bir siyasi təşəbbüs deyil. Bu hadisə Avropanın təhlükəsizlik modelinin sınaq qarşısında olduğunu göstərən ciddi siqnaldır. NATO-nun dağılması hələlik qaçılmaz olmasa da, Fransa nümunəsi göstərir ki, Avropa artıq köhnə təhlükəsizlik formullarına kor-koranə güvənmir. Qarşıdakı dövr Avropa üçün daha az rahat, daha çox suallar və risklərlə dolu ola bilər. NATO sonrası dünya hələ formalaşmayıb, lakin onun kölgəsi artıq Avropanın üzərinə düşməyə başlayıb.

***Səbuhi MƏMMƏDOV***
***XQ***

# Ermənistanda heç kəs yeni "Qırmızı ordu" gözləmir

*"Haypərəst" Solovyovdan Ermənistanın "Şərəf" ordeni alınacaqmı?*

**Avantürist fikirləri ilə məşhur olan rusiyalı "propaqandist", teleaparıcı Vladimir Solovyov növbəti dəfə qalmaqal doğuran açıqlamalarla çıxış edib. O, internetdə yayımlanan "Solovyov Live" adlı müəllif proqramında Rusiyanın Ukraynadakı kimi Ermənistan və Mərkəzi Asiya ölkələrində də "xüsusi hərbi əməliyyat" keçirməsi təklifi ilə çıxış edib.**



Solovyov deyib: "Biz hazırda təkcə Suriya və Venesuela ilə məşğul olmamalıyıq. Biz öz mövqelərimizi itirməməliyik. Ancaq bizim üçün ən mühüm olan yaxın xaricdir. Ermənistanda baş verənlər bizim üçün Venesuelada baş verənlərdən daha ağrılıdır. Ermənistanın itirilməsi nəhəng problemdir. Mərkəzi Asiyamızdakı (?) problem bizim üçün nəhəng problem ola bilər. Biz məqsəd və vəzifələrimizi çox aydın və dəqiq şəkildə ifadə etməliyik. İzah etməliyik: oyun bitdi. Beynəlxalq hüquq və qayda-qanunlar rədd olsun. Əgər milli təhlükəsizliyimiz səbəbindən Ukrayna ərazisində xüsusi hərbi əməliyyata başlamağımız zəruri idisə, niyə eyni səbəbdən nüfuz dairəmizin digər nöqtələrində bu əməliyyatı başlada bilmirik?".

Onun bu fikirləri Ermənistanda kəskin etiraz doğurub. Rusiya Federasiyasınınn İrəvandakı səfiri Sergey Kopırkin Ermənistan Xarici İşlər Nazirliyinə çağırılıb və ona V.Solovyovun açıqlamalarından dərin hiddət ifadə edən etiraz notası təqdim edilib. Ermənistan XİN-in sözçüsü Ani Badalyan bu barədə "Armenpress"ə verdiyi açıqlamada bildirib: "Rusiyanın Ermənistandakı səfiri Xarici İşlər Nazirliyinə çağırılıb və ona dövlət mediaholdinqinə daxil olan bir kanalın efirində yayımlanan verilişdə verilən açıqlamalara görə dərin hiddəti ifadə edən etiraz notası təqdim edilib. Qeyd edilib ki, bu, Ermənistan Respublikasının suverenliyinə qəbuledilməz qəsd, düşmənçilik təzahürü və Ermənistanla Rusiya arasında dostluq münasibətlərinin fundamental prinsiplərinin kobud şəkildə pozulmasıdır".

Ermənistan Milli Assambleyasının (parlament) sədr müavini Ruben Rubinyan V.Solovyovun Ermənistanın itirilməsinin Rusiyanın maraqlarına uyğun olmadığı və Moskvanın beynəlxalq hüquqa məhəl qoymadan təkcə Ukraynada deyil, həm də nüfuz dairəsindəki digər ərazilərdə xüsusi hərbi əməliyyat keçirməli olduğu barədə açıqlamasına sərt cavab verib. O, öz fikirlərini "Facebook" səhifəsində belə ifadə edib: "İt hürər, karvan keçər. Bu halda it rusiyalı iş adamı Samvel Karapetyanın yaxın dostu və həmyerlisi Solovyov, karvan isə geridönməz sülh və inkişafa doğru irəliləyən sevimli ölkəmizdir".

Ermənistan Televiziya və Radio üzrə Komissiyanın sədri Tiqran Akopyan rusiyalı təbliğatçının Ermənistan Respublikasının "Şərəf" ordenindən məhrum edilməsini təklif edib. Akopyan xatırladıb ki, V.Solovyov 2013-cü ildə "Ermənistan və Rusiya xalqları arasında dostluğun inkişafına və sülhün möhkəmləndirilməsinə verdiyi töhfəyə görə" bu ordenlə təltif olunub. Əlavə edib ki, lakin bu gün həmin şəxs Ukraynada baş verən hadisələrə bənzər şəkildə Ermənistana qarşı hərbi müdaxilə ssenarisini açıq şəkildə təklif edir. Komissiya sədrinin sözlərinə görə, Ermənistana hədə-qorxu gələn və faktiki olaraq ölkəyə qarşı müharibəyə çağırış edən bir şəxs Ermənistanın ali dövlət mükafatlarından birini daşıya bilməz. "Onun "Şərəf" ordenindən məhrum edilməsi dövlətin ləyaqətinin qorunması üçün minimal və zəruri addımdır", – deyə T.Akopyan bildirib.

*

Solovyovun rezonans doğuran açıqlamalarına Ermənistanın digər siyasətçi və jurnalistləri də münasibət bildiriblər. Beynəlxalq və Strateji Araşdırmalar İnstitutunun təsisçisi və sədri Stepan Səfəryan özünün "Facebook" səhifəsində yazıb: "Erməni xalqının keçmiş dostu", qoyun dərisi altında gizlənən Kremlin təbliğatçısı Vladimir Solovyov ABŞ Prezidentinin Venesueladakı uğurundan ilhamlanaraq, Rusiyanın təsir zonalarında, xüsusən də Ermənistanda və Mərkəzi Asiyada xüsusi hərbi əməliyyat keçirmək kimi təhlükəli ideyanı açıq şəkildə irəli sürüb. Əlbəttə, Ermənistan siyasi cameəsi tam şəkildə bu ideyanı qınamalı və ona qarşı çıxmalıdır".

Səfəryan xatırladıb ki, 2022-ci il oktyabrın 31-də Soçidə Rusiya, Azərbaycan və Ermənistan liderləri Ermənistan və Azərbaycanın suverenliyini və ərazi bütövlüyünü qarşılıqlı şəkildə tanıyan Soçi Bəyannaməsini imzalayıblar: "Bu, Rusiya da daxil olmaqla, üçtərəfli öhdəlikdir".

O əlavə edib ki, Rusiyaya BMT Nizamnaməsini və Ermənistana xarici hərbi təcavüzü deyil, müttəfiqcəsinə müdafiəni nəzərdə tutan ikitərəfli müqavilələr çərçivəsində öhdəliklərini də xatırlatmaq lazımdır. Səfəryan vurğulayıb ki, Ermənistan Beynəlxalq Cinayət Məhkəməsinin Roma Statutunu ratifikasiya edib və ona qarşı hər hansı hərəkət beynəlxalq hüquqi prosesə məruz qala bilər. Ermənistan müttəfiqinə qarşı şikayət edən ilk ölkə olmaq istəməzdi: "Hesab edirəm ki, Ermənistan bu cəfəngiyyata yüksək səviyyədə cavab verməlidir. Mərkəzi Asiyanın müstəqil respublikalarının konsolidasiya olunmuş bəyanatı da eyni dərəcədə vacibdir. Ermənistanın siyasi cameəsi heç bir boşluq buraxmamalıdır. Aydın şəkildə bildirilməlidir ki, Ermənistanda heç kəs "Qırmızı ordu"-nu gözləmir".

"Respublika" partiyasının nümayəndəsi, ölkənin sabiq elm və təhsil naziri Armen Aşotyan deyib ki, Ermənistan–Rusiya münasibətlərində ciddiyyət, səmimilik və şəfqətli dialoq çatışmır. Onun sözlərinə görə, Ermənistan cəmiyyətinin bir hissəsi həddindən artıq rusofiliya, digər hissəsi isə həddindən artıq və məqsədli rusofobiya mövcuddur: "Əlbəttə, bu ifratçılıq arasında dostluq, strateji ittifaq, ortaq tarix, mədəniyyət və gələcək var. Bu iki ifrat daxilində Ermənistan–Rusiya münasibətlərinin, necə deyərlər, duzu itirilir, hər cür insanın faydalanmasına imkan verilir". Aşotyan, həmçinin Solovyovun yanaşmasındakı incəlik çatışmazlığından çaşqınlıq duyduğunu vurğulayıb. O, eyni zamanda, məşhur "Şərq incə məsələdir" deyimini xatırladıb.

Parlamentdəki "Hayastan" fraksiyasının üzvü, daşnak İşxan Saqatelyan yumşaq açıqlaması ilə diqqəti çəkib. O, mənbəyindən asılı olmayaraq, Ermənistanın suverenliyinə qarşı yönəlmiş istənilən sözü və ya hərəkəti pislədiklərini bildirib.

*

"ArmenianReport" saytında isə Solovyovun fikirlərini kəskin tənqid edən 3 analitik məqalə əksini tapıb. "Bu, qanlı "rus dünyası"dır", "Mənəvi eybəcərin, manyakın və Ermənistanın "böyük dostu"nun antierməni təxribatı" və "Ermənistanda müharibə carçısına yer yoxdur!" sərlövhəli məqalələrdə Rusiyanın media-siyasi elitasının Ermənistanla bağlı real niyyətlərini açıq şəkildə ortaya qoyduqları bildirilir. Qeyd edilir ki, Kremlə yaxın təbliğatçıların, xüsusilə V.Solovyovun çıxışları fonunda Ermənistan artıq müstəqil dövlət və tərəfdaş kimi deyil, "təsir zonası"nın itirilə biləcək elementi kimi təqdim olunur. Xüsusi hərbi əməliyyatın digər ölkələrə də şamil oluna biləcəyi barədə səslənən fikirlər beynəlxalq hüququn inkarı və güc siyasətinin normallaşdırılması kimi qiymətləndirilir.

Yazılarda vurğulanır ki, bu ritorika təsadüfi emosional çıxış deyil, illərdir formalaşdırılan imperial düşüncənin açıq ifadəsidir. Solovyov, Aleksandr Duqin və Dmitri Medvedyev kimi fiqurlar vasitəsilə Ermənistanın suverenliyi şərti anlayışa çevrilir, qərarvermə haqqı isə Moskvanın "təhlükəsizlik maraqları" ilə əvəzlənir. Xüsusilə diqqətə çatdırılır ki, Ermənistanın keçmiş rəhbərliyi bu media-siyasi dairələrin mahiyyətini ciddi şəkildə yanlış qiymətləndirib, nəticədə, ölkədə "rus dünyası" ideologiyasının möhkəmlənməsinə şərait yaradılıb.

Məqalələrdə İrəvanın son reaksiyaları – diplomatik etiraz, Solovyovun persona-non-grata elan edilməsi çağırışları gecikmiş, lakin zəruri addımlar kimi dəyərləndirilir. Eyni zamanda, qeyd olunur ki, Rusiyada dərinləşən iqtisadi problemlər, sanksiyalar və regional böhranlar Kreml təbliğatının daha aqressiv və təhlükəli xarakter almasına səbəb olur. Nəticə etibarilə, bu yazılar Ermənistan cəmiyyətinə illüziyalarla vidalaşmaq və təhlükəni açıq, rasional şəkildə qiymətləndirmək çağırışı kimi təqdim olunur.

***Səxavət HƏMİD***
***XQ***

# Səngiməyən mina terroru




**Əsrlər boyu baş verən müharibələr heç bir xalqa, ölkəyə xoşbəxtlik gətirməyib, fəsadları illərlə davam edib. İkinci Dünya müharibəsindən 80 ildən artıq vaxt keçsə də, partlamayan minalara rast gəlinir. Azərbaycan da dünyada mina ilə ən çox çirklənmiş ölkələr sırasındadır. Ermənistan 30 il ərzində işğalda saxladığı əraziləri xarabalığa çevirməklə və infrastrukturu məhv etməklə yanaşı, şəhər, kənd və qəsəbələrə aparan yolları, tarixi abidələrin yerləşdiyi yerləri, qəbiristanlıqları, əkin sahələrini qarış-qarış minalayıblar. Qarabağ işğaldan azad olunduqdan sonra ilk iş bu ərazilərin minalardan təmizlənməsi olub. Hazırda da təmizləmə işləri uğurla davam etdirilir. Minatəmizləmə əməliyyatlarını ANAMA, Müdafiə Nazirliyi, Fövqəladə Hallar Nazirliyi (FHN), Dövlət Sərhəd Xidməti (DSX) və dörd özəl şirkət tərəfindən həyata keçirilir.**

İşlərin sürətli və daha da təhlükəsiz aparılması üçün "İmprotex" Şirkətlər Qrupu tərəfindən bir neçə il öncə "Made in Azerbaijan" brendi adı altında istehsal olunan "Revival P" mexaniki minatəmizləmə maşınları Minatəmizləmə Agentliyinə təhvil verilib. Beynəlxalq minatəmizləmə standartlarına əsasən mexaniki minatəmizləmə vasitələri piyada və tank əleyhinə mina xətlərinin aşkar edilməsi, ərazilərin təmizlənməsi üçün sahələrin hazırlanması, minaaxtaran itlərin dəstəyi ilə şübhəli-təhlükəli ərazilərin qısaldılması məqsədilə istifadə edilir. Minatəmizləmə metodologiyalarından biri olan mexaniki minatəmizləmə vasitələri əməliyyatların səmərəli və təhlükəsiz yerinə yetirilməsi baxımından ən başlıca vasitələrindən biridir. "Revival P" piyada əleyhinə mexaniki minatəmizləmə vasitələri 7 kiloqramlıq TNT partlayışlarına qarşı dayanıqlıdır. Müəyyən edilmiş standartlar əsasında mexaniki vasitələrin ön hissəsində yerləşdirilən toxmaqlar vasitəsilə torpağın döyəclənməsi çətin ərazi relyefində əməliyyatların aparılmasını təmin edir. Maşınların uzaqdan idarə olunması heyətin təhlükəsizliyinə zəmanət verir. "Revival P" minatəmizləmə vasitələri "Böyük Qayıdış" proqramı çərçivəsində icra edilən bərpa-quruculuq, habelə keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına təhlükəsiz geridönüşü məqsədilə həyata keçirilən humanitar minatəmizləmə fəaliyyətinə böyük töhfədir.

Müharibədən zərər çəkmiş rayonlarda ANAMA tərəfindən mütəmadi olaraq mina və partlayıcı qurğuların təhlükəsinə dair maarifləndirmə tədbirləri icra edilir. Əhalinin bu kimi risklərdən qorunması, partlayıcı sursatların törədə biləcəyi fəsadlardan müdafiə olunması, eləcə də təhlükəsiz mühitinin yaradılması məsələlərinə Agentlik xüsusi önəm verir. Bu məqsədlə, kənd sakinləri, fərdi sahibkarlıq, kənd təsərrüfatı fəaliyyəti ilə məşğul olan sakinlər arasında bu istiqamətdə maarifləndirmə təbliğatı aparılır.

Bu il yanvarın 7-də Cəbrayıl rayonunun Mehdili kəndi ərazisində humanitar minatəmizləmə əməliyyatlarına cəlb edilən özəl şirkətlərdən birinin əməkdaşı 1985-ci il təvəllüdlü Məmmədov Rəşad Nəriman oğlu xidməti vəzifəsini yerinə yetirərkən piyadaəleyhinə mina partlayışı baş verib. Hadisə nəticəsində zərərçəkən ayaq nahiyəsindən yüngül xəsarətlər alıb. Eləcə də yanvarın 11-də Ağdərə rayonunun Qızıloba kəndi ərazisində qeyri-hökumət təşkilatının əməkdaşı 1988-ci il təvəllüdlü Kərimov Elvin Həmiddin oğlu da xidməti vəzifəsini yerinə yetirərkən piyada əleyhinə mina partlayışı nəticəsində xəsarət alıb. Həmin şəxsin sağ ayağı topuq nahiyəsindən amputasiya olunub.

Minatəmizləmə Agentliyi işğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb olunmuş qurumlar tərəfindən 2025-ci ildə icra edilən minatəmizləmə əməliyyatlarına dair məlumatında bildirilir ki, ötən il Tərtər, Ağdərə, Kəlbəcər, Ağdam, Xocalı, Xankəndi, Xocavənd, Laçın, Şuşa, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilanda aparılmış minatəmizləmə əməliyyatları zamanı piyadaəleyhinə 4 min 963, tankəleyhinə 1861 mina və 52 min 392, 2021–2025-ci illər ərzində isə ümumilikdə 248 391,6 hektar ərazi mina və partladılmamış hərbi sursatlardan təmizlənib. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın tədbirlər planına əsasən, 2026-cı ilin sonunadək 280 min hektar ərazinin minalardan təmizlənməsi nəzərdə tutulub. Beləliklə, Dövlət Proqramının icra müddətinin başa çatmasına təxminən bir il qalmış, nəzərdə tutulan ümumi ərazinin 81,5 faizi artıq minalardan tam təmizlənib.



**"Minalar Əleyhinə Azərbaycan Kampaniyası" İctimai Birliyinin sədri Hafiz Səfixanov** XQ-yə açıqlamasında bildirib ki, bütün hərbi əməliyyatlar Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərində aparıldığı üçün bu gün Azərbaycan dünyada mina və PHS ilə ən çox çirklənmiş ölkələrdəndir. Bu, məcburi köçkünlərin öz ərazilərinə qayıtmasına böyük problem yaradır. Ermənistanın basdırdığı minalar təxminən 800 min məcburi köçkünün öz yerlərinə qayıtması və yaşaması baxımından böyük problemdir. Vətən müharibəsindən sonra məlum oldu ki, Azərbaycanın 12 faizdən artıq ərazisi minalarla çirkləndirilib. İşğaldan azad edilmiş 1 166 702 hektar ərazidə minaların olması güman edilir, bunun da 211 800 hektar yüksək və 954 902 hektar orta və aşağı çirklənmə səviyyəsindədir. "Minalar üzrə ekspertlərin Beynəlxalq Böhran Qrupuna verdikləri ilkin məlumatlara görə azad edilmiş ərazinin təxminən beşdə biri yüksək dərəcədə çirklənmiş və təxminən üçdə ikisi humanitar minatəmizləmə üçün prioritet sahə kimi təsnif edilir".

H.Səfixanov qeyd etdi ki, təşkilatın apardığı tədqiqat zamanı keçmiş təmas xəttinin və onun ətrafında yerləşən bağların, meşələrin, üzüm bağlarının, dağıdılmış yaşayış məntəqələrinin, çay sahillərinin və qəbiristanlıqların minalarla ciddi şəkildə çirkləndiyi aşkar edilib. Minalara habelə kənd təsərrüfatına yararlı torpaqlarda və ətraflarında, otlaqlarda, yollarda, körpülərdə, məktəblərdə, su mənbələrində rast gəlinib. Bütün bunları nəzərə alaraq işğaldan azad olunmuş rayon ərazilərində xəbərdaredici maarifləndirici lövhələr quraşdırılmış, çoxlu sayda çap materialları (poster, broşür və s.) hazırlanaraq paylanılır. Maarifləndirmə işləri əsasən bu qruplarla aparılır: işğaldan azad edilmiş ərazilərə köç edənlər, azad edilmiş ərazilərdə fəaliyyət göstərən dövlət və özəl qurumun əməkdaşları, müharibənin təsirinə məruz qalmış digər əhali qrupu.

Bundan başqa, işğaldan azad edilmiş ərazilərə səfər edən insanlara nəzarət-buraxılış məntəqələrində maarifləndirici-məlumatlandırıcı tövsiyələr verilir. Azərbaycandakı mina probleminin miqyasını nəzərə alan sədr daha sonra bildirdi ki, bu problemin bir dəfəlik həll olunması üçün uzun müddət lazımdır, bu səbəbdən biz yalnız maarifləndirmə yolu ilə əhalinin mina qurbanı olmasından qurtara bilərik, burada əsas cəhətlərdən bəlkə də ən əsası isə əhalinin maarifləndirmə proqramlarında verilmiş təlimatlara ciddi əməl etməsi olmalıdır. Aparılan mina təmizləmə əməliyyatları, maarifləndirmə proqramları və digər tədbirlər nəticəsində 2021-ci illə müqayisədə zərərçəkmişlərin sayında 73 faiz, mina hadisələrin sayında isə 69 faiz azalma qeydə alınmışdır.

Hazırda əzəli torpaqlarımızın sürətlə minalardan təmizlənməsi bu ərazilərdə yeni həyatın tezliklə tam bərqərar olunacağından xəbər verir.

***Müşfiq MİRZƏ***
***XQ***

# İtaliya ölkəmizin ən böyük ticarət tərəfdaşıdır

## *Bu il 18 istiqamətdə 65 tədbir gerçəkləşdiriləcək*



**Bakıda Azərbaycan və İtaliya arasında İqtisadi Əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın VI iclası keçirilib. İclas çərçivəsində iki ölkə arasında əməkdaşlığın mövcud vəziyyəti və gələcək inkişaf perspektivləri müzakirə olunub.**

Energetika naziri Pərviz Şahbazov bildirib ki, indiki görüş Azərbaycan ilə İtaliya arasında əlaqələrin strateji səviyyəyə yüksəldiyini açıq şəkildə nümayiş etdirir. İki ölkə arasında münasibətlərin keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğunu vurğulayan nazir qeyd edib ki, İtaliya hazırda Azərbaycanın ən böyük ticarət tərəfdaşıdır və ümumi ticarət dövriyyəsinin 25 faizi bu ölkənin payına düşür.

P.Şahbazov İtaliyanın Orta Dəhliz layihəsi çərçivəsində Avropa üçün mühüm logistika mərkəzinə çevrilə biləcəyini də vurğulayıb. O bildirib ki, Azərbaycan ilə İtaliya arasında əməkdaşlıq təkcə enerji sahəsi ilə məhdudlaşmır, hərbi-texniki sahələr də daxil olmaqla müxtəlif istiqamətlərdə uğurla inkişaf edir. Eyni zamanda, İtaliya Azərbaycanın işğaldan azad edilmiş ərazilərində layihələrə cəlb olunan ilk ölkələrdən biridir.

Qeyd olunub ki, indiyədək Trans-Adriatik Boru Kəməri (TAP) vasitəsilə Avropaya 54,3 milyard kubmetr qaz nəql olunub. TAP Avropanın enerji təhlükəsizliyinə mühüm töhfə verməklə yanaşı, İtaliyanın etibarlı qaz təchizatında da xüsusi rol oynayır. Belə ki, bu kəmər vasitəsilə İtaliya indiyədək 45,4 milyard kubmetr Azərbaycan qazı ilə təmin edilib.

Azərbaycanla Mərkəzi Asiya, Türkiyə və Avropa arasında regional "yaşıl enerji" dəhlizi təşəbbüsləri Azərbaycan–İtaliya əlaqələri üçün yeni imkanlar barədə də fikir səsləndirilib. Bu kontekstdə İtaliyanın "CESI" şirkətinin Xəzər–Qara dəniz–Avropa və Mərkəzi Asiya–Azərbaycan yaşıl enerji dəhlizləri layihələrinin texniki-iqtisadi əsaslandırmalarının hazırlanmasında məsləhətçi tərəfdaş kimi iştirak etdiyi qeyd olunub.

Daha sonra iclasda Azərbaycanın ötən il SOCAR vasitəsilə 10 milyon 340 min ton neft və ümumilikdə, 9,5 milyard kubmetr qaz tədarük etməklə İtaliyanın xam neft üzrə əsas, təbii qaz üzrə isə ikinci ən böyük təchizatçısı mövqeyini qoruyub saxladığı bildirilib. Qeyd edək ki, İtaliya Azərbaycanın Avropada neft və qaz üzrə ən böyük alıcısıdır və ümumi neft ixracının təxminən 45 faizi, qaz ixracının isə 38 faizi bu ölkənin payına düşür.

Xatırladaq ki, indiyədək İtaliyadan Azərbaycana 805 milyon ABŞ dolları məbləğində investisiya yatırılıb. Onun sözlərinə görə, Azərbaycanın ixracının 46,7 faizi İtaliyanın payına düşür. Ümumilikdə, indiyədək Azərbaycandan İtaliyaya 342 milyon dollar, İtaliyadan isə Azərbaycana 805 milyon dollar həcmində investisiya qoyulub. Nazir əlavə edib ki, Azərbaycan Dövlət Neft Fondunun İtaliyadakı investisiya portfelinin bazar dəyəri 2,8 milyard dollar təşkil edir və bu göstəricilərin artırılması üçün sərmayələrin təşviqi və qarşılıqlı qorunmasına dair sazişin imzalanması zəruri məsələlərdən biridir.

Sonda Azərbaycan və İtaliya arasında Hökumətlərarası Komissiyanın VI iclasının protokolu imzalanıb. Bununla yanaşı, 2026–2027-ci illəri əhatə edən, 18 istiqamət üzrə 65 tədbirin icrasını nəzərdə tutan Fəaliyyət Planı qəbul edilib.

***XQ***

# Yeraltı xəzinənin xalqımıza töhfəsi

## *Ötən il ölkədə 27,7 milyon ton neft və 51,5 milyard kubmetr təbii qaz hasil olunub*

**Energetika Nazirliyinin yaydığı operativ məlumatlara əsasən, 2025-ci ildə Azərbaycanda 27,7 milyon ton neft (kondensatla birlikdə) hasil edilib. Hasilatın 16,2 milyon tonu "Azəri-Çıraq-Günəşli" yataqlar blokunun, 3,8 milyon tonu (kondensat) "Şahdəniz" və 0,6 milyon tonu (kondensat) "Abşeron" yataqlarının payına düşüb. İl ərzində Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) üzrə neft və kondensat hasilatı isə 7,1 milyon ton təşkil edib.**



Qurumun məlumatında o da bildirilir ki, il ərzində xam neft hasilatı orta hesabla gündəlik 62,4 min ton, kondensat hasilatı 13,5 min ton təşkil edib. Ümumilikdə, hesabat dövründə ölkə üzrə neft hasilatı orta hesabla gündəlik 75,9 min ton olub. Bütövlükdə isə, Azərbaycanda karbohidrogenlərin sənaye üsulu ilə çıxarılmasına başlandığı vaxtdan indiyədək quru və dəniz yataqlarından, təqribən, 2 milyard 263 milyon ton neft və kondensat hasil olunub. İşlənmənin əvvəlindən qurudakı yataqlardan 992 milyon tondan artıq neft çıxarılıb. Ümumi hasilatın əksər hissəsi isə Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən zəngin neft yataqlarının payına düşüb. Belə ki, 1949-cu ildə dünyada ilk dəfə açıq dənizdə neftçxarmanın əsası qoyulduğu "Neft daşları" yatağının istismara daxil edilməsindən ötən 76 il ərzində Xəzər yataqlarından 1 milyard 265 milyon tondan çox neft və kondensat çıxarılıb.

2026-cı il yanvarın 1-dək "Azəri-Çıraq-Günəşli" yataqlar blokundan (bütün istismar dövründə) 617,5 milyon tondan artıq neft, "Şahdəniz" yatağından isə 52,5 milyon tona yaxın kondensat hasil olunub. Neft və kondensatın 668,3 milyon tonu ixrac edilib.

Yeri gəlmişkən, mütəxəssislərin proqnozlarına görə, hazırda Azərbaycanın çıxarıla bilən qalıq neft ehtiyatları 1 milyard tondan artıqdır ki, bunun da əksər hissəsi dəniz yataqlarının payına düşür. Bununla belə, son illər ölkəmizdə neft hasilatında azalma müşahidə olunur. Bu da ümumi iqtisadi inkişafa təsirsiz ötüşmür. Təsadüfi deyil ki, Prezident İlham Əliyev yanvarın 5-də yerli televiziya kanallarına müsahibəsi zamanı bu vacib məqama toxunaraq deyib: "Bizim bir problemimiz var, bu da neft hasilatının təbii azalmasıdır.

Bu amil ÜDM göstəricilərinə müəyyən mənfi təsir göstərir. Lakin əgər qeyri-neft və qeyri-qaz sektorunda ÜDM-ə baxsaq, görərik ki, 11 ay ərzində 3,2 faiz artım qeydə alınıb, bu da pis göstərici deyil. Bu artım daha yüksək ola bilər və böyük ehtimalla olacaq. Eyni zamanda, biz neft hasilatının sabitləşdirilməsi üzərində işləyirik, – bu, mümkündür, – və təbii qaz hasilatının artırılması istiqamətində də addımlar atırıq. Bu da iqtisadiyyatımıza əlavə dinamika verəcək və onun böyüməsinə töhfə olacaq. Lakin artım təbii olmalıdır".

Bununla yanaşı, dövlət başçısı əvvəlki çıxışlarında hökumət qurumlarının və Dövlət Neft Şirkətinin bu işlərin gələcək gedişatına daim diqqət yetirəcəyini vurğulayaraq ölkənin ümumi iqtisadi inkişaf templərini geriyə çəkən bu azalmanın aradan qaldırılacağına və sabit neft hasilatının təmin ediləcəyinə ümidvar olduğunu bildirib.

Yeri gəlmişkən, ABŞ Enerji İnformasiya Administrasiyası (EİA) 2026-cı ildə Azərbaycanda neft hasilatının sutkada 0,54 milyon barel səviyyəsində olacağını ehtimal edir ki, bu da əvvəlki proqnozlara uyğun gəlir. Qurumun proqnozuna görə, orta gündəlik hasilat göstəriciləri birinci rübdə 0,55 barel, ikinci rübdə 0,54 barel, üçüncü rübdə isə 53 mln barel təşkil edəcək. EİA, həmçinin hesab edir ki, 2027-ci ilə qədər Azərbaycanda gündəlik orta hesabla 0,65 milyon barel neft-qaz hasil olunacaq ki, bu da yeni perspektivli layihələrlə bağlıdır.

Əvvəlki illərdə olduğu kimi, "qara qızıl"ın magistral neft kəmərləri ilə dünya bazarına nəqli də fasiləsiz olaraq davam edib. Energetika Nazirliyinin məlumatına əsasən, 2025-ci ildə 23,1 milyon ton neft (qaz kondensatı ilə birlikdə) ixrac olunub. İxracın 20 milyon tonu Azərbaycan hökuməti ilə tərəfdaşlıqda çalışan konsorsiumun, 2,5 milyon tonu SOCAR-ın, 0,6 milyon tonu isə "Abşeron" yatağının əməliyyatçısı olan JOCAP-ın payına düşüb.

2025-ci ildə Heydər Əliyev adına Bakı Neft Emalı Zavodunda 6,2 milyon ton xam neft emal olunub. Yeri gəlmişkən, ölkəmizdə xam neftin emalı təməli 1953-cü ildə qoyulmuş Heydər Əliyev adına Bakı Neft Emalı Zavodunda həyata keçirilir. Daxili bazarın neft məhsullarına olan tələbatını tam ödəyən zavodda son illər bir sıra yenidənqurma və modernləşdirmə işləri aparılıb.

Energetika Nazirliyinin 2025-ci ilin yekunları ilə bağlı hesabatına əsasən, il ərzində ölkədə 51,5 milyard kubmetr təbii qaz hasil edilib. Qazın 14,1 milyard kubmetri "Azəri-Çıraq-Günəşli" yataqlar blokunun, 27,9 milyard kubmetri "Şahdəniz" və 1,6 milyard kubmetri "Abşeron" yataqlarının payına düşüb. Hesabat dövründə SOCAR-ın tabeliyində olan müəssisələr tərəfindən isə 7,9 milyard kubmetr "mavi yanacaq" hasil olunub.

2006-cı ilin sonlarında istismara daxil edilmiş "Şahdəniz" yatağından indiyədək 264,7 milyard kubmetr qaz hasil edilib. Ötən 31 ildən artıq müddətdə "Azəri-Çıraq-Günəşli" yataqlar blokundan isə 243,9 milyard kubmetr "mavi yanacaq" çıxarılıb. 2026-cı il yanvarın 1-dək həmin yataqlardan 191,2 milyard kubmetr qaz ixraca nəql edilib.

Ümumilikdə, Azərbaycanda quru və dəniz yataqlarından indiyədək, təqribən, 1 trilyon milyard kubmetr qaz çıxarılıb. Mütəxəssislər ölkəmizin mövcud qaz ehtiyatlarının 2,6 trilyon kubmetr həcmində qiymətləndirirlər. Bu isə o deməkdir ki, yaxın gələcəkdə ölkə üzrə qaz hasilatı bir qədər də artacaq. Ötən il Azərbaycanın xaricə qaz ixracı 25,2 milyard kubmetr təşkil edib. Qazın 12,8 milyard kubmetri Avropaya, 9,6 milyard kubmetri Türkiyəyə, 2,3 milyard kubmetri Gürcüstana, 0,5 milyard kubmetr isə Suriyaya ixrac edilib. İl ərzində Türkiyəyə TANAP-la 5,6 milyard kubmetr qaz nəql olunub.

Bununla belə, ölkəmiz "mavi yanacaq" ixracının artırılması üçün yaxı imkanlara malikdir. Prezident İlham Əliyev yerli televiziya kanalllarına müsahibəsində bildirib ki, mövcud və yeni yataqlardan hasilatın artırılması ölkəmizin qaz təchizatı kimi rolunu bir qədər də genişləndirəcək. Dövlət başçısı "Azəri-Çıraq-Günəşli" dərin qaz, "Şahdəniz Kompressiya" və "Abşeron"un yatağının ikinci işlənmə layihələrinin, eləcə də son dərəcə ümidverici sayılan "Babək" yatağının işlənməyə cəlb edilməsinin Azərbaycanın ixrac potensialının artırılmasına mühüm töhfələr verəcəyini diqqətə çatdırıb: "Biz təchizatı artırmaq variantını nəzərdən keçiririk. Şaxələndirilmiş boru kəməri sistemi və etibarlı təchizatçı kimi yaxşı nüfuza, yaxşı siyasi əlaqələrə malik olan Azərbaycanın qazı bir çox ölkələr üçün enerji təhlükəsizliyində mühüm rol oynayır. Çünki müştərilərimizin əksəriyyəti Avropa İttifaqının üzvləridir. Bütün bunlar çox müsbət amillərdir".

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Qeyri-neft ixracı – 3,6 milyard dollar!

**2025-ci ilin yanvar-dekabr aylarında Azərbaycanın qeyri-neft sektoru üzrə ixracı 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə 8,5 faiz artaraq 3,6 milyard ABŞ dolları təşkil edib. Bu barədə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzindən məlumat verilib.**

Bildirilib ki, il ərzində yeyinti məhsulları üzrə ixrac 18,4 faiz artaraq 1,2 milyard dollara çatıb. Hesabat dövründə ixrac olunan şəkər əvvəlki ilin müvafiq dövrünə nəzərən 57,4 faiz, meyvə-tərəvəz 27,4 faiz, alüminium və onlardan hazırlanan məmulatlar 24,2 faiz, pambıq iplik 19,3 faiz, kimya sənayesi məhsulları 8 faiz, bitki və heyvan mənşəli piylər və yağlar isə 2 faiz artıb.

Qurumun məlumatına əsasən, 2025-ci ilin yanvar-dekabr aylarında aqrar məhsullar üzrə ixrac 26,7 faiz artaraq 1 milyard dollara, aqrar-sənaye məhsulları üzrə ixrac isə 314,7 milyon dollara bərabər olub. Bütövlükdə, il ərzində aqrar və aqrar-sənaye məhsullarının birgə ixracı 18,9 faiz artaraq 1,3 milyard ABŞ dolları təşkil edib.

***XQ***

# Naxçıvan şəhəri 2025-ci ildə





**Naxçıvanda muxtar respublika paytaxtının 2025-ci ildə sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələrə həsr olunmuş hesabat yığıncağı keçirilib.**

İştirakçılar əvvəlcə 2025-ci ildə Naxçıvan şəhərinin sosial-iqtisadi inkişafı ilə bağlı icra hakimiyyəti binasının foyesində təşkil olunmuş sərgi ilə tanış olublar.

Hesabat məruzəsi ilə çıxış edən Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Cabbar Musayev qeyd edib ki, ötən il Naxçıvan şəhərində ümumi məhsul buraxılışı əvvəlki llə müqayisədə 9,9 faiz artaraq 690 milyon 428 min 700 manat dəyərində olub. Əsas kapitala yönədilmiş vəsait isə 41,7 faiz artaraq 228 milyon 271 min 300 manat, ondan tikinti-quraşdırma işlərinə qoyulan vəsait 14,7 faiz artımla 149 milyon 443 min 400 manat təşkil edib. 2025-ci ildə sənaye məhsulu 14,3 faiz artımla 240 milyon 250 min 700 manat olub.

Son 1 ildə rabitə və informasiya xidmətləri 4,3 faiz, pərakəndə ticarət dövriyyəsi 4,1 faiz, ictimai iaşə dövriyyəsi 2,1 faiz, əhaliyə göstərilən ödənişli xidmətlər 0,3 faiz artıb. 14 yeni yaradılış və 6 fəaliyyətini genişləndirmiş istehsal və xidmət sahəsində 589 yeni iş yeri açılıb. Bir işçiyə düşən orta aylıq nominal əməkhaqqı 886,2 manat təşkil edib. Şəhər rəhbəri sənaye sektoru, kənd təsərrüfatı, turizm və digər sahələrdə görülmüş işlər barədə də geniş məlumat verib, qarşıda duran vəzifələrdən bəhs edib.

Maliyyə idarəsinin rəisi vəzifəsini müvəqqəti icra edən Məmmədnağı Əkbərov şəhər büdcəsinin 2025-ci il üzrə icra nəticələri və 2026-ci il üçün gəlir və xərcləri barədə məlumat verib.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Ceyhun Cəlilov tədbirdə çıxış edərək diqqətə çatdırıb ki, növbəti dövrdə muxtar respublikanın, eləcə də Naxçıvan şəhərinin sosial-iqtisadi inkişafı dövlət başçısı İlham Əliyevin müəyyən etdiyi istiqamətlər üzrə davam edəcək. İcra qurumlarının və səlahiyyətli şəxslərin vəzifə borcu vətəndaş məmnunluğunun artırılmasını, yeni iş yerlərinin açılması və iqtisadi fəallığın artırılmasını, "Şəhərsalma və Memarlıq İli" çərçivəsində regionların simasının müasirləşdirilməsi, eləcə də sakinlərin həyat şəratinin daha da yaxşılaşdırılması üçün abadlıq və quruculuq işlərini təmin etməkdən ibarətdir.

Bildirilib ki, yol infrastrukrunun yenilənməsi layihələrinin davam etdirilməsi, şəhərlərin baş planlarının hazırlanması işlərinin icra edilməsi, eləcə də möhtərəm cənab Prezidentin memarı olduğu, qlobal müstəvidə diqqət mərkəzində olan Zəngəzur dəhlizinin muxtar respublika hissəsinə aid infrastruktur quruculuğu işləri də ilin önəmli hədəfləri sırasındadır.

Sonda 2025-ci ildə Naxçıvan şəhərinin sosial-iqtisadi və mədəni inkişafı, ətraf mühitin qorunması sahəsində görülmüş işlərlə bağlı videoçarx izlənilib.

***Səbuhi HƏSƏNOV,***
***XQ-nin Naxçıvan müxbiri***

# Büdcədən geri ödəmə – 352 milyon manat!



**Ötən ilin yanvar–dekabr ayları ərzində dövlət büdcəsindən fiziki və hüquqi şəxslərə, ümumilikdə, 352 milyon 409,8 min manat məbləğində vəsait geri qaytarılıb.**

Maliyyə Nazirliyinin məlumatlna əsasən, geri qaytarılan vəsaitlər fiziki şəxslərin pərakəndə ticarət və ictimai iaşə, mədəniyyət və tibbi xidmətlərə, işğaldan azad edilmiş ərazilərdəki mehmanxana xidmətlərinə, habelə əcnəbilər tərəfindən ölkə ərazisində istehsal və kommersiya məqsədi daşımayan malların alınmasına ödənilmiş ƏDV-nin qaytarılmasına aiddir.

Bununla yanaşı, bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslərdən nağdsız qaydada alınmış yaşayış və qeyri-yaşayış sahələrinə görə ödənilmiş ƏDV-nin bir hissəsi, eləcə də artıq ödənilmiş digər vergilər, dövlət rüsumları və ödənişlər də geri qaytarılıb.

***XQ***

# Türkiyə-Azərbaycan Universiteti: modern təhsil modeli, strateji baxış və qardaşlığın növbəti rəmzi

**Müasir dünyada elmin, innovasiyanın və texnologiyanın inkişafı ölkələrin iqtisadi və sosial tərəqqisini müəyyən edən əsas faktorlardandır. Bu baxımdan ali təhsildə beynəlxalq əməkdaşlıq, qabaqcıl təcrübələrin paylaşılması və ortaq universitet modelləri xüsusi əhəmiyyət kəsb edir. Azərbaycanla Türkiyə arasında strateji tərəfdaşlığın təhsil sahəsində yeni mərhələyə keçidinin parlaq nümunəsi kimi yaradılan Türkiyə-Azərbaycan Universiteti (TAU) də məhz bu çağırışların nəticəsində formalaşıb.**

**Azərbaycan Texniki Universitetinin rektoru, Türkiyə-Azərbaycan Universitetinin rektoru vəzifəsini icra edən Vilayət Vəliyevlə söhbətimizdə TAU-nun yaradılma zərurəti, tətbiq olunan model, təhsil proqramlarının mahiyyəti və gələcək hədəflər barədə danışdıq.**









***– Vilayət müəllim, qardaş ölkə ilə birgə universitet qurmaq hansı zərurətdən yarandı və ortaq fəaliyyət necə həyata keçirilir?***

– Türkiyə-Azərbaycan Universitetinin yaradılması ideyası iki ölkə arasında uzun illər ərzində formalaşmış strateji tərəfdaşlığın ali təhsil sahəsində institusional müstəviyə daşınması məqsədindən irəli gəlir. Bu təşəbbüs Azərbaycan və Türkiyə prezidentlərinin müxtəlif görüşlərində vurğulanan “ortaq gələcək üçün ortaq təhsil” yanaşmasının praktiki təzahürüdür.

TAU klassik universitet modeli olmaqdan daha çox, iki ölkənin aparıcı ali məktəblərinin elmi və akademik potensialını birləşdirən unikal modeldir. TAU “çətir universitet” modelidir. Türkiyə tərəfdən Orta Doğu Texniki Universiteti (ODTÜ), İstanbul Texniki Universiteti (İTÜ) və Hacettepe Universiteti, Azərbaycan tərəfdən isə Azərbaycan Texniki Universiteti (AzTU) bu modelin əsas tərəfdaşlarıdır.

Onu qeyd edim ki, rəqəmsallaşma və sürətlə dərinləşən sənaye inqilabı şəraitində ali təhsildə klassik ölkələrin yenidən universitet yaratmaq modeli artıq öz aktuallığını itirib. Müasir dünyada dəyər yaradan model, ölkələrin yenidən universitet yaratması deyil, bilik ekosistemləri və qabaqcıl akademik məktəblər üzərində qurulur. Yəni bu gün universitetlər dövlətlərin coğrafiyasına görə yox, rəqabətədavamlı proqramlarına, texnoloji üstünlüklərinə və elmi məktəblərinə görə bir araya gəlir. Türkiyə-Azərbaycan Universiteti də məhz bu yeni qlobal məntiq əsasında formalaşıb: ODTÜ, İTÜ və Hacettepe kimi regionun və dünyanın qabaqcıl universitetlərinin ən güclü ixtisasları vahid platformada birləşdirilib. Bu yanaşma TAU-ya texnologiyayönümlü, rəqabətqabiliyyətli və qlobal əmək bazarına uyğun bir universitet kimi formalaşmaq imkanı verir. Məhz buna görə TAU-nun üstünlüyü onun iki qardaş ölkənin ən güclü akademik ekosistemlərini bir araya gətirməsindədir. Burada ana məqsədlərdən biri də ən keyfiyyətli universitetlərin ən güclü proqramlarının Azərbaycana transformasiya edilməsi yolu ilə ölkəmizdə yeni mütəxəssis hazırlığı ekosistemi yaratmaqdan ibarət olmuşdur. Tədris proqramları tam şəkildə tərəfdaş universitetlərin mövcud, beynəlxalq səviyyədə tanınan akademik standartları əsasında icra olunur: TAU-da tədris olunan kompüter mühəndisliyi ODTÜ, sənaye mühəndisliyi İTÜ və qida mühəndisliyi isə Hacettepe Universitetinin beynəlxaq rəqabət üstünlüyünə malik ixtisaslarıdır. Bu yanaşmanın əsas üstünlüyü ondan ibarətdir ki, tələbələr hazır, sınaqdan keçmiş və yüksək reytinqli proqramlar əsasında təhsil alırlar. Hazırda TAU-da son iki tədris ilində qəbul üzrə müvafiq olaraq 82 və 92 tələbə olmaqla ümumilikdə 174 tələbə təhsil alır və yüksək qəbul balları universitetin artıq ilk mərhələdən güclü rəqabət mühiti formalaşdırdığını göstərir. ODTÜ-nün Kompüter mühəndisliyi proqramında ən yüksək balların 684.9 və 674.3 olması bu sahənin ölkənin rəqəmsal iqtisadiyyatı və texnologiya təhlükəsizliyi üçün strateji əhəmiyyətini əks etdirir. İTÜ-nün Sənaye mühəndisliyi proqramında 663.7 və 654.4 ballıq göstəricilər istehsalın, idarəetmənin və resurs səmərəliliyinin yeni iqtisadi modeldə əsas rol oynadığını nümayiş etdirir. Hacettepe Universitetinin Qida mühəndisliyi üzrə 632.8 və 553.6 ballıq nəticələri isə milli qida təhlükəsizliyi və sağlamlıq infrastrukturunun gücləndirilməsinə yönəlmiş kadr siyasətinin göstəricisidir. Bu üç istiqamətin bir platformada birləşməsi TAU-nu ölkənin rəqəmsal, sənaye və sosial təhlükəsizliyini eyni vaxtda dəstəkləyən strateji kadr mərkəzinə çevirir, ölkəmiz üçün yalnız bu günün deyil, gələcəyin kadr ehtiyaclarını qarşılayacaq mütəxəssislərin hazırlanmasına layiqincə xidmət edir. Burada əsas məsələ tələbə sayının artırılması deyil, yeni model ali təhsil mühiti və müasir təlim texnologiyalarının formalaşdırılması diqqətdə saxlanılır.

***– “Çətir universitet” nə deməkdir və bu model klassik universitetdən nə ilə fərqlənir?***

– “Çətir universitet” modeli müasir ali təhsildə ən qabaqcıl yanaşmalardan biridir və onun mahiyyəti ondan ibarətdir ki, müxtəlif ölkələrin və aparıcı universitetlərinin ən güclü akademik sahələri vahid məqsəd, vahid idarəetmə və vahid keyfiyyət standartları altında birləşdirilir. Türkiyə-Azərbaycan Universitetində bu model yeni universitet yaratmağın klassik məntiqindən kənara çıxaraq, Türkiyənin və Azərbaycanın aparıcı ali məktəblərinin – ODTÜ, İTÜ, Hacettepe Universiteti və AzTU-nun ortaq akademik platformada birləşməsi formasında reallaşdırılıb. TAU bu mənada ayrı-ayrı universitetlərin mexaniki cəmi deyil, onların ən güclü ixtisaslarının sintezi əsasında qurulan yeni nəsil modern universitet modelidir.

Bu modelin əsas fərqi ondadır ki, hər ixtisas sahəsi üzrə tədris həmin sahədə regional və beynəlxalq səviyyədə tanınmış akademik məktəbin proqramı əsasında aparılır: kompüter mühəndisliyində ODTÜ-nün, sənaye mühəndisliyində İTÜ-nün, qida mühəndisliyində isə Hacettepe Universitetinin proqramları tətbiq olunur. Bu yanaşma tələbələrə bir universitetin deyil, bir neçə aparıcı universitetin akademik mədəniyyətini və elmi ənənəsini eyni vaxtda əldə etmək imkanı verir və onları qlobal əmək bazarına daha hazırlıqlı çıxarır.

Qəbul planı da bu modelin strateji mahiyyətini əks etdirir: 2024/2025-ci tədris ilində hər ixtisas üzrə 30 yer, 2025/2026-cı ildə isə kompüter mühəndisliyi üzrə 60, digər ixtisaslar üzrə 30 yer olmaqla ümumilikdə 120 tələbə müəyyən edilib. Seçim mexanizmi yüksək rəqabət üzərində qurulub – minimal keçid balları kompüter mühəndisliyi üzrə 550, sənaye mühəndisliyi üzrə 500, qida mühəndisliyi üzrə 450-dir və semestrlər üzrə bütün qiymətləndirmə Türkiyə ali təhsil sisteminin meyarları əsasında aparılır. Bu, TAU-da keyfiyyətin və akademik ciddiliyin əsas prioritet olduğunu göstərir.

Son iki tədris ilinin və üç semestrdə aparılan qiymətləndirmələrin nəticələri təsdiq edir ki, bu model özünü doğruldur. TAU getdikcə daha çox yüksək bal toplayan, intellektual potensialı güclü olan gəncləri cəlb edir.

“Açıq qapı” günlərində abituriyentlərin və valideynlərin böyük marağı da bu universitetə olan inamın göstəricisidir. Göstəricilərin ildən-ilə yüksəlməsi onu göstərir ki, TAU artıq qısa müddətdə rəqabətədavamlı, seçici və keyfiyyətyönümlü ali təhsil mərkəzi kimi formalaşır. Məhz bu səbəbdən universitetin yaxın illərdə daha geniş tanıdılması, daha çox istedadlı gəncin cəlb edilməsi və TAU-nun regional miqyasda güclü akademik brendə çevrilməsi üçün xüsusi kommunikasiya və maarifləndirmə layihələri həyata keçiririk.

***– Universitetin müəllim heyəti hansı prinsiplərlə formalaşdırılır?***

– Türkiyə-Azərbaycan Universitetində müəllim heyətinin formalaşdırılması təsadüfi deyil, dəqiq müəyyən edilmiş akademik keyfiyyət və beynəlxalq standartlar əsasında aparılır. Çünki TAU-nun əsas iddiası yalnız yeni universitet olmaq deyil, regionda ən yüksəksəviyyəli tədrisi həyata keçirən akademik mərkəzlərdən birinə çevrilməkdir. Bu səbəbdən də bütün tədris prosesi ingilis dilində qurulub və tərəfdaş universitetlərin – ODTÜ, İTÜ və Hacettepe Universitetinin proqramları birbaşa tətbiq olunur.

İxtisas fənləri üzrə tədris əsasən Türkiyənin bu aparıcı universitetlərindən dəvət olunan professor və dosentlər tərəfindən həyata keçirilir. Məsələn, kompüter mühəndisliyi üzrə ODTÜ-nün, sənaye mühəndisliyi üzrə İTÜ-nün, qida mühəndisliyi üzrə isə Hacettepe Universitetinin ən güclü akademik heyəti TAU-da dərs deyir. Humanitar və sosial fənlər üzrə isə biz yerli potensiala üstünlük verərək azərbaycanlı müəllimləri cəlb etmişik. Bu yanaşma milli akademik mühitlə beynəlxalq tədris standartlarının balansını təmin edir.

Xüsusilə hazırlıq mərhələsi TAU modelinin əsas dayaqlarından biridir. Bu mərhələdə ODTÜ-nün ingilis dili üzrə hazırlıq proqramı tətbiq olunur ki, bu proqram dünya miqyasında ən mükəmməl akademik dil hazırlıq sistemlərindən biri hesab edilir. Məhz buna görə də TAU-ya yeni qəbul olunan tələbələrin bilik səviyyəsi ODTÜ-nün İngilis Dili Yetərlilik İmtahanı əsasında qiymətləndirilir. Bu imtahandan uğurla keçənlər birbaşa birinci kursa başlayır, tələblərə cavab verməyənlər isə bir il ərzində hazırlıq proqramında təhsil alaraq ingilis dillərini akademik səviyyəyə çatdırırlar.

Eyni zamanda, biz TAU-nun uzunmüddətli dayanıqlı akademik inkişafını təmin etmək üçün azərbaycanlı müəllimlərin hazırlanmasına xüsusi önəm veririk. Bu məqsədlə artıq doktorantura proqramları vasitəsilə yeni nəsil akademik kadrların hazırlanması barədə qərar qəbul etmişik. Gənc azərbaycanlı tədqiqatçıların ODTÜ, İTÜ və Hacettepe kimi universitetlərin akademik məktəbləri ilə inteqrasiyası gələcəkdə TAU üçün yüksəksəviyyəli yerli professor-müəllim bazasının formalaşmasına xidmət edəcək.

Paralel olaraq, biz ingilis dili tədrisinə müsabiqə əsasında azərbaycanlı müəllimlərin cəlb olunması prosesinə artıq başlamışıq. Çox çətin və rəqabətli seçim mərhələsindən keçməklə iki yüksəksəviyyəli ingilis dili müəllimi artıq seçilib və bu proses mərhələli şəkildə davam etdiriləcək. Məqsəd odur ki, ODTÜ-nün dil standartlarına tam cavab verən yerli müəllimlər tədricən hazırlıq proqramına inteqrasiya olunsun.

Növbəti mərhələdə isə baza fənləri – riyaziyyat, fizika, kimya və biologiya üzrə müəllimlərin seçilməsi üçün açıq və rəqabətli müsabiqələr elan ediləcək. Çünki bu fənlər mühəndislik və təbiət elmləri üzrə təhsilin əsasını təşkil edir və onların yüksək səviyyədə tədrisi TAU-nun akademik keyfiyyətinin əsas təminatlarından biridir.

Beləliklə, TAU-da müəllim heyətinin formalaşdırılması beynəlxalq keyfiyyət, milli potensial və gələcək kadr davamlılığı prinsiplərinin sintezi əsasında qurulur və bu model universitetin uzunmüddətli uğurunun əsas zəmanətlərindən biridir.

***– TAU-nun xüsusi üstünlükləri nələrdir?***

– Türkiyə–Azərbaycan Universitetində təhsil almağın əsas üstünlüyü ondan ibarətdir ki, tələbələr Azərbaycandan çıxmadan birbaşa Türkiyənin qabaqcıl ali təhsil modelinə daxil olurlar və ODTÜ, İTÜ və Hacettepe kimi universitetlərin akademik standartları ilə formalaşırlar. Bu, məzunların diplomlarının beynəlxalq tanınma imkanlarını əhəmiyyətli dərəcədə artırmaqla yanaşı, onların həm regional, həm də qlobal əmək bazarında daha rəqabətqabiliyyətli mövqeyə malik olmalarına şərait yaradır. Tədrisin tam şəkildə ingilis dilində aparılması tələbələrin qlobal texnoloji və elmi mühitə birbaşa inteqrasiyasını təmin edən mühim üstünlüklərdən biridir.

TAU modelinin ən fərqləndirici cəhətlərindən biri universitet-sənaye inteqrasiyasının tədrisin mərkəzinə yerləşdirilməsidir. Burada tələbələr yalnız nəzəri bilik əldə etmirlər, onlar real sənaye problemləri, laboratoriya layihələri və tətbiqi tədqiqatlarda birbaşa iştirak edirlər. Bunun bariz nümunəsi kimi qeyd edə bilərəm ki, artıq bu il 4 bakalavr tələbəmiz TAU-da işlə təmin olunub. Onlar universitetin laboratoriyalarında müəllim köməkçisi kimi çalışırlar. Bu tələbələr həm qəbul imtahanlarında, həm də TAU-nun daxili akademik qiymətləndirmələrində ən yüksək nəticə göstərmiş gənclərdir. Bu yanaşma tələbənin ikinci kursdan etibarən artıq akademik və tədqiqat mühitinin aktiv üzvünə çevrilməsinə imkan yaradır.

Universitetdə müasir beynəlxalq standartlara uyğun laboratoriya infrastrukturu qurulub. Qida texnologiyaları, mikrobiologiya, fizika, mühəndislik və proqramlaşdırma üzrə laboratoriyalar yalnız tədris üçün deyil, həm də tədqiqat və sənayeyönümlü layihələr üçün istifadə olunur. İmtahanların və praktiki məşğələlərin birbaşa bu laboratoriyalarda keçirilməsi tələbələrin nəzəri biliklərini real texnoloji mühitdə sınaqdan keçirməsinə şərait yaradır.

TAU-nun təşəbbüsü ilə yaradılan Milli Qida Texnologiyaları Platforması universitetin ölkə miqyasında elm-təhsil-sənaye əlaqələrini gücləndirməsinin ən mühüm nümunələrindən biridir. Bu platforma Türkiyə–Azərbaycan Universiteti ilə yanaşı, AzTU, ADNSU, UNEC, BDU, BMU, ATMU və ADA–İtaliya Azərbaycan Universitetini bir araya gətirir və qida mühəndisliyi və qida sənayesinin inkişafı üçün vahid elmi-tədris məkanı formalaşdırır. Artıq platformanın beş iclası keçirilib və Hacettepe Universitetinin proqramı əsasında Azərbaycan universitetlərində qida mühəndisliyi üzrə daha müasir, daha dərin və sənayeyönümlü tədris planlarının hazırlanmasına başlanılıb.

Eyni yanaşma kompüter mühəndisliyi və sənaye mühəndisliyi sahələrində də tətbiq olunur. Kompüter mühəndisliyi üzrə süni intellekt, kibertəhlükəsizlik, IoT və kritik infrastruktur sistemləri istiqamətində ixtisaslaşmış laboratoriya və platformaların yaradılması üzərində işləyirik. Bu sistemlər həm sənaye, həm də müvafiq dövlət qurumları ilə birgə işləmək üçün nəzərdə tutulur. Məqsəd yalnız proqramçı yox, milli rəqəmsal təhlükəsizlik və texnoloji müstəqillik üçün mühəndislər yetişdirməkdir.

Sənaye mühəndisliyi isə Azərbaycan üçün xüsusi strateji əhəmiyyət daşıyır. Bu sahə istehsalın, logistikanın, idarəetmənin və resursların səmərəliliyinin əsasını təşkil edir. TAU-da bu istiqamət üzrə xüsusi laboratoriya və proqram paketləri, sənaye müəssisələri ilə birgə data əsaslı optimallaşdırma, proseslərin yenidən dizaynı və idarəetmə modelləri hazırlanır. Biz sənaye müəssisələrinin birbaşa daxil ola biləcəyi əməkdaşlıq platforması formalaşdırırıq ki, tələbələr real biznes və istehsal mühitində öyrənsinlər.

Beləliklə, TAU-nun üstünlüyü təkcə diplom və ya tədris dili ilə məhdudlaşmır. Bu universitet təhsil, tədqiqat, sənaye və texnologiya təhlükəsizliyini bir sistem daxilində birləşdirən, Azərbaycan üçün yeni nəsil kadrlar formalaşdıran strateji platformadır.

***– Gələcəkdə xarici ölkələrdən tələbə qəbul etməyi planlaşdırırsınızmı?***

– Bəli, bu istiqamətdə çox aydın və hüquqi cəhətdən təsbit olunmuş planlarımız var. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 23 sentyabr 2024-cü il tarixli “Türkiyə-Azərbaycan Universitetinin fəaliyyəti ilə bağlı bəzi məsələlərin tənzimlənməsi haqqında” Sərəncamı TAU-nun yalnız milli deyil, beynəlxalq universitet kimi formalaşdırılmasını nəzərdə tutur. Bu sənəd universitetin fəaliyyətinə hüquqi status verməklə yanaşı, onun xarici tələbə və professorları cəlb etməsinə, beynəlxalq təhsil və tədqiqat məkanına inteqrasiyasına açıq yol yaradır.

Sərəncamın mahiyyətində çox mühüm strateji mesaj var: Türkiyə-Azərbaycan Universiteti yalnız Azərbaycan və Türkiyə üçün deyil, region və daha geniş coğrafiya üçün açıq akademik platforma kimi nəzərdə tutulur. Bu, TAU-nun gələcəkdə Orta Asiya, Qafqaz, Yaxın Şərq və Avropa ölkələrindən tələbələri cəlb edə bilməsi, həmçinin beynəlxalq proqramlar və ikili diplom mexanizmləri vasitəsilə beynəlxalq tələbə axını yaratması deməkdir.

Eyni zamanda, Sərəncam universitetə tərəfdaş ali məktəblərlə birgə proqramlar, mübadilə mexanizmləri, yay məktəbləri və birgə diplom layihələri həyata keçirmək üçün hüquqi və institusional imkanlar verir. Bu isə o deməkdir ki, gələcəkdə Türkiyədən və digər ölkələrdən olan tələbələr TAU-da təhsil ala biləcək, TAU tələbələri isə tərəfdaş universitetlərdə bir və ya bir neçə semestr keçərək beynəlxalq akademik təcrübə qazana biləcəklər.

Strateji hədəfimiz ondan ibarətdir ki, TAU mərhələli şəkildə beynəlxalq tələbə portfeli olan, çoxmədəniyyətli və çoxdilli akademik mühitə malik regional ali təhsil mərkəzinə çevrilsin. Bu yalnız universitetin nüfuzunu artırmaq deyil, həm də Azərbaycanın elm və təhsil sistemini qlobal dövriyyəyə daxil etmək, ölkəmizi Cənubi Qafqaz və Avrasiya məkanında təhsil mərkəzinə çevirmək baxımından mühüm əhəmiyyət daşıyır.

Beləliklə, Prezidentin müvafiq Sərəncamı TAU-nun gələcək inkişaf xəttini aydın müəyyən edir: bu universitet yerli deyil, beynəlxalq səviyyəli akademik platforma kimi qurulur və xarici tələbələrin cəlb edilməsi bu strategiyanın ayrılmaz hissəsidir.

***– Tələbə qəbulu hansı qaydalara əsasən aparılır?***

– Türkiyə-Azərbaycan Universitetinə qəbul prosesi Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin qaydalarına tam uyğun şəkildə həyata keçirilir. Yəni abituriyentlər əvvəlcə ümumi qəbul imtahanında iştirak edir, müvafiq bal toplayır və digər universitetlərdə olduğu kimi ixtisas seçimi mərhələsində TAU-nu seçirlər. Bu, universitetin ölkənin ali təhsil sisteminə tam inteqrasiyasını və şəffaf qəbul mexanizmini təmin edir.

Eyni zamanda, TAU-nun bir mühüm xüsusiyyəti də ondan ibarətdir ki, qəbul olmaq avtomatik olaraq birinci kursa başlamaq demək deyil. Çünki tədris tam şəkildə ingilis dilində aparılır. Buna görə də universitetə qəbul olunan bütün tələbələr ilk mərhələdə ODTÜ-nün tələblərinə uyğun İngilis Dili Yetərlilik İmtahanı verirlər. Bu imtahandan tələb olunan balı toplayanlar birbaşa əsas təhsilə – birinci kursa başlayır, tələb olunan səviyyəyə çatmayanlar isə bir il müddətində Hazırlıq proqramında oxuyaraq ingilis dillərini akademik standartlara uyğun səviyyəyə çatdırırlar.

Bu mexanizm TAU-da tədrisin keyfiyyətini qorumaqla yanaşı, tələbələrin həm akademik, həm də beynəlxalq mühitdə uğurla fəaliyyət göstərə bilmələri üçün zəruri dil bazasını təmin edir.

***– Qeyd etdiniz ki, tərəfdaş universitetlərin tədris proqramları əsasında təhsil alan tələbələr həmin universitetlərin diplomlarını alacaqlar. Bəs tələbələrə təhsil müddətində həmin universitetləri görmək, orada olmaq və akademik mühiti yaxından tanımaq imkanı yaradılırmı?***

– Bəli, bu imkan TAU modelinin ən mühim və fərqləndirici üstünlüklərindən biridir. Türkiyə-Azərbaycan Universitetinə qəbul olunan hər bir tələbə artıq ilk gündən bilir ki, o yalnız Bakıda deyil, eyni zamanda, ODTÜ, İTÜ və Hacettepe Universitetlərinin akademik sisteminin bir hissəsi kimi təhsil alır və məzun olduqda həmin universitetlərin diplomlarına sahib olacaq. Bu isə sadəcə formal hüquq deyil, real akademik inteqrasiyadır.

Məhz buna görə də biz hər il TAU-ya yeni qəbul olunan bütün tələbələrin təhsil aldıqları ixtisaslar üzrə müvafiq tərəfdaş universitetlərə səfərlərini təşkil edirik. Bu səfərlər adətən birhəftəlik intensiv proqram şəklində həyata keçirilir və tələbələrin həm tədris mühiti, həm də kampus həyatı ilə yaxından tanış olmalarına imkan yaradır.

Artıq ilk qəbul olunan tələbələrimiz 2024-cü ildə COP29 ərəfəsində və cari ilin sonunda iki dəfə – hər dəfə birhəftə olmaqla – İstanbul Texniki Universitetində, Orta Doğu Texniki Universitetində və Hacettepe Universitetində olublar. Bu səfərlər çərçivəsində tələbələr yalnız kampusları gəzməklə kifayətlənməyiblər, eyni zamanda, laboratoriyalar, tədqiqat mərkəzləri, innovasiya ofisləri ilə tanış olub, dərslərdə iştirak ediblər, professorlarla ünsiyyət qurublar. Onların asudə vaxtının səmərəli təşkili üçün mədəni və elmi tədbirlər də proqramda yer alıb.

Bu səfərlərin mühüm tərəflərindən biri də odur ki, tələbələrimiz tərəfdaş universitetlərin rektorları və rəhbərliyi ilə görüşür, gələcək imkanlar, akademik yollar və tədqiqat perspektivləri barədə birbaşa məlumat alırlar. Mən özüm də həmin dövrlərdə tərəfdaş universitetlərə səfər edir, tələbələrimizin təəssüratlarını dinləyir və bu proqramların keyfiyyətini yerində qiymətləndirirəm. Tələbələrin motivasiyası və akademik baxımdan qazandıqları bu səfərlərin nə qədər təsirli olduğunu açıq şəkildə göstərir.

Gələcək mərhələdə bu səfərlər yalnız yeni qəbul olunanlarla məhdudlaşmayacaq. Müxtəlif kurslardan olan tələbələrin də akademik göstəricilərinə, dil səviyyələrinə və ixtisas uğurlarına uyğun olaraq qısamüddətli təcrübələr, yay məktəbləri, bir semestrlik təhsil və tədqiqat proqramları çərçivəsində tərəfdaş universitetlərə göndərilməsi nəzərdə tutulur. Məqsəd ondan ibarətdir ki, TAU tələbələri təkcə diplom baxımından deyil, real akademik və mədəni təcrübə baxımından da beynəlxalq mühitin bir parçasına çevrilsinlər.

Bir sözlə, tələbələrin istər yüksəkkeyfiyyətli tədris alması, istərsə də dünyagörüşünün müasir səviyyədə formalaşdırılması bizim üçün prioritetdir.

***– Təşəkkür edirəm, Vilayət müəllim.***

*Müsahibəni hazırladı:*
*Ləman TƏHMƏZ*
*XQ*

# İqtisadi tərəqqi və sosial rifahın su təməli

## *Dövlət Proqramı Bakı və Abşeron yarımadasının hidro sistemlərinin təkmilləşdirilməsini nəzərdə tutur*

**Müasir dünyamızın əsas çağırışlarından biri su ehtiyatlarının səmərəli idarə olunmasıdır. Aparılan hesablamalara görə, Yer kürəsində mövcud olan su ehtiyatlarının cəmi 3–4 faizi içməli su kimi yararlıdır. Azərbaycan da su qıtlığından əziyyət çəkən ölkələr sırasında yer alır. Məhz bu amili nəzərə alaraq, deyə bilərik ki, ölkədə su təsərrüfatı dövlət prioriteti səviyyəsinə yüksəldilib.**



Son 20 ildə Bakı və Abşeron yarımadasında su təchizatı, yağış və tullantı suları sistemlərinin inkişafı istiqamətində bir sıra tədbirlər həyata keçirilib. Ərazidə 480 kilometr magistral içməli su kəməri, 262 kilometr Oğuz–Qəbələ–Bakı və 84 kilometr Ceyranbatan–Zirə magistral su kəmərləri, həmçinin yağış kanalizasiya və tullantı suları kollektorları inşa olunub. Sumqayıt, Buzovna, Pirşağı və Şüvəlan qəsəbələrində tullantı sularının təmizlənməsi qurğuları fəaliyyətə başlayıb.

Bu tədbirlər əhalinin fasiləsiz su təminatının gücləndirilməsinə, ətraf mühitin qorunmasına və su resurslarının səmərəli idarə olunmasına mühüm töhfə verib. Lakin iqlim dəyişikliyi, şəhərləşmə və sənayeləşmə suya tələbatı artırır, mövcud kanalizasiya şəbəkələri isə müasir standartlara cavab vermir. Nəticədə, fasiləsiz və dayanıqlı su təminatı üçün köhnəlmiş infrastruktur və idarəetmə sistemlərinin yenilənməsi zərurəti ortaya çıxır.

Dünyada iqlim dəyişikliyi ilə bağlı ciddi narahatlıqların artdığı bir şəraitdə yanvarın 12-də Prezident İlham Əliyevin sədrliyi ilə Bakı şəhəri və Abşeron yarımadasında su təchizatı, tullantı və yağış suları sistemlərinin təkmilləşdirilməsinə dair 2026-2035-ci illər üzrə Dövlət Proqramına həsr olunan müşavirə keçirilib. Müşavirədə Bakı şəhərinin və Abşeron yarımadasının su problemlərinin həlli məsələləri müzakirə edilib, su təsərrüfatı sahəsində görülən işlərlərdən danışılıb. Dövlət başçısı bildirib: "İçməli su və suvarma layihələri də həmişə diqqət mərkəzində olub. Azərbaycan vətəndaşları yaxşı xatırlayırlar ki, vaxtilə bu, insanları narahat edən ən ciddi məsələlərdən biri idi. Bu məsələlər də tədricən öz həllini tapmışdır. Bu gün bizim əksər şəhərlərimizdə içməli su, kanalizasiya layihələri icra edilmişdir və bu proses davam etdirilir".

Ölkə başçısı əlavə edib ki, son 20 il ərzində dörd böyük su anbarı inşa edilib və bu su anbarlarının potensialı 500 milyon kubmetrdən çoxdur: "Onların arasında xüsusilə "Taxtakörpü", "Şəmkirçay" su anbarlarını qeyd etməliyəm. Əgər bu su anbarları tikilməsəydi, bu gün həm Bakının su təchizatı, həm də qərb zonasının su təchizatı böyük problemlərlə üzləşə bilərdi. "Taxtakörpü" su anbarı bizə imkan verdi ki, Samur çayının sularını "Ceyranbatan" su anbarına yığaq və orada ehtiyat yaransın. O cümlədən "Ceyranbatan" su anbarı tamamilə yenidən qurulmuşdur, yeni, müasir təmizləyici qurğular kompleksi inşa edilmişdir".

Müşavirədə işğaldan azad olunan ərazilərdə içməli su və suvarma layihələrin icrasına diqqət çəkilib. Qeyd edək ki, 44 günlük Vətən müharibəsindən sonra Qarabağ və Şərqi Zəngəzurun işğaldan azad edilməsi ilə ölkənin su ehtiyatları daha da artıb. Buna qədər Ermənistan dövləti digər sahələrdə olduğu kimi, Azərbaycana qarşı həm də su terroru həyata keçirib. "Sərsəng" və "Suqovuşan" su anbarlarının sularının bağlanması və sudan bir silah kimi istifadə edilməsi respublikaya böyük problemlər yaradıb.

Müşavirədə vurğulanıb ki, burada son beş il ərzində bir neçə önəmli layihə başa çatıb. Vaxtilə Ermənistan tərəfindən dağıdılmış və yararsız vəziyyətə salınmış su anbarları əsaslı təmir edilərək istifadəyə verilib. "Suqovuşan" su anbarı və "Sərsəng" su anbarı tamamilə yenidən qurulub. Azad edilmiş digər torpaqlarda — Füzuli rayonunda "Köndələnçay" üzrə üç su anbarı və Ağdam rayonunda "Xaçınçay" su anbarı bərpa edilərək fəaliyyətə başlayıb. Laçın rayonunda tamamilə yenidən qurulmuş "Zabuxçay" su anbarı artıq istismardadır. Azad edilmiş ərazilərdə daha iki böyük su anbarının — "Həkəriçay" və "Bərgüşadçay" su anbarlarının tikintisi də nəzərdə tutulub və hazırda hazırlıq işləri aparılır.

Qeyd edək ki, Bakı şəhəri və Abşeron yarımadasında içməli su ilə bağlı problemlər uzun illərdir dövlət qarşısında duran əsas məsələlərdən biri olub və bu istiqamətdə bir sıra tədbirlər həyata keçirilib. Dövlət başçısı müşavirədə bildirib ki, mövcud vəziyyət artıq bu sahədə genişmiqyaslı və müfəssəl proqramının qəbulunun zəruri edib.

*

Mövcud çağırışlara uyğun olaraq, yanvarın 12-də Prezident İlham Əliyevin Sərəncamı ilə "Bakı şəhərində və Abşeron yarımadasında su təchizatı, yağış və tullantı suları sistemlərinin təkmilləşdirilməsinə dair 2026–2035-ci illər üçün Dövlət Proqramı" təsdiq edilib. Dövlət Proqramı müvafiq ərazilərdə su təchizatı və tullantı suları sistemləri infrastrukturunun inkişaf etdirilməsi, intensiv yağışlar zamanı subasma risklərinin azaldılması, fasiləsiz və dayanıqlı su təminatının gücləndirilməsi məqsədilə hazırlanıb.

Dövlət Proqramı 2026–2035-ci illəri əhatə etməklə iki mərhələdə həyata keçiriləcək. 2026–2030-cu illəri əhatə edən birinci mərhələdə su və kanalizasiya infrastrukturu yenidən qurulacaq. Bu çərçivədə mövcud infrastrukturun əsaslı təmiri və yenilənməsi, yağış sularının idarə olunması və tullantı sularının təkrar istifadəsi üzrə müasir texnologiyaların tətbiqi, "ağıllı su şəbəkələri"nin qurulması və ekoloji təhlükəsizliyin təmin olunması nəzərdə tutulur. Bu mərhələdə mərkəzləşdirilmiş kanalizasiya sistemi olmayan ərazilərdə yeni infrastruktur yaradılacaq, eləcə də su şəbəkələrində itkilərin aşkarlanması və azaldılması üçün tədbirlər görüləcəkdir.

2031–2035-ci illəri əhatə edən ikinci mərhələdə yeni su anbarlarının və nasos stansiyalarının tikintisi, su təchizatının fasiləsizliyinin təmin olunması və müasir xidmət modellərinin tətbiqi prioritet istiqamətlər kimi müəyyən ediləcək. Bu məqsədlə mövcud su təchizatı və kanalizasiya şəbəkələri daha da genişləndiriləcək, yağış sularının təkrar istifadəsi üçün yeni layihələr həyata keçiriləcək və ətraf mühitin qorunması istiqamətində tədbirlər görüləcək.

Dövlət Proqramının icrası nəticəsində içməli su mənbələrinin dayanıqlılığının artırılması, su anbarlarının, eləcə də supaylayıcı şəbəkələrin inkişaf etdirilməsi, suyun uçot sisteminin təkmilləşdirilməsi, yağış və tullantı suları sistemlərinin yenilənməsi və alternativ su mənbələrinin istifadəyə cəlbinə nail olunması nəzərdə tutulur. Dövlət Proqramında, həmçinin Bakı şəhərinin Baş planı ilə uzlaşdırılaraq, uzunmüddətli strateji hədəflər və icra mexanizmləri müəyyən edilib.

Azərbaycan lideri sözügedən Dövlət Proqramına həsr olunan müşavirədə Proqramın icrasına xüsusi diqqət çəkərək qeyd edib ki, sənədin həyata keçirilməsi üçün maliyyə mənbələri artıq müəyyənləşdirilib. Proqram həm dövlət büdcəsi, həm də xarici kreditlər hesabına maliyyələşdiriləcək. İcra çərçivəsində təxminən 30 yeni su anbarının tikintisi nəzərdə tutulur ki, bu da genişmiqyaslı infrastruktur layihələrinin reallaşdırılması deməkdir.

Eyni zamanda, sayğaclaşdırmanın 100 faizə çatdırılması planlaşdırılır. Hazırda fasiləsiz içməli su ilə təmin olunan əhalinin payı 70 faiz təşkil etdiyi halda, Proqramın icrası nəticəsində bu göstəricinin 95 faizə yüksəldilməsi hədəflənir. Layihənin həyata keçirilməsi Bakı, Sumqayıt, Abşeron rayonu və 64 yaşayış məntəqəsində su təchizatının əhəmiyyətli dərəcədə yaxşılaşmasına imkan verəcək. Bununla yanaşı, 200 kilometrdən artıq magistral kanalların və eyni həcmdə paylayıcı şəbəkələrin tikintisi və yenidən qurulması nəzərdə tutulur.

Müşavirədə müzakirə olunan məsələlərdən biri də su itkiləri ilə bağlı olub. Dövlət başçısının fikrincə, əgər itkilər aşağı səviyyədə olsaydı, hətta mövcud su ehtiyatı ölkə üçün kifayət edərdi. Bildirilib ki, əhalinin çoxalması və sənayenin inkişafı suya olan tələbatı da artırır. Bütün bunlar nəzərə alınaraq, itkilərin kəskin azaldılması əsas məsələlərdən biridir. Bu gün bu sahədə itkilər təqribən 40-45 faizdir və proqramın icrası nəticəsində bunun, kəskin azaldılması nəzərdə tutulur.

Ekspertlərin qənaətinə görə, Prezident İlham Əliyevin sədrliyi ilə keçirilən müşavirə ölkəmiz üçün son dərəcə aktualdır. Mütəxəssislər Bakı və Abşeron yarımadasında mövcud olan su problemlərinin həllinə dair keçirilən toplantını mühüm addım kimi dəyərləndirirlər. **Coğrafiya elmləri doktoru Məhəmməd Abduyev** XQ-yə açıqlamasında bildirib ki, su təminatı məsələsi digər sahələrlə müqayisədə daim aktuallığını qoruyan və prioritet mövzulardan biri olaraq ön sıralarda yer alır: "Xüsusilə vurğulamaq yerinə düşər ki, 2020-ci ildə su təsərrüfatı sahəsində fəaliyyətin daha səmərəli təşkili məqsədilə müvafiq dövlət agentliyi yaradılıb. Bununla yanaşı, sonrakı mərhələdə bir sıra milli strategiyalar təsdiqlənib. Belə ki, 2024-cü ildə 2024–2040-cı illəri əhatə edən "Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiya"nın təsdiq edilməsi haqqında Prezident İlham Əliyevin Sərəncamı deyilənlərə əyani misaldır. Cənab Prezident çıxışında son 20 il ərzində inşa edilən, eləcə də hazırda tikilməkdə olan su anbarlarına xüsusi diqqət çəkdi. Bununla yanaşı, artıq mövcud olan su anbarlarının təmiri, bərpası, yeni kanalların çəkilməsi məsələləri də ön plana çıxarıldı. Qeyd olundu ki, su ilə bağlı ən gərgin problemlərdən biri məhz Abşeron yarımadasında müşahidə olunur. Burada həm su çatışmazlığı, həm də çirkab sularının idarə olunması problemi vaxtaşırı özünü büruzə verir".

Ekspert əlavə edib ki, intensiv yağışlar zamanı mövcud kollektor şəbəkəsi Abşeron yarımadasında, xüsusilə Bakı şəhərində kanalizasiya və yağış sularının ötürülməsi üçün yetərli olmur. Nəticədə şəhərin müxtəlif ərazilərində gölməçələr yaranır və bu vəziyyət uzun müddət xoşagəlməz mənzərə ilə müşayiət olunur: "Prezident bütün bu məqamları nəzərə alaraq bildirib ki, müvafiq sahə üzrə uzunmüddətli proqram nəzərdə tutulub. 2026–2035-ci illəri əhatə edən 10 illik proqram çərçivəsində qarşıya qoyulan vəzifələrin vaxtında və ardıcıl şəkildə icra olunacağına ümid ifadə olunub. Gözlənti ondan ibarətdir ki, bu proqramın tam reallaşması nəticəsində Abşeron yarımadası və Bakı şəhərində illərdir əhalini narahat edən su problemləri köklü şəkildə həllini tapacaq. Bununla yanaşı, içməli su məsələsi ilə paralel olaraq regionlarda kənd təsərrüfatında istifadə olunan su resurslarına da diqqət çəkildi. Məlum olduğu kimi, ölkədə istifadə olunan suyun təxminən 70 faizi məhz suvarma məqsədlərinə yönəldilir. Bu baxımdan, Prezident müasir suvarma texnologiyalarının tətbiqi, yeni rəqəmsal sistemlərə keçid və su itkilərinin azaldılması məsələlərinin xüsusi əhəmiyyət daşıdığını vurğuladı. Aparılan tədqiqatlar da göstərir ki, Azərbaycanda su itkilərinin səviyyəsi kifayət qədər yüksəkdir. Müşavirədə də qeyd olunduğu kimi, MDB ölkələri ilə müqayisədə ölkəmiz bu göstərici üzrə ön sıralardadır. Hazırda su itkilərinin həcmi 33 faizdən artıqdır və bu da sahədə ciddi struktur islahatlarına ehtiyac olduğunu bir daha ortaya qoyur".

***Musa BAĞIRLI***
***XQ***

### *Ekspert rəyi*



**Rövşən ABBASOV,**
**coğrafiya üzrə fəlsəfə doktoru, ekoloq**

Bakı iqtisadi rayonu Abşeron yarımadası ilə birlikdə Azərbaycanda əhali baxımından ən sıx məskunlaşmış ərazilərdən biridir. Qeyri-rəsmi hesablamalara əsasən, ölkə əhalisinin təxminən 40 faizi məhz bu iqtisadi rayonda yaşayır. Bakı iqtisadi rayonu Bakı və Sumqayıt şəhərlərini, eləcə də onlarla qəsəbəni əhatə edir.

Təəssüf ki, bu ərazi su ehtiyatlarının məhdudluğu baxımından ciddi problemlərlə üz-üzədir. İlk növbədə qeyd etmək lazımdır ki, rayonun öz daxili su mənbələri mövcud deyil. Digər tərəfdən, 1990-cı illərin əvvəllərindən Qarabağ müharibəsi ilə əlaqədar məcburi köçkünlərin yerləşdirilməsi, eləcə də 1990-cı illərin sonlarından etibarən nəzarətsiz məskunlaşma prosesi bu ərazilərdə sürətlə geniş vüsət alıb.

Bu proses nəticəsində həm su, həm də kanalizasiya xətlərinin plansız və normativlərə uyğun olmayan şəkildə çəkilməsi halları artıb ki, bu da ciddi su itkilərinə və sanitar problemlərə şərait yaradıb. Ümumilikdə, Bakı şəhəri, ətraf qəsəbələr və Sumqayıt şəhəri üzrə mövcud infrastruktur su ehtiyatlarının səmərəli idarə olunmasına imkan vermir. Bir çox ərazilərdə, xüsusilə şəhərin mərkəzi hissələrində su infrastrukturu xeyli dərəcədə köhnəlib.

Digər ərazilərdə isə özbaşına tikinti prosesi geniş yayılıb. Məsələn, Masazır ərazisində bəzi ailələr birləşərək öz imkanları hesabına su xətləri çəkirlər, lakin əksər hallarda kanalizasiya sistemi ilə təminat mümkün olmur. Nəticədə bu ərazilərdə illər ərzində ciddi infrastruktur və ekoloji problemlər yığılıb.

Məhz bu amillər Bakı şəhəri və Abşeron yarımadası üzrə həyata keçirilən Dövlət Proqramının əsas məqsəd və prioritetlərini müəyyənləşdirir. Həyata keçirilən Dövlət Proqramının əsas məqsədi Bakı şəhərində həm alternativ su mənbələri ilə təminatın yaxşılaşdırılması, həm də mövcud problemlərin mərhələli şəkildə aradan qaldırılmasıdır. Bu baxımdan şəhər və ətraf ərazilər üçün əsas alternativ su mənbələri Xəzər dənizinin şirinləşdirilmiş, yəni duzsuzlaşdırılmış sularıdır. Məhz bu istiqamətdə son illər ərzində mühüm və genişmiqyaslı addımlar atılıb.

Yağış sularının səmərəli idarə olunması isə bir tərəfdən gələcəkdə bu suların bağ və parkların suvarılmasına yönəldilməsinə imkan yaradacaq, digər tərəfdən isə şəhər ərazisində vaxtaşırı baş verən sel və daşqınların qarşısının alınmasına xidmət edəcək. Digər mühüm məqam ondan ibarətdir ki, Bakı şəhərinin su ehtiyatlarının idarə olunmasına dair sözügedən Dövlət Proqramı eyni zamanda şəhər ətrafındakı göllərin və onların ətraf zonalarının idarəetməsinin təkmilləşdirilməsini, eləcə də həmin ərazilərdə rekreasiya infrastrukturunun formalaşdırılmasını nəzərdə tutur.

Hesab edirəm ki, keçirilmiş bu görüş irəliyə doğru atılmış mühüm addımdır və gələcəkdə şəhərin su təchizatının yaxşılaşdırılmasında alternativ su mənbələrindən istifadənin genişləndirilməsinə, eləcə də sanitariya şəraitinin əhəmiyyətli dərəcədə yaxşılaşmasına ciddi töhfə verəcək.

### *Ekspert rəyi*



**Arzu SÜLEYMANOV,**
**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin Səmərəliliyin qiymətləndirilməsi sektorunun müdiri**

Bildiyiniz kimi, Prezidentin Sərəncamında Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqi və qiymətləndirilməsinin həyata keçirilməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin sifarişi əsasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinə həvalə edilib.

Dövlət Proqramının əhatə etdiyi 2026-2035-ci illər ərzində su təchizatı və kanalizasiya sahəsində başlayacaq islahatlar ölkənin su infrastrukturunu gücləndirmək və ətraf mühitin qorunmasına töhfə vermək məqsədini daşıyır. Proqram iki əsas mərhələdən ibarət olacaq və hər iki mərhələ də ölkənin su təchizatını daha dayanıqlı və ekoloji cəhətdən təhlükəsiz hala gətirməyi hədəfləyir.

2026–2030-cu illəri əhatə edən birinci mərhələdə mövcud su və kanalizasiya şəbəkələrinin yenilənməsi və təmiri üzərində cəmləşəcək. Bu müddət ərzində yağış sularının idarə olunması və tullantı sularının təkrar istifadəsi üçün müasir texnologiyalar tətbiq ediləcək. Eyni zamanda, "ağıllı su şəbəkələri" qurulacaq və su şəbəkələrindəki itkilərin aşkarlanması məqsədilə innovativ həllər təqdim ediləcək.

2031–2035-ci illəri əhatə edən ikinci mərhələ isə su təchizatının fasiləsizliyini təmin etmək məqsədilə yeni su anbarları və nasos stansiyalarının inşasına yönələcək. Bu mərhələdə, həmçinin su təchizatı və kanalizasiya şəbəkələrinin daha da genişləndirilməsi və təkmilləşdirilməsi nəzərdə tutulur.

Bu Proqramın icrası nəticəsində Azərbaycan içməli su mənbələrinin dayanıqlılığını artıracaq, su şəbəkələrinin uçot sistemləri təkmilləşdiriləcək və alternativ su mənbələrindən istifadə ediləcək. Proqramın uzunmüddətli məqsədləri Bakı şəhərinin Baş Planı ilə uzlaşdırılaraq, müasir su təchizatı xidmətlərinin göstərilməsi və ölkənin su ehtiyatlarının səmərəli idarə olunmasına imkan yaradacaq.

Dövlət Proqramının Tədbirlər Planı su təchizatı və tullantı sularının idarə olunması sistemlərinin inkişafı, su sektorunda təbii fəlakət risklərinin və ekoloji dayanıqlılığın idarə edilməsinin təmini və su sektorunda innovasiya və rəqəmsallaşması kimi üç əsas prioriteti özündə əks etdirir.

Qeyd edək ki, Dövlət Proqramında ciddi infrastruktur layihələrinin maliyyə yükünün ilkin mərhələdə dövlət-özəl əməkdaşlığı və beynəlxalq maliyyə qurumlarının kredit və qrant imkanları vasitəsilə qarşılanması nəzərdə tutulur. Bu yanaşma proqramın həyata keçirilməsi üçün tələb olunan maliyyə vəsaitlərinin təmin edilməsində mühüm rol oynayacaq. Bu, dövlət büdcəsinin daha optimal idarə edilməsi ilə yanaşı, xarici borcun azaldılması və beynəlxalq maliyyə qurumları ilə güclü əməkdaşlığın genişlənməsinə imkan verəcək.

# Yağma, yağış, yolumuzu kəsmə, yağış

## *Bakı və Abşeronun su-kanalizasiya şəbəkəsi yenidən qurulacaq*

**Bu gün urbanizasiya proseslərinin əsas göstəricilərindən biri su təchizatı, kanalizasiya və yağış sularının səmərəli idarə olunmasıdır. Xüsusilə iqlim dəyişiklikləri fonunda intensiv leysanların artması, əhalinin getdikcə sıxlaşması və şəhər ərazilərinin genişlənməsi ilə bu sahə milli təhlükəsizlik və sosial rifah məsələsi kimi daha çox diqqət çəkir.**

Bu baxımdan Prezident İlham Əliyevin sədrliyi ilə yanvarın 12-də Bakı şəhəri və Abşeron yarımadasında su təchizatı, tullantı və yağış suları sistemlərinin təkmilləşdirilməsinə dair 2026-2035-ci illər üzrə Dövlət Proqramına həsr olunan müşavirə ölkənin şəhərsalma siyasətində keyfiyyətcə yeni mərhələnin başlanğıcı kimi dəyərləndirilir. Azərbaycan liderinin çıxışında paytaxtda əhaliyə cəmi 50 faiz kanalizasiya xidməti göstərildiyi, adıçəkilən sənədin icrası nəticəsində isə həmin göstəricinin 95 faizə çatdırılacağı vurğulanır.

Ölkə rəhbərinin nitqində leysan yağışları yağan kimi şəhər nəqliyyatının iflic vəziyyətinə düşdüyü, çox ciddi problemlər yaşandığı da narahatlıqla xatırladılır: “Düzdür, bu, təkcə Bakıda, Azərbaycanda deyil. Biz televiziya verilişlərində dünyanın istənilən yerində bunu görürük. Hətta ən inkişaf etmiş hər ölkənin şəhərlərində də daşqınlar adi hal alıb. Heç bir şəhərin infrastrukturu imkan vermir ki, əgər şiddətli leysan yağışları bir neçə gün davam etsə, bunu idarə etmək mümkün olsun. Ancaq buna baxmayaraq, bizim də bu sahədə zəif yerlərimiz kifayət qədər çoxdur. Ona görə yağış sularının idarə olunması üçün Bakının 30 küçəsində yeni kollektor şəbəkəsi də qurulacaq və bunun çox böyük faydası olacaq”.

Müşavirədə əhaliyə göstərilən kanalizasiya xidmətinin cəmi 50 faiz təşkil etməsi göstəricisi uzun illər formalaşmış struktur problemlərinin, plansız urbanizasiyanın və sovet dövründən qalma infrastrukturların artıq mövcud reallıqlara cavab verməməsinin bariz ifadəsidir. Bakının sürətli əhali artımı, yeni yaşayış massivlərinin salınması, fərdi tikililərin nəzarətsiz şəkildə əsas magistral xətlərin üzərində inşa olunması kanalizasiya sistemlərinin istismarını getdikcə ağırlaşdırır. Aparılan son təhlillər hazırda Bakı şəhərində 1600-dən çox fərdi yaşayış evinin və digər tikintilərin əsas kanalizasiya magistrallarının normal fəaliyyətinə mane olduğunu göstərir. Məsələ bununla bitmir. Mövcud problemlər nəticəsində bəzi ərazilərdə müddəti bitmiş kanalizasiya xətlərində çökmələr baş verir, çirkab sular yaşayış evlərinə dolur və bu, əhaliyə ciddi maddi ziyan vurur.

Digər mühüm problem isə yağış sularının idarə olunması ilə bağlıdır. Vaxtilə



Bakıda mövcud olmuş müstəqil yağış suyu sistemlərinin 1990-cı illərdə kanalizasiya kollektorlarına çevrilməsi nəticəsində bu gün əsas kollektorların ötürücülük qabiliyyəti getdikcə azalır. Yağış suları ilə məişət tullantılarının eyni xətlərə yönləndirilməsi sistemdə əlavə yüklənmə yaradır və leysanlar zamanı şəhərin iflic vəziyyətinə düşməsinə səbəb olur.

Prezident İlham Əliyevin qeyd etdiyi kimi, intensiv leysanlar və şəhər daşqınları artıq təkcə Bakının deyil, dünyanın ən inkişaf etmiş şəhərlərinin də üzləşdiyi problemdir. Son illər Avropa, Asiya və Amerika qitələrində yerləşən iri metropollarda belə infrastruktur sistemlərinin fövqəladə yağışlara tab gətirmədiyi müşahidə edilir. Lakin bu qlobal tendensiya Bakının mövcud zəifliklərini aradan qaldırmaq üçün fəaliyyətsiz qalmaq anlamına gəlmir. Əksinə, dövlət başçısının vurğuladığı kimi, “bizim də bu sahədə zəif yerlərimiz kifayət qədər çoxdur” və həmin zəifliklərin planlı şəkildə aradan qaldırılması vacibdir. Məhz bu yanaşma yeni Dövlət Proqramının əsas fəlsəfəsini təşkil edir.

“Bakı şəhərində və Abşeron yarımadasında su təchizatı, yağış və tullantı suları sistemlərinin təkmilləşdirilməsinə dair 2026–2035-ci illər üçün Dövlət Proqramı”nın mühüm xüsusiyyətlərindən biri kanalizasiya sistemlərinin mənsəblərdən – yəni təmizləyici qurğulardan başlayaraq qurulması prinsipidir. Bu, dünya təcrübəsində səmərəliyi sübut olunan yanaşmadır. Belə ki, əgər əvvəllər şəbəkələr plansız şəkildə genişlənir, sonradan çirkab suların hara və necə axıdılacağı problemi yaranırdısa, indi proses tam əksinə planlaşdırılır.

Bu çərçivədə Bakı və Abşeron yarımadasında 12 yeni magistral kollektorun tikintisi nəzərdə tutulub. Prezidentin Sərəncamı ilə onlardan 7-də artıq işlərə başlanılıb. Ümumilikdə isə 346 kilometr uzunluğunda magistral kollektor şəbəkəsinin inşası planlaşdırılıb. Birinci mərhələdə əsas kollektorların 2027-ci



ilin sonuna qədər tamamlanması, ikinci mərhələdə isə Abşeronun şərq hissəsində yerləşən yaşayış məntəqələrinin bu sistemlərə qoşulması nəzərdə tutulub.

Hazırda Bakının bütün çirkab və tullantı suları əsasən Hövsan tullantı sutəmizləyici qurğusuna yönləndirilir. Bu isə şəhər üçün həm texniki, həm də ekoloji baxımdan ciddi risklər yaradır. Yeni Dövlət Proqramı çərçivəsində bu yükü azaltmaq məqsədilə 9 yeni tullantı sutəmizləyici qurğunun yaradılması planlaşdırılır. Ələt tullantı sutəmizləyici qurğusunun Ələt Azad İqtisadi Zonasının inkişafına xidmət edəcəyi bildirilir.

Sahil, Lökbatan, Müşfiqabad təmizləyici qurğularının tikintisi də davam etdirilir. Sumqayıt şəhərində mövcud qurğunun həm təkmilləşdirilməsi, həm də gücünün artırılması layihəsi icra olunur. Böyükşor təmizləyici qurğusu isə təkcə tullantı sularının təmizlənməsini deyil, eyni zamanda, Böyükşor gölünün ekoloji tarazlığının qorunmasını hədəfləyir. Pirallahı, Pirşağı və Şüvəlan istiqamətlərində də modernləşmə və bioloji təmizləmə tədbirlərinin həyata keçiriləcəyi nəzərdə tutulur. Bu layihələr nəticəsində Bakı buxtasının ekoloji vəziyyətinin əhəmiyyətli dərəcədə yaxşılaşacağı, Xəzər dənizinə axıdılan çirkab sular minimuma endiriləcəyi, Ceyranbatan gölünün mühafizəsini gücləndiriləcəyi də bildirilir.

Son illərdə intensiv yağışlar zamanı Bakının mərkəzində yaranan nəqliyyat problemləri cəmiyyətin ən çox narahat olduğu məsələlərdən biridir. 2025-ci ilin aprelində müşahidə edilən və son 60 ildə analoqu olmayan leysan da mövcud sistemlərin ekstremal iqlim hadisələrinə hazır olmadığını bir daha göstərir. Bu səbəbdən Bakı şəhərində 30 əsas küçə üzrə yeni yağış suyu kollektorlarının tikintisi nəzərdə tutulur. İlk mərhələdə bu layihələrin texniki-iqtisadi əsaslandırılmasının aparılacağı, daha sonra icraya başlanılacağı bildirilir. Məqsəd min ildə bir baş verə biləcək leysanlara deyil, normaya uyğun və normadan bir qədər artıq yağışlara davamlı sistem qurmaqdır. Bu isə şəhər mərkəzində yağışlar zamanı yaşanan xroniki problemlərin aradan qaldırılması məqsədi daşıyır.

Beləliklə, 2026–2035-ci illəri əhatə edən Dövlət Proqramı təkcə mühəndis-infrastruktur layihəsi deyil, eyni zamanda, sosial rifahın, ekoloji təhlükəsizliyin və şəhər həyatının keyfiyyətinin yüksəldilməsinə xidmət edən strateji sənəddir. Bu, həm də kanalizasiya xidmətinin əhatə dairəsinin 50 faizdən 95 faizə çatdırmaq, yeni kollektorlar və təmizləyici qurğularla yağış sularının müstəqil idarə olunması nəticəsində Bakını regionun ən dayanıqlı şəhərlərindən birinə çevirmək deməkdir.

Dünyanın aparıcı şəhərlərinin təcrübəsi də göstərir ki, su təchizatı, kanalizasiya və yağış sularının idarə olunması sahəsində problemlər yalnız inkişaf səviyyəsi ilə deyil, iqlim dəyişiklikləri, əhali sıxlığı və urbanizasiya sürəti ilə şərtlənir. Məsələn, London, Paris, Nyu-York, Tokio kimi metropollarda XIX–XX əsrlərdə qurulmuş kanalizasiya sistemləri bu gün intensiv leysanlar qarşısında ciddi sınaqlarla üzləşir. Son onilliklərdə həmin şəhərlərdə daşqın risklərinin azaldılması üçün milyardlarla dollar dəyərində yeni kollektorlar, tunellər və təmizləyici qurğular inşa olunur.

Avropa İttifaqı ölkələrində tətbiq edilən əsas yanaşmalardan biri yağış sularının məişət kanalizasiyasından tam ayrılması və onların ayrıca kollektorlar vasitəsilə idarə olunmasıdır. Almaniya və Niderlandda bu məqsədlə “yaşıl” infrastruktur – suyu udan örtüklər, süni göllər, drenaj parkları yaradılır. Asiya ölkələrində, xüsusilə Sinqapurda yağış suları yalnız təhlükə mənbəyi kimi deyil, həm də alternativ su resursu kimi dəyərləndirilir və yüksək səviyyəli təmizləmədən sonra təkrar istifadəyə cəlb olunur.

Azərbaycanın Bakı və Abşeron yarımadası üçün müəyyən etdiyi yanaşma bu beynəlxalq təcrübə ilə tam səsləşir. Magistral kollektorların, müasir təmizləyici qurğuların yaradılması, yağış sularının ayrıca sistemlərlə idarə olunması və prosesin mənsəblərdən başlayaraq planlaşdırılması müasir şəhərsalma standartlarının əsas tələbləridir. Fərq ondadır ki, Bakı bu mərhələni bir neçə onillik ərzində tədricən deyil, vahid Dövlət Proqramı çərçivəsində kompleks şəkildə həyata keçirməyi hədəfləyir.

Beləliklə, 2026–2035-ci illəri əhatə edən sözügedən Dövlət Proqramı Bakının yalnız mövcud problemlərini aradan qaldırmağa deyil, onu gələcək iqlim risklərinə qarşı davamlı, ekoloji cəhətdən təhlükəsiz və rahat yaşayış məkanına çevirməyə yönəlib. Bu yanaşma ilə Azərbaycan paytaxtının inkişaf modelinin qlobal şəhər təcrübəsinin ayrılmaz hissəsi kimi formalaşdırılması da qarşıya mühüm vəzifə kimi qoyulub.

***V.BİNYATOĞLU***
***XQ***

*Bakının dərdi var…*

# Günümüz tıxaclarda keçməsin!

## *Paytaxtda avtomobillərin ahəngdar hərəkətini necə tənzimləmək olar?*

**Müasir şəhərlərin ən ciddi sosial-iqtisadi problemlərindən biri nəqliyyat tıxaclarıdır. Urbanizasiya prosesinin sürətlənməsi, əhalinin artımı, avtomobillərin sayının çoxalması və şəhər planlaşdırılmasında uzun illər yığılıb qalmış struktur çətinlikləri paytaxt Bakı üçün də bu məsələnin aktuallığını artırır. Tıxaclar təkcə vaxt itkisi deyil, eyni zamanda, iqtisadi səmərəliyin azalması, ekoloji çirklənmə, ictimai narazılıq və həyat keyfiyyətinin aşağı düşməsi deməkdir. İnkişaf etmiş ölkələrin təcrübəsi göstərir ki, problemin həlli yalnız yeni yolların çəkilməsi ilə deyil, kompleks və sistemli nəqliyyat siyasəti ilə mümkündür.**

Azərbaycan Prezidenti İlham Əliyev yanvarın 5-də yerli televiziya kanallarına müsahibəsində paytaxtın tıxac probleminə toxunaraq deyib: “Biz Bakının tarixi memarlıq ansamblını dəyişdirə bilmərik. Yol-nəqliyyat sisteminin idarə edilməsi və mikromobillik, yəni ictimai nəqliyyata üstünlük verilməsi bir çıxış yolu ola bilər. Bu istiqamət üzrə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi beynəlxalq mütəxəssisləri cəlb etməklə fəal işləyir”.

Dövlətimizin başçısı daha sonra qeyd edib ki, Bakının yeni yol infrastrukturunun xəritəsi təsdiqlənib, 10 yeni metro stansiyasının yeri müəyyən olunub, əlavə iki deponun da inşası qərara alınıb. Mövcud metro stansiyalarında optimallaşma layihələrinin də icrasına başlanılıb. Son 20 il ərzində 7 metro stansiyası tikilib. “Əgər bu inşaat işləri aparılmasaydı, tıxacla bağlı vəziyyət daha acınacaqlı olardı”, – deyən ölkə rəhbəri hazırda mikromobilliyin genişlənməsi, piyadalar üçün daha geniş məkanın yaradılması və bəzi küçələrin ancaq piyadalar üçün təşkili prosesinin davam etdirilməsi nəticəsində tezliklə müsbət nəticələr əldə olunacağını bildirib.

Ekspertlər tərəfindən dövlət başçısının bu fikirləri yüksək dəyərləndirilməklə bərabər, Bakı şəhərinin həddən artıq yüklənməsi, dövlət müəssisələrinin və ali təhsil ocaqlarının artması, eləcə də kənddən şəhərə olan kütləvi axının yaratdığı nəqliyyat sıxlığının aradan qaldırılması ilə bağlı bir sıra təkliflər də səsləndirilir. Məsələn:

*– dövlət strukturlarının və təhsil müəssisələrinin regionlara mərhələli şəkildə köçürülməsi və ya filiallarının yaradılması;*

*– avtomobil parklarının məhdudlaşdırılması, “park-and-ride” zonalarının qurulması və “ağıllı” nəqliyyat idarəetmə sistemlərinin tətbiq olunması;*

*– velosiped infrastrukturunun inkişaf etdirilməsi, uzaqdan iş və distant təhsil kimi alternativ iş rejimlərinin təşviqinin diqqətdə saxlanılması;*



*– mərkəzi küçələrdə çəkilən yol zolaqları üzərində yerləşdirilən parkinq məntəqələrinin düzgün planlaşdırılması;*

*– parklanma yerlərində daha çox gəlir əldə etmək məqsədilə avtomobillərin daha sıx yerləşdirilməsinin qarşısının alınması;*

*– şəhərin sıx və dar ərazilərində yerüstü, dəmir konstruksiyalı çoxmərtəbəli parkinqlərin yaradılması;*

*– şəhərin müəyyən ərazilərində girişə vergi tətbiq edilməsi;*

*– nəqliyyatda rəqəmsal texnologiyaların tətbiq olunması ilə pik saatlarda nəqliyyat sıxlığını azaltmağın, nəqliyyat axınının tənzimlənməsinin mümkünlüyü vurğulanır.*

**Nəqliyyat sahəsi üzrə ekspert Rauf Ağamirzəyev** bildirir ki, 2008-ci ildə tikilib istifadəyə verilən yollar sonradan Lökbatan-Biləcəri dairələri, Zığ dairəsi–Hava limanı, Koroğlu–Hava Limanı–Mərdəkan və Bilgəh və Pirşağı magistralları ilə davam etdi. Amma bu yolları əlaqələndirən Biləcəri, Binəqədi və Ramanı istiqamətində tamamlayıcı yol tikilmədi. Sonradan isə Ziya Bünyadov prospekti boyu bir neçə tunel tipli yol ötürücü tikilsə də, sistemi reallaşdıran qurğu yaradılmadı və həmin prospekt daha da yüklənmiş oldu.

Yeni Baş Planda bir neçə yarımdairəvi yolun salınması nəzərdə tutulub. Şəhər üçün zəruri olan bu magistrallar digər əlavə tamamlayıcı layihələrlə uzlaşdırılmalıdır. Çünki bu vahid bir nəqliyyat karkasıdır və burada həm hərəkətliliyi, mobilliyi, həm də həm logistikanı təmin etmək vacibdir.

Ekspertin sözlərinə görə, Bakının giriş nöqtələrində “Park et, səfərini ictimai nəqliyyatla davam et” kimi həllər də tıxacların azaldılması ilə bağlı layihənin tərkib hissəsinə daxil edilməlidir. Eyni zamanda, Bakı, Xırdalan və Sumqayıt istiqamətində daim güclü avtomobil axını müşahidə olunur. Buna görə də paytaxta daxil olmadan sürətli tranziti gerçəkləşdirən avtomobil və dəmir yolları layihələri də diqqət mərkəzində saxlanılmalıdır. Başqa sözlə, Bakı, Xırdalan və Sumqayıt istiqamətlərindən məcburi Bakıya daxil olan avtomobil axınları ayırmalıdır. Bunun üçün, məsələn, Hacı Zeynalabdin Tağıyev qəsəbəsindən üzü Qaradağ istiqamətində “R-6. H.Z.Tağıyev-Sahil” 40 kilometrlik yolun iki zolaqdan dörd zolağa təkmilləşdirilməsinə ehtiyac var.

Bu gün paytaxtda tıxacların mövcudluğu heç də o demək deyil ki, indiyədək bu istiqamətdə heç bir iş görülməyib. Prezident İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə bu istiqamətdə genişmiqyaslı layihələr gerçəkləşdirilib. Görülmüş işlər nəticəsində nəqliyyat vasitələrinin nizamlı şəkildə parklanmasına nail olunub, yollarda nəqliyyat sıxlığını azalıb, piyadalar üçün daha təhlükəsiz və rahat mühitin formalaşması reallaşıb. Məsələn, təkcə 2025-ci ildə 15 küçə və prospektdə 15 kilometr uzunluğunda mikromobillik zolağı çəkilib. Bununla da şəbəkənin ümumi uzunluğu 50 kilometrə çatdırılıb. Həmçinin paytaxtda skuterlər üçün 700, velosipedlər üçün isə 564 parklanma məntəqəsi təşkil edilib.

Yeri gəlmişkən, sözügedən dövrdə ölkədə yol-nəqliyyat infrastrukturu sahəsində əhəmiyyətli layihələr həyata keçirilib. Təkcə Bakı şəhərində 2,6 min kilometr uzunluğunda yeni yollar tikilib, yenidən qurulub və təmir olunub. Bundan əlavə, paytaxtın avtomobil yollarında, ümumilikdə, 335 körpü və yol ötürücüsü, 163 yeraltı və yerüstü piyada keçidi, eləcə də 45 tunel istifadəyə verilib. Bakı şəhərində və ətraf ərazilərdə mobilliyin artırılması və nəqliyyat axınının daha səmərəli idarə olunması məqsədilə 4 parklanma zonası üzrə 18 min parklanma yeri yaradılıb.

Paytaxt və ətraf ərazilərdə tıxacların azalması üçün dəmir yolları ilə daşımaların inkişafı da diqqətdə saxlanılıb. Bakı, Sumqayıt şəhərlərində və bütövlükdə Abşeron yarımadasında yaşayan əhalinin gediş-gəlişini təşkil edən əhəmiyyətli yollardan biri olan Abşeron dairəvi dəmir yolu xətti 2020-ci ildə istifadəyə verilib. Eyni zamanda, metro infrastrukturunun genişləndirilməsi və modernləşdirilməsi istiqamətində əhəmiyyətli işlər görülüb. Son 20 ildə 1 depo, 7 yeni stansiya və 2 ikinci giriş-çıxış inşa edilib, əlavə olaraq 5 stansiya tamamilə yenidən qurulub. Metro şəbəkəsinin xətləri 29,9 kilometrdən 40,7 kilometrə qədər uzadılıb, sərnişin axınının təhlükəsizliyini gerçəkləşdirmək üçün 8 yeni yarımstansiya tikilib və 5 yarımstansiya yenidən qurulub.

Bakı şəhərinin avtobus nəqliyyatı sahəsində də bir sıra genişmiqyaslı layihələr həyata keçirilib, o cümlədən 2014-cü ildə “BakuBus” Məhdud Məsuliyyətli Cəmiyyətinin yaradılması sərnişin daşımalarında texniki və ekoloji baxımdan təhlükəsizliyin reallaşdırılmasına mühüm təsir göstərən əsas addımlardan biri olub. Cəmiyyətin avtobus parkı “BMC”, “Neoplan” və “BYD” markalı 1000-dən çox nəqliyyat vasitəsilə təchiz edilib. Bununla yanaşı, sərnişinlərin tələbat və sıxlıq səviyyəsindən asılı olaraq 110 kilometrdən artıq prioritet avtobus zolaqları yaradılıb. Bu zolaqlar avtobusların tıxaclardan yayınmasına və daha sürətli hərəkət etməsinə şərait yaradaraq, sərnişinlərin gediş vaxtını əhəmiyyətli dərəcədə azaldıb. Eyni zamanda, avtobus parkının yenilənməsi istiqamətində də mühüm addımlar atılıb və 2030-cu ilə qədər avtobus parkının 2800-ə çatdırılması nəzərdə tutulub.

***Vaqif BAYRAMOV***
***XQ***

### *Ekspert rəyi*



**Elməddin MURADLI,**
**nəqliyyat eksperti**

Uzun müddətdir ki, ölkədə nəqliyyatın İntellektual İdarəetmə Mərkəzi qurulmasına baxmayaraq, indiyədək onun səmərəli fəaliyyəti nəzərə çarpmır. Amma bu gün Daxili İşlər Nazirliyi sözügedən istiqamətdə müəyyən addımlar atır və bu da perspektivdə intellektual idarəetmə sistemi vasitəsilə sıxlığın və tıxacın qarşısının alınacağı inamı yaradır. Çünki bu, öz-özlüyündə çox vacib bir elementdir. Deyək ki, günün müəyyən saatlarında hansısa istiqamətdən avtomobil axını çoxalır, amma svetafor axın olmayan ərazinin üstünlüyünü təşkil edir. Bu adaptiv sistem üzərində çalışan svetaforlar isə belə bir vəziyyəti dərhal nəzərə alır və mərkəzə informasiya ötürməklə prosesi tam fərqli şəkildə tənzimləyir. Yəni harada, hansı istiqamətdə daha çox nəqliyyat varsa, həmin istiqaməti yaşıla daha çox çevirir ki, bununla da avtomobil axını tənzimlənir.

Qeyd edim ki, bu, hələlik test rejimində qurulan bir sistemdir. Amma ümid edirəm ki, yaxın vaxtlarda onun müsbət nəticələrini görəcəyik və faydalanacağıq. Hazırkı dönəmdə isə ümid edirəm ki, səmərəli istifadə etməklə bu sistemdən geniş şəkildə yararlanmaq olar.

Tıxac və sıxlıq məsələsi hamını narahat edən bir problemdir və bunun necə həll olunması mövzusu da ayrıca bir məsələdir. Uzun müddət ki, icra olunan layihələr səmərəsiz qalıb və bu gün inamsız bir mühit formalaşıb. İnsanlar elə bilirlər ki, Bakının tıxac problemini heç vaxt həll etmək mümkün olmayacaq. Amma bu cür “ağıllı” sistemlərlə çətinliyi aradan qaldırmaq mümkündür.

Nəticə etibarilə hər svetaforun yanına, hər yol ayrıcına bir nizamlayıcı qismində polis əməkdaşı qoymağa ehtiyac qalmayacaq. Yəni harada sıxlıq yaranırsa, dərhal ora bir əməkdaş göndərmək lazım deyil ki, getsin tənzimləsin və sürücülər yolayrıcını keçmə qaydalarını pozmasın. Ümumilikdə, bu yanaşma, fikrimcə, yaxşı nəticə verəcək.

# İnsanları dağlarından uca diyar – Zaqatala

## Təbiətin bu yerlərə səxavəti möcüzə misallıdır



**Adətən bu qəbildən olan yazılara birbaşa rayonun və ya şəhərin son ildəki uğurları, göstəriciləri, yaxud da rayon rəhbərinin hansısa çıxışından, hesabatından seçdiyimiz faktlar, rəqəmlərlə başlayırıq. Ancaq bu sətirləri ifasını hələ uşaqlıq illərimdən sevdiyim böyük sənətkarımız Rübabə Muradovanın repertuarındakı “Zaqatala” mahnısının sözlərinin bir bəndi ilə başlamağı məqsədəuyğun saydım.**

**Üzə gülür bu yerlərin torpağı,**
**Sıra dağlar bir-birindən qocadır.**
**Göz oxşayır hər çiçəyi, yarpağı.**
**İnsanları dağlarından ucadır.**

Nə gözəl deyilib. Rəhmətlik bəstəkar, bəzi musiqilərin sözlərinin də müəllifi olmuş Bəxtiyar Kərimovun mahnısıdır. “Görən sənə aşiq olur, Çənlibelli Zaqatala, qızılgüllü Zaqatala” (Onu da xatırladım ki, mayestro Niyazi də hələ 1934-cü ildə “Zaqatala süitası” adlı möhtəşəm bir musiqi əsəri yazmışdı). Ancaq Bəxtiyar Kərimovun mahnısında diqqətimi daha çox çəkən məqam insanların dağlardan uca olduğu barədə deyilənlər oldu. Çünki Zaqatalada, sözün həqiqi mənasında, Dədə Qorqud demiş “qarşı yatan qoca dağlar” ucalığında, hətta bəzən mənəvi cəhətdən o dağlardan da uca görünən çoxsaylı insanlar tanıyıram…

Bir həmsöhbətim söhbət zamanı dedi ki, Zaqatalanın bugünkü uğurlarının ərsəyə gəlməsində payı olan, rayonda qüdrətli Azərbaycan dövlətinin daxili siyasətini uğurla icra edən, tikinti–quruculuq, abadlıq, elm, təhsil, səhiyyə, kənd təsərrüfatı kimi mühüm sahələrdə özünəməxsus nümunələr formalaşdıran yüzlərlə soydaşımız var ki, onların hərəsinin həyatı nəinki bir məqalə, hətta bir kitab mövzusu ola bilər: “Qətiyyətlə deyə bilərəm ki, həmin adamların bu səviyyəyə çatmasında sizin hər yazıda vəsf etdiyiniz Zaqatala təbiətinin də özünəməxsus rolu olmuşdur”.

### Dəniz səviyyəsindən 535 metr yüksəklikdə…

Xatırladaq ki, Böyük Qafqaz sıra dağlarının cənub yamaclarında, Qanıx – Əyriçay vadisində yerləşən Zaqatala Gürcüstan və Dağıstanla həmsərhəddir. Fikrimizcə, bu faktın özünəməxsus əhəmiyyəti var. Çünki dünya gör-götür dünyasıdır. Qonşular bizə baxıb hansısa nümunəni qəbul edirlər, biz isə qonşuların özümüzdə olmayan təcrübəsindən bəhrələnirik. Qərəz. Rayon mərkəzi dəniz səviyyəsindən 535 metr hündürlükdə, paytaxt Bakıdan isə 445 kilometr aralıda, Tala çayının sahilində, Qədim İpək yolunun üstündə, vaxtilə Şərqin ən böyük ticarət mərkəzlərindən olan “Əskibazar”ın yaxınlığında yerləşir. Yəni bu rayon haqqında hansı mövzuda söz açmaq isəsən, mütləq tarix və ya coğrafiya ilə üzləşirsən.

### Bizim heç köhnə ilimiz olubmu?

Yeni ildə ilk həmsöhbətim olan köhnə dostum Nəzir Muradovdan soruşdum ki, Zaqatalanın köhnə ildəki uğurları barədə nələri qeyd etmək olar? Mənə bir mahnının sözlərini xatırlatdı: “Bizim olubmu heç köhnə ilimiz?”. Sonra əlavə etdi ki, ötən il rayonda müxtəlif sosial-mədəni tədbirlər, xüsusən 28 May – Müstəqillik Gününün, Zəfər Gününün, “Konstitusiya və Suverenlik İli”nin qeyd edilməsi, eləcə də Heydər Əliyev Mərkəzinin təşkil etdiyi xatirə tədbirləri ilə yadda qalıb.

Ən başlıcası, ulu öndər Heydər Əliyevin tövsiyə etdiyi etnik müxtəlifliyin qorunması məsələsi daim diqqət mərkəzində saxlanılıb. Çünki bizdə azərbaycanlılarla yanaşı, laklar, avarlar, saxurlar, udinlər, ingiloylar və digər xalqların təmsilçiləri var və onların hamısının özünəməxsus mədəniyyəti, adət və ənənələri uğurla yaşadılır. Bundan başqa zaqatalalılar əsasən kənd təsərrüfatı, tütünçülük, fındıq və sitrus meyvələri yetişdirilməsi, eləcə də gülçülüklə məşğul olurlar. Qətiyyətlə deyə bilərik ki, həmin sahələrin hamısındakı uğurlar ildən-ilə artır.

### Rayon rəhbəri söylədi ki…

Mübariz Əhmədzadənin fikrincə, təkcə Zaqatalada deyil, ümumiyyətlə, istənilən rayonda və ya şəhərdə görülmüş işlərin, qazanılmış uğurların birbaşa rayon rəhbərinin adı ilə bağlanması doğru deyil: “Çünki inkişafın istiqamətlərini cənab Prezident müəyyən edir, tövsiyə və tapşırıqları məhz ondan alır və icra edirik. Qarşıya qoyulan vəzifələri isə mütəxəssislər, sadə insanlar, rayon sakinləri yerinə yetirirlər. Biz sadəcə dövlət başçımızın tövsiyə və tapşırıqlarının məhz qalib Azərbaycanın, Müzəffər Ali Baş Komandanımızın adına layiq icra olunmasına nəzarət edir, bu prosesdə atılması lazım olan bütün addımları atırıq.

O ki qaldı, ötənilki fəaliyyətimizə, deyə bilərəm ki, rayon rəhbərliyi dövlət başçımızın elan etdiyi “Konstitusiya və Suverenlik İli” çərçivəsində silsilə tədbirlər keçirilməsini təmin edib, həmin tədbirlərdə rayon əhalisinin, demək olar ki, əksər zümrələri təmsil olunub. Eləcə də Heydər Əliyev Konstitusiyasının otuz illiyi, tarixi Zəfərimizin beş illiyi kimi əlamətdar günlər ərəfəsində rayonumuzun əksər idarə və müəssisələrində müvafiq tədbirlər keçirilib. Elə Azərbaycan mətbuatının 150 illik yubileyi də rayon rəhbərliyinin diqqət mərkəzində olub.

Ancaq bizim üçün daha sevincli fakt cənab Prezidentin avqust ayında Vaşinqtonda Amerika Birləşmiş Ştatlarının Prezidenti və Ermənistanın Baş naziri ilə birlikdə imzaladığı tarixi sənədlər olub. Rayon ziyalıları, elm, təhsil müəssisələrinin təmsilçiləri və ümumiyyətlə, bütün zaqatalalılar Zəngəzur dəhlizinin taleyinin birmənalı şəkildə həll edilməsini, Azərbaycanı işğalla razılaşmağa çağıran Minsk qrupunun və eləcə də “907-ci düzəliş” adlı mənfur, bədnam sənədin ləğvi istiqamətində atılan addımları böyük şadyanalıqla qarşılayıb, bu istiqamətdə ümumrayon tədbirləri keçirilib.

O ki qaldı, rayonun sosial-iqtisadi inkişaf göstəricilərinə, çəkinmədən deyə bilərik ki, bu istiqamətlərdə də yetərincə uğurlarımız olub. Taxılçılıq, tütünçülük, meyvəçilik, gülçülük, baramaçılıq, heyvandarlıq sahələrindəki göstəricilərimizin 2024-cü ildəkinə nisbətən daha yaxşı olduğunu deyə bilərəm.



Elə, xidmət sahələrində də müvafiq qurumlarımızın fəaliyyəti cənab Prezidentin tələb etdiyi səviyyədə olub. Şəhid ailələri, qazilər, müharibə veteranları və qayğıya ehtiyacı olan zümrələr daim rayon rəhbərliyinin qayğısı ilə əhatə olunub”.

### Məşğulluq günün əsas mövzularındandır

Yaxşı yadımdadır, ötən il əmək və əhalinin sosial müdafiəsi naziri Anar Əliyev Zaqatalada sakinlərin suallarını cavablandırandan sonra rayon icra hakimiyyətinin başçısı Mübariz Əhmədzadə ilə birlikdə özünüməşğulluq proqramı çərçivəsində şəhər sakinləri Samir Abdullayev və Maisə Qafarova üçün qurulan kiçik təsərrüfatlara baxış keçirirdilər. Həmin gün bildirildi ki, özünüməşğulluq proqramının dəstəyi ilə aktivlər verilməklə Samir Abdullayev üçün telefon təmiri, Maisə Qafarova üçün isə kişi bərbərxanası istiqaməti üzrə kiçik təsərrüfatlar qurulub. Onlar kiçik biznesə çıxış imkanlarına malik olmaq üçün göstərilən dəstəyə görə dövlətimizin başçısına minnətdarlıqlarını ifadə etmişdilər.

Ancaq biz jurnalistlər üçün daha maraqlı olan məqam bu istiqamətdə verilən tapşırıqların icrası müddətində Zaqatalada 1923 şəxs üçün kiçik təsərrüfatlar qurulduğunun deyilməsi idi.

### “Zaqatala: İdman uğurları – 2025”

Rayondakı Heydər Əliyev Mərkəzində Zaqatalanın idman uğurlarına həsr olunmuş “Zaqatala: İdman uğurları – 2025” adlı tədbirdə olduqca maraqlı faktlar səsləndirildi. Qeyd edildi ki, yola salmaqda olduğumuz ildə (tədbir dekabrın sonlarında keçirilirdi) zaqatalalı idmançılar cüdo, sərbəst güləş, qol güləşi, futbol, şahmat, bədii gimnastika, basketbol, boks, voleybol və s. idman növləri üzrə rayondaxili yarışlarda 85 qızıl, 97 gümüş, 115 bürünc medal, respublika səviyyəli yarışlarda 32 qızıl, 20 gümüş, 94 bürünc medal, beynəlxalq yarışda isə 3 qızıl, 1 gümüş medal qazanıblar.

### “Zəfər kompleksi”ndə Şanlı zəfərin 5 illiyi

Keçən il yaddaşlarda qalan əsas faktlardan biri də Vətən müharibəsində şanlı qələbəmizin 5-ci ildönümünün bayram əhval–ruhiyyəsi ilə qeyd edilməsi oldu. Rayon rəhbərliyi və ictimaiyyətin nümayəndələri əvvəlcə şəhər qəbiristanlığında şəhid məzarlarını ziyarət edib, sonra isə “Zəfər kompleksi” abidəsi önünə gül dəstələri düzdülər.

Heydər Əliyev Mərkəzində keçirilən “Qarabağ, sən azadsan” adlı tədbirin iştirakçılar isə əvvəlcə yeniyetmə və gənc rəssamların düşmən üzərində parlaq qələbəmizin 5-ci ildönümünə və qəhrəman şəhidlərimizə həsr etdikləri rəsm əsərlərindən ibarət sərgiyə baxdılar. Çıxışlardan sonra “Zəfər yolu” filmi nümayiş olundu. Ardınca isə tədbir iştirakçıları “Zəfər yürüşü”nə qatıldılar. Heydər Əliyev Mərkəzinin qarşısından başlayan yürüş “Şəhidlər xiyabanı” kompleksinədək davam etdi.

### “Müstəqil Azərbaycan – suveren dövlət”

Mübariz müəllimin dediyi kimi, Zaqatalada bütün əlamətdar günlər ümumrayon səviyyəsində qeyd olunur. Elə götürək sonuncu konfransı. Məsələn, oktyabrın 17-də Heydər Əliyev Mərkəzində “Konstitusiya və Suverenlik İli” çərçivəsində “Müstəqil Azərbaycan – suveren dövlət” mövzusunda keçirilən elmi-praktik konfransda qeyd edilib ki, ümummilli lider Heydər Əliyevin siyasi irsinin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin uğurlu fəaliyyəti nəticəsində müstəqilliyimizin sütunları getdikcə daha da möhkəmlənir. Fəxrlə vurğulanıb ki, Müstəqilliyin Bərpası Gününü xalqımız ərazi bütövlüyümüzə qovuşmuş qalib xalq kimi bayram edir və bu tarixi ədalət Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin siyasi iradəsi, xalqımızın sarsılmaz əzmi, əsgərlərin yüksək peşəkarlığı, fədakarlığı sayəsində əldə edilib.

### 517 məzunun 407-si tələbə adı qazanıb

Sentyabrda – yeni dərs ilinin başlanmasından sonra keçirilən ümumrayon tədbirində qeyd edilib ki, bu, həqiqətən, böyük uğurdur. rayon icra hakimiyyətinin başçısı Mübariz Əhmədzadə vurğulayıb ki, ali məktəblərə builki qəbul imtahanlarının nəticələri Zaqatala rayonunun məzunları üçün də çox uğurlu olub. Belə ki, ali məktəblərə daxil olmaq üçün sənəd vermiş 517 nəfər zaqatalalı məzundan 407-si tələbə adını qazanıb.

Qeyd olunub ki, imtahanlarda iştirak edənlərin 79 faizinin ali məktəblərə qəbul olunmasına əvvəlki illərdə təsadüf edilməyib. 2025-ci ilin məzunlarından 68 nəfəri 500, 22 nəfər isə 600-dən çox bal toplayıb.

### “Raduqa”, “Krım”, “Mürəbbə qızılgülü” və …

Ölkəmizin turizm təşkilatlarından biri öz müştərilərinin diqqətini cəlb etmək üçün yazır: “Zaqatalaya qızılgül kolları ötən əsrin 60-cı illərində Bolqarıstandan gətirilib. Həmin dövrdən başlayaraq rayonda qızılgülün “Raduqa”, “Krım”, “Mürəbbə qızılgülü” və sair növləri yetişdirilməkdədir. 2016-cı ildən etibarən isə bu güllərin sırasına “Dəməşq qızıl gülü” də əlavə edilib. Yerli sakinlər küçələri, həyətləri bəzəyən bu güllərin gözəlliyindən və ətrindən zövq almaqla kifayətlənməmiş, onlardan qızılgül mürəbbəsi, gül suyu, gülab, şərbətlər hazırlanmasında məharət qazanmışlar.










### Ermənilərin öldürdüyü zaqatalalı aşıq

Bir dəfə dostum, Azərbaycan Yazıçılar Birliyinin Şimal – Qərb bölgəsi üzrə sədri Əlmaniz Ələkbərlidən soruşdum ki, elə bir mövzu varmı ki, Zaqataladan yazan jurnalistlər ona toxunmamış olsunlar. Dedi, öyrənib deyərəm. Ertəsi günü mənə zəng edib dedi ki, zaqatalalı gənc alim, filologiya üzrə fəlsəfə doktoru Zümrüd Mənsimovanın “Zaqatala aşıq mühiti” adlı məqaləsini oxuyun. Tapıb oxudum.

Sən demə… burada tarixən yaşayıb-yaradan aşıqlarımızdan biri də varxiyanlı Aşıq Məhəmməddir. Alim yazır: “Onun həyat və yaradıcılığı haqqında ayrı-ayrı ustad aşıqlardan, eləcə də sənətkarın nəticəsi Aşıq Səaddindən əldə etdiyimiz məlumatlara əsasən o, həqiqətən haqq aşığı olub. Folklorşünas alim Salman Mümtaza görə, “Məhəmməd XVIII əsrin II yarısında Zaqatala rayonunun Varxiyan kəndində anadan olub, 65 yaşında dünyadan köçüb. O, ustad aşıq olub, xalq şeirinin bir çox şəkillərində gözəl nümunələr də yaradıb.

Elləri, obaları gəzən, bir üzü Xoy, bir üzü Dərbənd və Türk dünyasının çox yerlərində olan ustadın bədahətən şeir demək bacarığı, özünə xas ifaçılıq qabiliyyəti sənətkara daha da böyük uğur gətirib.

Alim yazır ki, Aşıq Məhəmmədin dövründə ermənilər öz məclislərinə Azərbaycan aşıqlarını çağırardılar: “Aşıq Məhəmmədin öncəgörənliyi ilə bağlı bir rəvayət də nəql olunur. Ermənilər həmişə Aşıq Məhəmmədin yüksək fitri istedadının, bədahətən söz deməsinin paxıllığını çəkiblər.

Bəhmətli Aşıq Mədətin dediyinə görə, Aşıq Məhəmməd erməni aşığı olan Aşıq Donu ilə məclislərin birində deyişir. Onu heç cürə bağlaya bilməyən erməni aşıqları sonda yeməyinə zəhər qataraq öldürürlər. Maraqlı haldır ki, yeməkdən öncə ustad şagirdliyə götürdüyü əmisi oğlanlarına tapşırır ki, onun yediyindən yeməsinlər.

### Quruculuq və abadlıq işləri

Hörmətli oxucu, sonda Zaqataladan yazdığımız bu qeydlərə burada görülən tikinti və abadlıq işlərini əlavə etməsək insafsızlıq olar. Heç kəsin xətrinə dəyməsin, gəlsin özü baxsın, görsün ki, burada nə qədər tikinti, abadlıq işləri gedib. Sizi yorsaq da yazmağa borcluyam. Təkcə keçən il rayonda sahibkarlar tərəfindən 1.21 milyon manat dəyərində yeni ticarət, xidmət, turizm və istirahət obyektlərinin, yüksəkmərtəbəli yaşayış binalarının tikintisi aparılıb.

Şəhərin Vaqif İsmayılov küçəsi 7 saylı, Faiq Əmirov küçəsi 286 saylı binaların həyətlərində sakinlərin asudə vaxtlarının səmərəli keçirilməsi üçün ümumilikdə 12 ədəd söhbətgah quraşdırılıb, 1100 metr uzunluğunda səki daşı düzülüb, səkilərə 320 kvadratmetr tamet örtüyü döşənib, yaşıllıq sahələrində 2000 kvadratmetr torpaq planlaşma işləri aparılıb. 190 kvadratmetr suvaq bərpa edilib, 1040 kvadratmetr rəngləmə işi görülüb. Bundan əlavə, Kebeloba kənd tam orta məktəb yoluna yağış sularının kənarlaşdırılması məqsədilə 300 metr uzunluğunda 400 diametrlik borularla su arxı çəkilib.

Zaqatala şəhəri ərazisində 2025-ci ildə Azərbaycan prospekti 39 və 104 saylı, Heydər Əliyev prospekti 37 saylı, Zərifə Əliyeva küçəsi, 1 saylı, Faiq Əmirov küçəsi 39, 42 və 43 saylı, Sabir küçəsi 45 saylı, Vasif Qurbanov küçəsi, döngə 2, 1 saylı, Hacı Zeynalabdin Tağıyev küçəsi 1 və 6 saylı, Cəfər Cabbarlı küçəsi 3 saylı, M.Nəzirova küçəsi 3 və 9 saylı, H.Z.Tağıyev küçəsi 1 və 6 saylı, Qarabağ küçəsi 2 saylı ünvanlarda yerləşən yaşayış binalarının dam örtüklərində təmir və bərkitmə işləri aparılıb. Nizami küçəsi 52 saylı binanın dam örtüyünün yararsız vəziyyətdə olan yağış suyu novları və boruları bərpa edilib.

2025-ci ildə mənzil fondunun təmiri üçün ayrılmış vəsait hasabına 9 binada təmir-bərpa işləri aparılıb.

Rayonda magistral və kəndlərarası avtomobil yollarında, körpülərdə, şəhərin küçələrində, respublika və yerli əhəmiyyətli avtomobil yollarında 1.23 milyon manatlıq saxlanma və cari təmir işləri görülüb.

Hələ bu harasıdır. Şəhər ərazisində 2025-ci ildə ümumilikdə 24 min kvadratmetrdən çox asfalt örtüyü döşəniləcək küçələr müəyyənləşdiriləcək. İşlərin görülməsi məqsədilə müsabiqələr keçirilib. Hazırda şəhərin N.Nərimanov küçəsində yararsız vəziyyətdə olan yağış sularının axıdılması üçün su arxının və səkilərin əsaslı təmir, H.Əliyev prospekti və H.Əfəndiyev küçəsində isə asfalt örtüyünün tökülməsi üçün hazırlıq işləri aparılır.

### Dağda “lövbər salmış” bulud

Zaqatalaya sonuncu səfərimiz zamanı hava tam açıq, yağmursuz idi. Ancaq dağ zirvələri başdan-başa iki-üç gün əvvəl yağmış qarla örtülmüşdü. Bir az aşağıda isə nəhəng bir ağ bulud, sanki, qayalara ilişib qalmış kimi görünürdü. Mənim yaddaşımda isə belə bir tabloya həsr olunan şeirin aşağıdakı bəndi ilişib qalıb:

**Dağlar duvaq taxmaz – köhnə məsəldir,**
**Amma zirvədə qar duvaq kimidir.**
**Küləyin böldüyü nəhəng ağ bulud**
**Sanki, lövbər atmış yorğun gəmidir.**

Zaqatalanın təbiəti 2026-cı ilin uğur yolunun başlanğıcında beləcə dincini alsa da, onun insanları yeni nailiyyətlərin ilk səhifələrini yazırlar.

*İlqar HƏSƏNOV,*
*XQ-nin bölgə müxbiri*

*Qayıdışın akkordları*

# Şuşanın təhsil ənənəsi dirçəldilir



**Azərbaycanın maarifçilik tarixində Şuşanın ədəbi, mədəni və təhsil mühiti əvəzsiz rol oynayıb. Bu şəhər ictimai fikir tariximizin inkişafına mühüm töhfələr verib, Azərbaycana və dünyaya görkəmli şəxsiyyətlər bəxş edib.**

Şuşanın yüksək iqtisadi inkişafı və şəhər ziyalılarının dünyəvi təhsil verən məktəb açmaq səyi mədəniyyət paytaxtımıza bu sahədə də birincilik qazandırmışdı. Qafqazda ilk qəza məktəbinin təntənəli açılışının 1830-cu il dekabr ayının 30-da Şuşada reallaşması da bunun bariz ifadəsi idi. Bununla da Azərbaycanda ilk dövlət məktəb sisteminin əsası qoyulmuşdu.

Xatırladaq ki, çar Rusiyası hökuməti Qafqazda dövlət məktəblərini açmazdan əvvəl xüsusi nizamnamə hazırlayaraq 1829-cu il avqust ayının 2-də təsdiq etmişdi. Nizamnamədə belə təhsil ocağının təsis olunması nəzərdə tutulan ilk şəhər Şuşa idi. Bu qəza məktəbinin birinci sinfinə ilk il 19 şagird qəbul olunmuşdu. Lakin ildən-ilə şagirdlərin sayı artaraq 1833-cü ildə 27-yə, 1834-cü ildə isə 44 nəfərə çatmış və ikinci sinif də açılmışdı.

Azərbaycanda ilk olaraq yaradılan Şuşa qəza məktəbi fəaliyyət göstərdiyi illərdə təlim-təhsil keyfiyyətinə görə birinci yerdə qərarlaşmışdı. 1835-ci il mayın 12-də isə Zaqafqaziya (Cənubi Qafqaz) məktəblərinin ikinci nizamnaməsi təsdiq edilmişdi. Bu nizamnamədə isə Azərbaycan üzrə 4 qəza məktəbini, o cümlədən Şuşa məktəbini təkmilləşdirmək nəzərdə tutulmuşdu.

Yeni nizamnamə ilə fəaliyyət göstərməyə başlayan təhsil ocağının II və III siniflərində rus dilinin qrammatikası, coğrafiya, tarix, hesab, Azərbaycan dili, xəttatlıq, rəsm fənləri tədris edilirdi. Azərbaycan dili rus bölməsi üçün məcburi fənn kimi həftədə 6 saat keçirilirdi. 5 müəllim və 127 şagirdlə fəaliyyətə başlayan Şuşa qəza məktəbi əvvəlcə 3 sinifli, 1878-ci ildən isə 4 sinifli şəhər məktəbinə çevrildi.

1848-ci il dekabr ayının 18-də Zaqafqaziya məktəbləri üçün yeni nizamnamə qəbul edildi. Qəza tədris müəssisələrinin, o cümlədən Şuşa qəza məktəbinin qarşısına yeni vəzifələr qoyulurdu. Belə ki, əvvəlki fənlərdən əlavə dəftərxana qaydalarına aid qısa məlumat da tədris planına daxil edilmişdi. Azərbaycan dilinin öyrənilməsinə daha geniş yer verilirdi.

Şuşa qəza məktəbində tədris-təlim işi digər məktəblərə nisbətən yüksək səviyyəyə yüksəlmişdi. Şagirdlərin sayına görə bu təhsil ocağı Cənubi Qafqazda birinci yerdə idi. 1865-ci ildə tədris müəssisəsində 240 şagird təhsil alırdı. 1868-ci ildən tədris planına latın və Avropa dilləri daxil edilmişdi. Şuşa qəza məktəbində fransız dilinin də tədrisinə başlanılmışdı.

Maarifçiliyin sürətli inkişafı nəticəsində Şuşada dünyəvi təhsil sisteminə keçid gücləndi. Azərbaycanda ilk ümumtəhsil ocağı olan Şuşa qəza məktəbi 1874-cü ildə Qafqazda şəhər məktəblərinin ilk qaranquşu oldu. Yeni məktəb daha yüksək tipli idi. Çünki pedaqoji heyətin əksəriyyəti Tiflis Aleksandriyski Müəllimlər İnstitutunu bitirənlərdən ibarət idi.

Şuşada şəhər məktəbi şagird çoxluğuna görə yenə də seçilirdi. 1876-cı ildə burada təkcə I sinifdə 70, 1877-ci ildə isə 160 nəfər şagird var idi. Məktəb proqramına şəriət, Azərbaycan, rus və fransız dilləri, hesab, təcrübi həndəsə, coğrafiya, tarix, fizika, rəsmxət, nəğmə və gimnastika fənləri daxil idi. 1880-ci ildə məktəbin nəzdində xüsusi musiqi sinfi açılmışdı.

Şagirdlərin çoxluğuna görə Şuşa şəhər məktəbi çar Rusiyası ərazisində ilk yerlərdən birini tuturdu. Məktəbdə ilk vaxtlarda 375 uşaq oxuyurdu. Şuşa şəhər məktəbinin ilk buraxılışından bir neçə nəfər 1879-cu ildə Qori Müəllimlər Seminariyasına daxil olmuşdu. Onların sırasında tanınmış pedaqoq, Azərbaycanın elmi-pedaqoji, ictimai fikri tarixində xüsusi xidmətləri olan görkəmli ədəbiyyatşünas Firidun bəy Köçərli və tanınmış maarif xadimi Səfərəli bəy Vəlibəyov da var idi. XIX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi Nəcəf bəy Vəzirov və bir çox məşhur simalar da ilk təhsillərini Şuşa (qəza) şəhər məktəbində almışdılar.

Azərbaycanda bunun ardınca 1881-ci il sentyabrın 20-də Şuşada 6 sinifdən ibarət olan Real məktəbin əsası qoyulmuşdur. Təhsil ocağında riyaziyyat və fizika kursları, təbiətşünaslıq, rəsm və rəsmxət, şəriət və digər fənlər tədris edilmiş, lakin alman və fransız dillərinə ayrılan saatların miqdarı daha çox olmuşdur. Şuşa Real məktəbinin geniş və zəngin kitabxanası ilə yanaşı, fənn kabinələri, xüsusilə fizika kabinəsi öz mükəmməlliyi ilə diqqəti cəlb etmişdir.

Məktəb Qafqaz orta təhsil müəssisələri sırasında nümunəvi tədris ocaqlarından hesab olunmuşdur. Burada Azərbaycan dilini görkəmli pedaqoq, publisist, tərcüməçi, jurnalist, yazıçı Haşım bəy Vəzirov, fransız dilini publisist, pedaqoq, yazıçı, hüquqşünas, şərqşünas, türkoloq, islamşünas alim Əhməd bəy Ağaoğlu, elmi-ilahiyyat dərslərini isə həkim, həmçinin şair Mirzə Sadıq Lətifov tədris etmişdir. Bununla yanaşı, Qori Müəllimlər Seminariyasının məzunu olan Yusif bəy Məlikhaqnəzərov, maarifçi, pedaqoq, şair, xeyriyyəçi, Fransada və Rusiyada təhsil almış Mirzə Salah bəy Zöhrabbəyov da Real məktəbdə dərs demişlər. Qarabağlı gənclərin bir hissəsi Şuşa Real Məktəbində təhsil almış, sonradan Rusiyanın və Avropanın ali məktəblərinə daxil olmuş, sonra isə təhsil, elm və mədəniyyət, sənaye və iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərmişlər.

Qeyd edək ki, 1921-1922-ci tədris ilində Şuşada pedaqoji məktəb, 1923-1924-cü tədris ilində isə musiqi məktəbi fəaliyyətə başlamışdı. 1922-1923-cü illərdə Şuşa ərazisində 580 şagirdi, 25 müəllimi özündə birləşdirən 8 məktəb fəaliyyət göstərirdi. 1927-1928-ci tədris ilində Şuşa ərazisində məktəblərin sayı 11-ə çatmışdı. Azərbaycanda ilk ümumtəhsil ocağı olan Şuşa qəza məktəbi 1933-cü ildə yeddiillik məktəbə, 1937-1938-ci dərs ilindən isə 1 nömrəli şəhər orta məktəbinə çevrilmişdi.

1939-1940-cı tədris ilində 110 yaşlı məktəbin orta təhsilli ilk buraxılışı oldu. 1966-cı ildə 1 nömrəli məktəbin əsasında yeni bir təhsil ocağı – 4 nömrəli orta məktəb yaradıldı. Şuşa şəhər 1 nömrəli orta məktəbi isə yeni binaya köçürüldü və burada dahi bəstəkar Üzeyir Hacıbəylinin adını daşıyaraq fəaliyyətini uğurla davam etdirdi.

Xatırladaq ki, görkəmli dövlət xadimi Heydər Əliyev hələ 1982-ci ilin yanvarında Şuşa şəhər 1 nömrəli orta məktəbin 150 illik yubileyinin qeyd olunması haqqında Azərbaycan KP MK Bürosunun qərarını imzalamış və bu qərar əsasında məktəbin yubileyi təntənəli şəkildə keçirilmişdi.

Şuşa şəhər 1 saylı orta məktəb yarandığı vaxtdan 1992-ci il mayın 8-nə kimi öz fəaliyyətini fasiləsiz olaraq davam etdirmişdir. Təhsil müəssisəsi hər cür avadanlıqla təmin olunmuş 24 fənn kabineti və laboratoriyası, linqafon, maşınşünaslıq, gənclərin çağırışaqədərki hazırlıq kabinetləri, zəngin kitabxana, geniş idman və akt zalları, yeməkxana və s. fəaliyyət göstərirdi.

Şuşa şəhəri 1 saylı orta məktəbi də işğal dövründə didərgin düşmüş, 1992-ci ildən etibarən Yasamal rayonundakı 38 nömrəli orta məktəbin binasında fəaliyyət göstərmişdir. 1996-cı il mayın 6-da ulu öndər Heydər Əliyev Şuşa ziyalıları ilə bu təhsil ocağında görüşündə rayonun tarixi, mədəniyyət abidələri, baş verən hadisələr ətrafında geniş söhbət edərkən dahi şəxsiyyətin dediyi bir fikri yada salmaq istərdik: “Şuşanın öz məktəbləri var. Qoy olsun, öz məktəbi olsun. Öz məktəbi olanda, o, Şuşa haqqında daha çox düşünəcək”. Ulu öndərin təhsillə bağlı etdiyi tövsiyələr də həm Şuşanın məktəbləri üçün, həm də bütün məcburi köçkün təhsil müəssisələri üçün yol xəritəsi oldu.

Yeri gəlmişkən, Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə 2010-cu il dekabrın 7-də Azərbaycanda ilk qəza məktəbinin – Üzeyir Hacıbəyli adına Şuşa şəhər 1 nömrəli orta məktəbinin 180 illik yubileyi dövlət səviyyəsində təntənəli surətdə qeyd edildi. 2020-ci il noyabrın 8-də isə Şuşa şəhərinin işğalçılardan azad edilməsindən 6 ay sonra dövlətimizin başçısı 2021-ci il mayın 8-də Şuşa şəhər 1 nömrəli 960 şagird yerlik tam orta məktəbin layihələndirilməsi və tikintisi məqsədilə müvafiq Sərəncam imzaladı və 4 gün sonra ölkə rəhbəri İlham Əliyevin, birinci xanım Mehriban Əliyevanın, qızları Leyla və Arzu Əliyevaların iştirakı ilə həmin tədris müəssisəsinin təməli qoyuldu. Yeni 960 şagird yerlik tam orta məktəbin layihələndirilməsi və tikintisi məqsədilə Prezidentin Ehtiyat Fondundan Elm və Təhsil Nazirliyinə ilkin olaraq 3 milyon manat vəsait ayrıldı. Bundan 2 il sonra, 2023-cü il noyabrın 7-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə Şuşa şəhəri 1 nömrəli tam orta məktəbin açılışı oldu.

Ötən müddətdə məktəb mühüm uğurları ilə diqqət çəkib. Belə ki, 2025-ci il 17-20 noyabr tarixlərində Bakı Ekspo Mərkəzində STEAM Azərbaycan layihəsinin təşkilatçılığı ilə keçirilən SAF 2025 Beynəlxalq STEAM Festivalında Şuşa şəhər 1 nömrəli tam orta məktəb üzrə Next Gen Greators və Engineers of Future nominasiyası üzrə 2 komanda iştirak edib. Onlardan biri Engineers of Future nominasiyası üzrə Vincigo komandası 1-ci yeri tutub və qızıl medalla təltif olunub. Digər Buildit komandası isə “Ən yaxşı təqdimat” üzrə mükafat qazanıb.

Sonda tarixi bir hadisəni də xatırlatmağı zəruri bilirik. 2025-ci il yanvarın 14-də Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Şuşanın düşmən tapdağından alınmasından sonra ilk dəfə bu şəhərə səfər etmələrinin 5 ili tamam oldu. Bəlkə də bu da bir xoş təsadüf idi ki, düz 43 il əvvəl bu tarixdə – 1982-ci il yanvarın 14-də ümummilli lider Heydər Əliyevin təşəbbüsü və iştirakı ilə Azərbaycanın qədim mədəniyyət mərkəzi Şuşa şəhərində Molla Pənah Vaqifin məzarı üzərində ucaldılan məqbərənin də açılışı reallaşmışdı.

Xüsusi qeyd etmək lazımdır ki, Prezident İlham Əliyev Şuşa şəhərində bütün quruculuq işlərində yaxından iştirak edir. O da bəllidir ki, Şuşanın, eləcə də bütün şəhər və kəndlərin layihələrində, baş planların hazırlanmasında dövlət başçısının təklifləri və göstərişləri nəzərə alınır. Şuşa, Ağdam, Zəngilan, Laçın, Füzuli, Xocalı və digər şəhər və kəndlərimizdə istifadəyə verilən sosial xidmət və digər obyektlərin tikintisi Azərbaycan liderinin müəllifliyi və göstərişləri nəticəsində həyata keçirilir.

Hazırda qarşıda duran ən mühüm vəzifələrdən biri işğaldan azad olunan ərazilərdə təhsil ocaqlarının tikintisidir. Azərbaycan dövlətinin Qarabağda və Şərqi Zəngəzurda həyata keçirdiyi bərpa və yenidənqurma prosesi çərçivəsində müasir, innovasiyalara əsaslanan təhsil ocaqlarının qurulmasına xüsusi diqqət yetirilir. Şuşadakı 1 saylı orta məktəb də bunun daha bir əyani təsdiqidir.

***Elçin ƏHMƏDOV,***
***Dövlət İdarəçilik Akademiyasının professoru, “Qarabağ İrsini Araşdırma Mərkəzi”nin rəhbəri,***
***Rövşən AĞAYEV,***
***Azərbaycan Yazıçılar Birliyinin üzvü***

*İbrahim Cəfərov–70*

# Aqrar elm və təhsilə xidmətdə keçən ömür

**Azərbaycan aqrar elminin və kənd təsərrüfatı təhsilinin inkişafında mühüm xidmətləri olan tanınmış alim, AMEA-nın müxbir üzvü, kənd təsərrüfatı elmləri doktoru, professor İbrahim Həsən oğlu Cəfərov 20 yanvar 1956-cı ildə Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Düdəngə kəndində zəhmətkeş kəndli ailəsində dünyaya göz açmışdır. Gələcək alimin elmi-formalaşma mərhələsi Azərbaycan aqrar təhsilinin aparıcı ocaqlarından biri olan Azərbaycan Kənd Təsərrüfatı institutu ilə bağlı olmuşdur. O, 1979-cu ildə bu ali təhsil müəssisəsinin dinləyicisi, 1980-1985-ci illərdə isə tələbəsi olmuş, 1985-ci ildə institutun bitki mühafizəsi fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir.**



Elmi araşdırmalara erkən maraq göstərən İbrahim Cəfərov 1985-1988-ci illərdə K.A.Timiryazev adına Moskva Kənd Təsərrüfatı Akademiyasının Fitopatologiya kafedrasında əyani aspiranturada təhsil almışdır. O, dissertasiya işini vaxtından əvvəl – 1989-cu ildə uğurla müdafiə edərək kənd təsərrüfatı elmləri üzrə elmlər namizədi, alimlik dərəcəsinə layiq görülmüşdür.

Alimin uzunillik fundamental və tətbiqi tədqiqatlarının məntiqi nəticəsi olaraq, 2006-cı ildə “Azərbaycanın çəyirdəkli meyvə bitkilərinin mikobiotası (növ tərkibi, törədicilərin biologiyası, zərərlilik, mühafizə tədbirləri)” mövzusunda doktorluq dissertasiyasını müdafiə etmiş, 2010-cu ildə professor elmi adı almışdır.

Bütün yaradıcılıq fəaliyyətini Azərbaycan aqrar elminin və təhsilinin inkişafına həsr edən İbrahim Cəfərovun elmi xidmətləri 2014-cü ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü seçilməsi ilə daha da yüksək səviyyədə dəyərləndirilmişdir. Elmi-pedaqoji fəaliyyətinin əsas hissəssi Azərbaycan Dövlət Aqrar Universiteti ilə bağlı olan tanınmış alim 1989-cu ildən Fitopatologiya və bitkilərin immuniteti kafedrasında assistent, 1994-cü ildən dosent, 2011-ci ildən professor kimi fəaliyyət göstərmiş, 1993-cü ildən 2002-ci ilədək Meyvə-tərəvəzçilik və üzümçülük, sonra isə Aqronomluq və torpaqşünaslıq fakültələrinin dekanı, 2009-2013-cü illərdə universitetdə tədris işləri üzrə prorektor, 2013-2022-ci illərdə rektor vəzifələrində çalışmışdır. 6 oktyabr 2022-ci il tarixindən AR KTN Bitki Mühafizə və Texniki Bitkilər Elmi-Tədqiqat İnstitutunun direktorudur.

Professor İbrahim Cəfərovun Azərbaycan Dövlət Aqrar Universitetinə (ADAU) rəhbərliyi dövrü ölkəmizdə aqrar təhsilə və elmə göstərilən dövlət qayğısının real nəticələri ilə səciyyələnir. Məhz bu dövrdə dövlətin aqrar sahənin modernləşdirilməsinə yönəlmiş siyasətinə uyğun olaraq universitetdə genişmiqyaslı quruculuq və yenidənqurma işləri həyata keçirilmişdir. Görülən sistemli və məqsədyönlü tədbirlər ADAU-nun ölkənin aparıcı ali təhsil və elmi-tədqiqat mərkəzlərindən birinə çevrilməsində, aqrar sahə üzrə yüksəkixtisaslı kadr hazırlığının keyfiyyətcə yeni mərhələyə yüksəlməsində mühüm rol oynamışdır.

İbrahim Cəfərovun hazırda rəhbərlik etdiyi institut həm bitki mühafizəsi, həm də texniki bitkilərin, əsasən də pambıq bitkisinin becərilmə texnologiyalarının təkmilləşdirilməsi, yeni hibrid və sortların yaradılması istiqamətində ən aparıcı rola malik olan elmi müəssisə olmaqla, əsas fəaliyyət istiqamətlərinə respublika ərazisində açıq və örtülü şəraitdə becərilən kənd təsərrüfatı, meşə, yaşıllıq, dekorativ və dərman bitkilərinin zərərverici və xəstəliklərinin, eləcə də alaq otlarının növ tərkibinin, yayılma arealının, onların pestisidlərə qarşı davamlılığın molekulyar-genetik əsaslarının tədqiqi, başlıca zərərli orqanizmlərə qarşı ekoloji baxımdan təhlükəsiz inteqrir mübarizə tədbirlərinin hazırlanması və s. bu kimi problemlər daxildir. İnstitutda çalışan gənclər üçün tədris və təlimlərin təşkili, əməkdaşlar arasında magistratura və doktorantura səviyyələrində təhsil alanların sayının artması da professor İbrahim Cəfərovun diqqət mərkəzində olan məsələlərdəndir. Alimin elmi rəhbərliyi və məsləhətçiliyi ilə 5 fəlsəfə doktoru, 1 elmlər doktoru dissertasiyası müdafiə edilmişdir. Hazırda institut əməkdaşlarından 4 nəfəri doktorantura səviyyəsində təhsil alır.

İbrahim Cəfərovun mütəmadi olaraq bitki mühafizəsinin aktual problemlərinə dair təşkil etdiyi dərslər, bu məqsədlə yaradılmış xüsusi auditoriya gənclərin peşəkarlıq səviyyəsinin yüksəlməsində mühüm rol oynayır.

Professor İbrahim Cəfərovun alim kimi əsas xüsusiyyətlərindən biri də onun elmi-tədqiqat proseslərində, o cümlədən tədqiqatların aparılması, elmi-tədqiqatların nəticələrinin ekspertizası, tətbiqi və aprobasiyasında şəxsən iştirakıdır. Vəzifəsindən asılı olmayaraq, bütün əməkdaşların yanında olmaq, kabinet idarəetməsindən uzaq durmaq, xüsusilə bitki mühafizəsi kimi sahədə prosesləri şəxsən, yerində müşahidə etmək və əldə olunan nəticələri bütün maraqlı tərəflərin–tədqiqatçıların, alimlərin, fermerlərin, dövlət qurumlarının iştirakı ilə geniş müzakirəsini təşkil etmək onun fəaliyyətinin əsas prinsiplərindəndir.

Son illərdə institutda keçirilən beynəlxalq və respublika səviyyəli konfranslar bitki mühafizəsinin ən aktual problemlərinin müzakirəsi və həlli istiqamətində səmərəli təkliflərin verilməsi, eləcə də müvafiq ali təhsil və elmi-tədqiqat müəssisələri ilə əməkdaşlıq əlaqələrinin genişləndirilməsi baxımından müstəsna əhəmiyyət kəsb edir.

İstər təhsil, istərsə də elmi-tədqiqat sferasında fəaliyyətindən asılı olmayaraq professor İbrahim Cəfərov öz fəaliyyətində əsas tutduğu prinsiplərdən biri elm, təhsil və istehsalatın inteqrasiyasının gücləndirilməsidir.

Professor İbrahim Cəfərovun instituta rəhbərliyi dövrü aparılan elmi-tədqiqat işlərinin nəticələrinin istehsalatda tətbiqinin genişləndirilməsi, bu nəticələrin fermer təsərrüfatlarının real ehtiyaclarını nə dərəcədə qarşıladığının öyrənilməsi istiqamətində məqsədyönlü fəaliyyətlə də səciyyələnir. Belə yanaşma elmin istehsalatla üzvi və sistemli əlaqəsinin formalaşmasına, aqrar sahədə tətbiqi nəticələrin effektivliyinin artırılmasına xidmət etmişdir.

Professor İbrahim Cəfərov respublikada və xaricdə nəşr olunmuş 178 elmi əsərin, o cümlədən 4 dərslik, 4 dərs vəsaitinin müəllifidir. Onun müəllifi olduğu “Bitki xəstəlikləri və onların idarə edilməsi” adlı fundamental vəsait kənd təsərrüfatı bitkilərində rast gəlinən müxtəlif xəstəliklər, onların yayılma mexanizmləri və vurduğu zərər, xəstəlik törədicilərinin bioloji inkişaf xüsusiyyətləri, xəstəliklərin formalaşmasına təsir göstərən ekoloji amillər barədə geniş və sistemli məlumat təqdim edən sanballı elmi əsərlərdən biridir. Eyni zamanda, alimin rəhbərliyi ilə institut əməkdaşlarının bitki mühafizəsi sahəsində elmi-metodiki ədəbiyyatın hazırlanmasına diqqətin artırılması nəticəsində bir sıra dəyərli əsərlər meydana çıxmışdır ki, bunlar institutun elmi potensialının və aqrar kadr hazırlığının metodiki bazasının möhkəmləndirilməsində mühüm rol oynayır.



Aqrar təhsilin və elmin inkişafında xidmətləri dövlətimiz tərəfindən yüksək qiymətləndirilməsinin nəticəsidir ki, İbrahim Cəfərov kənd təsərrüfatının inkişafında xidmətlərinə və dövlət qulluğunda səmərəli fəaliyyətinə görə 3-cü dərəcəli “Vətənə xidmətə görə” ordeni (2016), “Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)” (2019), “Bakı Dövlət Universitetinin 100 illiyi (1919-2019)” (2019) Azərbaycan Respublikasının yubiley medalları ilə təltif edilmişdir. Alim 2016-cı ildə Qazaxıstan Milli Aqrar Universitetinin fəxri professoru, 2016-cı ildə Miçurin Dövlət Aqrar Universitetinin fəxri doktoru, 2018-ci ildə Moldova Dövlət Aqrar Universitetinin fəxri doktoru, 2024-cü ildə Qazaxıstan Aqrar Akademiyasının həqiqi üzvü adlarına layiq görülmüşdür.

Beləliklə, çoxşaxəli elmi-pedaqoji fəaliyyəti, səmərəli təşkilatçılıq bacarığı və aqrar elmin inkişafına verdiyi əvəzsiz töhfələri ilə professor İbrahim Cəfərov Azərbaycan elmi ictimaiyyətində özünəməxsus mövqeyə malik görkəmli alimlərdəndir. Onun formalaşdırdığı elmi ənənələr, yetişdirdiyi kadrlar və ərsəyə gətirdiyi fundamental elmi əsərlər bu gün də aqrar sahənin davamlı inkişafına mühüm töhfə verməkdədir.

Dəyərli alimi 70 illik yubileyi münasibətilə səmimi-qəlbdən təbrik edir, ona möhkəm cansağlığı, uzun ömür, elmi və pedaqoji fəaliyyətində yeni yaradıcılıq nailiyyətləri, Azərbaycan aqrar elminin inkişafı naminə bundan sonra da uğurlu fəaliyyət arzulayırıq.

***Qərib MƏMMƏDOV,***
***akademik***

*Babalar yaradıb, biz yaşadaq!*

# Milli kimliyin etnik-mədəni möhürü

## *Mənəvi dəyərlər estafeti necə davam etdirilir?*



**Azərbaycan mədəni irsi xalq musiqisi, şifahi söz sənəti, tarixi abidələr, milli mətbəx kimi qədim dəyərlərlə zəngin bir xəzinədir. Əsrlər boyu qoruyub saxladığımız bu miras həm də nəsillər arasında əhdnamədir. Lakin bu mədəni estafet bəzən pozulub, bəzən isə təhriflərə məruz qalıb. Qaynaqlarda, müxtəlif mənbələrdə də həqiqəti danmaq, onu yalan örtüyünə bürümək hər zaman ən böyük xəyanət sayılıb. Çünki yaddaşı dəyişmək, kimliyi sarsıtmaq deməkdir. Yer adlarının başqa adlarla əvəzlənməsi, abidələrin mənşəyinin saxtalaşdırılması, sözün kökündən qoparılması, musiqinin təhrif olunması gerçəkliyə kölgə salmaq, haqq nahaqqa verməkdir.**

**Milli Elmlər Akademiyasının aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru Elçin Qaliboğlu bildirdi ki, Azərbaycanın zəngin mədəni irsinin bərpası və gələcək nəsillərə ötürülməsi böyük əhəmiyyət kəsb edir:**



– Milli-mənəvi dəyərlərimiz mahiyyət etibarilə bəşəri məzmun daşıyır. Milli dəyər dedikdə, ilk növbədə, onun özünəməxsusluğu nəzərdə tutulur, təbiidir ki, milli olan həm də bəşəriliyi təsdiq edir. Bu gün dünyada qloballaşma prosesi sürətlə gedir. Bu proses, təəssüf ki, bir çox hallarda milli dəyərlərin mahiyyətinə zərbə vurur. Milli dəyər daşıyıcılarının düşüncəsində suallar, tərəddüdlər yaradır. Bu sualların cavabını biz, ilk növbədə, mədəni irsimizdə tapırıq. Mədəni irs bizim mənəvi qaynağımızdır və bu qaynağa sırf mənəvi yöndən yanaşmaq zəruridir.

Tarixə baxsaq, görərik ki, milli dəyərlər konkret şəxsiyyətlər və nümunələr üzərində özünü daha aydın göstərir. Məsələn, Babəkin timsalında qəhrəmanlıq, azadlıq və vətənə sədaqət milli dəyər kimi təcəssüm edir. Eyni şəkildə, Füzulinin şəxsində insanın müqəddəsliyi, insan münasibətlərində mənəvi məsuliyyət anlayışı, sevginin uca sayılması dəyər kimi formalaşır. Nəsimi isə insanı ucaldan, ona ali məna verən fəlsəfi baxışın rəmzidir.

Sözsüz ki, xüsusi olaraq muğam sənətini qeyd etməliyik. Muğam insan mənəviyyatının ən dərin qatlarının ifadəsidir. Azərbaycan musiqisinin zirvəsi olan muğam habelə Şərqin, bütövlükdə Bəşərin (Dünyanın) ali mənəviyyat ifadəçisidir. Muğamların yaranmasında əsas Şərq xalqları iştirak edib, ancaq bu gedişdə muğamın tarix boyunca daha aydın, mənalı, ruhlu, sistemli, fəlsəfi özünüifadəsi xalqımıza aiddir desək, yanılmarıq.

Muğam yaradıcılığı başdan-başa fəlsəfədir, insanın həqiqət yolçuluğunun harayıdır. Başqa tərəfdən, Azərbaycan fəlsəfəsi tarix boyunca daha çox poeziyamızda ifadə olunub. Nəsiminin, Füzulinin yaradıcılığı buna örnəkdir. Muğam mahiyyətcə fəlsəfədir. Bu fəlsəfə çağımızın etalonlaşmış fəlsəfi terminləri ilə ifadə olunmaya bilər, ancaq ilahi-insani məzmununu, bənzərsizliyini bütün dolğunluğu ilə qoruyub saxlayır.

Azərbaycan musiqisinin yaşı qədim olduğu qədər də özümüzəməxsusdur, bəşəridir, əvəzsizdir, habelə, çağdaşlığa uyğundur. İnsan cəmiyyətləri ardıcıl yeniliyin, inkişafın ifadəsi olaraq yaranır. Həyata münasibətin əslliyi tələbi insanların mənəviyyat axtarışlarının qarşısıalınmazlığından qaynaqlanır. İnsanın mənəviyyat axtarışları tükənmir, hər cür texniki inkişaf mahiyyətcə insana gerçəkdən böyük mənəvi ümid qaynağı ola bilmir, ancaq bu gedişdə imkanlar yaratdığı danılmazdır. Çağdaş texnoloji inkişafın insanların, ulusların ömrünə gətirdiyi bəlaların miqyası getdikcə artır. Bütövlükdə, bəşərin halsızlığı ortadadır: insanı qurtaracaq çıxış yollarının tapılması isə imkansız görünür. İnsan bu durumdan çıxış yolunu yenə də özünün milli-insani imkanlarının daha ciddi, yaradıcı, irəliyə doğru, ümidli axtarışları ilə tapa bilər.

Sənət bu gedişdə hər an böyük mənəvi yardımçımızdır. Azərbaycanın zəngin mənəvi tarixinin kökləri bu torpaqların qədimdən bəri yiyəsi olduğumuzu sübut edir. Əcdadın dünyaya, həyata, təbiətə, insana münasibətinin özülündə duran bənzərsiz yaradıcılıq çeşidləri ruhunun tükənməzliyinin – dünyaya, həyata, insana, təbiətə inamının, heyranlığının, hiddətinin ifadəsi idi. Bu prosesdə əcdadın ardıcıl döyüşkənliyi yaranırdı. Bu döyüşkənlikdə gerçəkliyi ötən idrak var idi. Yurd yaradan, qədim dünyanın amansız qaydalarından ötə olub, varlığını – insanlığını hər şeydən uca tutan əcdad dilində, folklorunda, mədəniyyətində, incəsənətin bir çox sahələrində, ayrıca olaraq, musiqidə varlığını təsdiq edirdi.

**Alim bildirdi ki, bu təsdiqetmə ötəri deyil, qalıcı olub. Onu sübut edən dəyərlərimizdən biri də bənzərsiz aşıq sənətidir:**

– Zəngin həyati müşahidəçilik, gerçəkliyi ötən musiqi duyumu və ifaçılıq örnəyi, əlvan ifaçılıq çeşidləri, bitməyən özünüifadə məqamları aşıq sənətinin Türk ruhundan yarandığını təsdiqləyirdi. Ana sazımızın səsində əcdadın yenilməzliyi, təbiəti öyməsi, özündən – ruhundan bilməsi var idi. Bu gedişdə yetkin, o çağadək olmayan ifalar ard-arda yaranırdı, qətiyyən bir-birini təkrarlamırdı.

Bu ifalarda insan xarakterinin zamanı aşan dözümünün, dəyanətli kədərinin, habelə, yerə-göyə sığmayan fərəhinin ifadəsi var. İnsanın halını bu dərəcədə universal ifadə etmək gələnəyi yaradan aşıq sənəti aşığın timsalında xalq ruhunun yaradıcısı və qoruyucusudur.

Aşıq bu sənətin bilicisidir. Aşıqsız saz, sazsız aşıq yoxdur. Aşıq sənəti ümumən ulusallığın birləşdirici, mahiyyətinin ifadəedici, tükənməyən güc qaynaqlarındandır. Azərbaycan aşıq sənəti xəqli qədimliyə xas olduğu dərəcədə sabahlıdır, yəni gələcəklidir. Bunu yaradan, var edən ulusal milli ruhdur, ancaq bəllidir ki, bu ruhun konkret daşıyıcıları var.

Azərbaycan aşıq sənəti xəlqi dəyərdir. Ümumən dəyərlik halı hər şeyə aid edilə bilməz. Xəlqi dəyər xəlqi mənəvi sərvətin ifadəsidir.

Əlbəttə, ilk növbədə, saz havalarının şəxsində onun dəyərliyinin mahiyyəti bilinir. Dəyərlik o deməkdir ki, ulusun xarakterik keyfiyyətləri ifadəsini tapmış olsun. Aşıq sənətində bu mənada əcdad türkün qüdrətilə zərifliyinin birliyini görmək olur. "Yanıq Kərəmi"də əcdadın bu cəhəti bütün aydınlığı ilə üzə çıxır.

Erməni musiqisində isə belə bir sistem mövcud olmayıb. Təxminən 15 il öncə mətbuatda bir yazı oxumuşdum. Başlıq belə idi: "Moskvada "Heyvagülü" davası". Yazıda maraqlı və düşündürücü bir faktdan bəhs edilirdi. Moskvada keçirilən irimiqyaslı tədbir zamanı azərbaycanlı tələbələr erməni tələbələrin hamının yaxşı tanıdığı melodiyanı öz havaları kimi (guya ki, havanın adı "Hayvakuran" imiş) təqdim etdiklərini görürlər. Təbii ki, bu məsələ azərbaycanlı tələbələrin etirazına səbəb olur, tədbir iştirakçıları arasında mübahisə yaranır. Belə faktlar bir deyil, beş deyil, kifayət qədər çoxdur. Söhbət məşhur "Heyvagülü" havasından gedir. Halbuki "Heyvagülü" havası hamının bildiyi, kökü bəlli olan, Azərbaycan ruhuna xas, milliliyimizi bütün çalarları ilə təsdiq edən musiqi örnəyimizdir. Bu havanın müəllifi çağdaş Azərbaycan zurna-balaban məktəbinin ustadı Kalvalı Əli Dədədir.

Azərbaycan balabanının özünəməxsusluğu xalqımızın xarakteri – inam, idrak, mənəviyyat, iradə keyfiyyəti ilə bağlıdır. Əlbəttə, bu kimi mənəvi-ruhsal keyfiyyətlər hər bir ulusda (xalqda) bu və ya başqa səviyyədə var, ancaq yaradıcılıq və özünəməxsusluq məhz bənzərsizliklə (hər xalqın həyatının müxtəlif sahələrində – dövlətçilikdə, ictimai düşüncədə, incəsənətdə və s. öz yaradıcılığını ortaya qoyması ilə) şərtlənir.

Azərbaycan balaban sənətinin özünəməxsusluğu bu gün də yaşamaqdadır. Minillərdən bəri xalq ruhumuz balabanda ciddi, davamlı, yaradıcı şəkildə yaşadılır. Ancaq bu baxımdan bir əsas qayğımız var: ayrıca olaraq son illərdə yeni balaban havaları, demək olar, yaradılmır. Yaradılırsa da, yaddaqalan olmur. Ən azı, "Heyvagülü", "Alçagülü", "İnnabı" və b. kimi havalar asan yadda qalır, heç zaman adiləşmir. Deməli, bugünkü yaradıcı nəsil də sadəcə, ifaçılıqla kifayətlənməməli, Azərbaycan muğam sənətinə, aşıq sənətinə, zurna-balaban sənətinə dərindən bələd olmalı, musiqi mədəniyyətimizin gözəl bilicisi olaraq yetişməlidirlər. Başqa bir qayğımız isə "aranjeman" adı altında Azərbaycan aşıq, zurna-balaban havalarının belə müəyyən mənada təhrifə uğradılmasıdır. Bu da yeni havacat yaratma istəklərini, demək olar, adiləşdirir.

Deməli, sabahımızda Azərbaycan balaban sənətinin, və b. yaradıcı sənətlərin ruhumuzun ciddi soraqları olmasını istəyiriksə, ilk növbədə, balabançılarımız bunun bənzərsiz ifaçısı, həm də ciddi özül əsasında yaradıcısı olmalıdırlar.

Müxtəlif dövrlərdə və müxtəlif platformalarda Azərbaycan musiqi nümunələrinin mənimsənilməsi, müəllifliyinə şübhə yaradılması halları ilə dəfələrlə rastlaşmışıq. Məhz buna görə də milli-mədəni irsin qorunması, müəllif hüquqlarının tanınması və mədəniyyətimizin sistemli şəkildə qorunması zəruridir.

Xatırladaq ki, təxminən bir həftə öncə Azərbaycan xalq musiqi irsinin incilərindən olan "Sarı gəlin" mahnısının İran dövlət telekanalında yayımlanması ictimai rezonans doğurub. Belə ki, mahnı Araz Torosyanın ifasında erməni və fars dillərində "Sarı ağçik" adı ilə təqdim edilib, efirdə erməni musiqisi kimi qələmə verilib.

Məsələ ilə bağlı Əqli Mülkiyyət Agentliyi araşdırmaya başlayıb. Agentlikdən bildirilib ki, yayımla əlaqədar hüquqi və mədəni aspektlər öyrənilir, xalq mahnısının mənşəyi və təqdimat forması diqqətlə təhlil olunur. Araşdırmanın nəticələrinə uyğun olaraq müvafiq addımların atılması istisna edilmir.

**Əməkdar mədəniyyət işçisi Sənubər Kərimova isə mövzu ilə bağlı söylədi ki, "Sarı gəlin"imizə sahib çıxmalı, millətimizin əvəzsiz sərvəti olan bütün milli-mənəvi dəyərlərimizi gələcək nəsillərə əmanət etməliyik:**



– "Sarı gəlin" mahnısının etimologiyası haqqında müxtəlif versiyalar var. Kimi sarışın olduğuna görə, kimi adının Sarı olmasına görə, kimi "Apardı sellər Saranı" xalq mahnısındakı Sara adının digər fonetik variantı kimi fərziyyələr irəli sürür, kimi də türkünün əfsanələrdən qaynaqlandığını bildirir. Bir versiyaya görə isə "sarı" sözü çox qədimdən, İslamdan əvvəldən gəlir və təkcə rəng anlamında işlənmir. Mənəvi sarsıntıların emosional ifadəsi olaraq insanın daxilindəki "sarı simə" eyham vurur. Yəni "sarı" sözü rəmzi məna daşıyır, adətən, insanların həssas məqamında özünü göstərir. Qəlbləri titrədən, duyğuları coşduraraq dillə ifadə edilməsi mümkün olmayan belə bir məqamı insanlar tarın kövrək, yandırıb-yaxan sarı siminin səsinə bənzədərək "ürəyimin sarı siminə toxundun" kimi deyim işlədirlər.

Azərbaycan türklərində "sarı" sözü, sarı rəng təbiətin dörd fəslindən birinin, saralıb-solmaq, təşviş keçirmək, nisgilli, bədbəxt, nakam olmaq rəmzi, gerçəkliyin şərti (mücərrəd) inikası kimi anlaşılmışdır. Faktlara müraciət edək. İlk olaraq türkdilli xalqların ədəbiyyat tarixində sorağı çox uzaq əsrlərdən gələn, qeyri-adi cazibəsi ilə insanı ahəngruba kimi özünə çəkən, qədimliyi və cahanşümul ecazkarlığı ilə dünya alimlərini heyrətə salan "Kitabi-Dədə Qorqud"a nəzər salaq. "Kitabi-Dədə Qorqud"un "Qanturalı" boyunda Trabzon təkurunun qızı sarı donlu Selcan xatunun ata evində sarı don geyinməsi onun təşviş, həyəcan keçirməsi ilə əlaqədardır.

Çünki atası şərt qoymuşdu: "O l qızın 3 canvər qalınlığı qaftanlığı vardır. Hər kim o 3 canvəri basa – yenə, öldürsə, qızımı ona verirəm" – deyə vəd eləmişdi. Basmasa, başın kəsərdi... Ol üç canvərin biri qağan aslandı, biri qara buğaydı, biri dəxi qara buğra idi. Bunların hər birisi bir əjdəhaydı...".

"Sarı" sözünün rəmzi məna kəsb etdiyi belə nümunələrin sayını xeyli artırmaq olar. Bəs uzaq keçmişimizdən bəri yana-yana, inləyə-inləyə bizə yön alan, mizrabını ürəyimizin sarı siminə vuraraq bizi öz sehrinə salan "Sarı gəlin" kimdir? Qənaətimə görə, "Sarı gəlin" milli adət-ənənəmizin, mənəvi dəyərlərimizin saxlancı, nisgilli gəlin haqqında elegiya – musiqi pyesidir. "Sarı" sözünün çox qədimdən, islamdan əvvəl gəldiyini və təkcə rəng anlamında deyil, mənəvi sarsıntıların emosional ifadəsi olaraq rəmzi məna daşıdığını irəli sürən versiyanı dəstəkləmək düzgün olardı.

Türkünün həzin, kövrək musiqisi və nisgilli misraları bizi belə düşünməyə sövq edir. Şeirin məzmunundan belə anlaşılır ki, sevgililəri bir-birindən ayırıb qızı erkən başqasına ərə vermişlər. Milli saxlanca əsasən, aşiq onu bir daha görə bilməz. Nakam məhəbbətinə ağı deyərək "bu sevda nə sevdadır, səni mənə verməzlər", – deyə özünü mühakimə edən aşiq məhəbbətindən əl çəkə bilmir, "Nola, bir gün görəm, nazlı yarın üzünü", – deyə inləyir.

"Sarı gəlin" mahnısı "Şur" məqamında yazılıb. Bu sistemin öz qanunları, terminologiyası, ifa ardıcıllığı var. Muğam fərdi fantaziya deyil, kollektiv musiqi yaddaşının məhsuludur. Erməni musiqi ənənəsində isə belə bir sistem mövcud olmayıb. Tarixi mənbələrdə, musiqişünaslıqda və praktiki ifa mühitində ermənilərə məxsus muğam məktəbi, muğam terminləri və muğam ənənəsi yoxdur. Erməni xalq musiqisi əsasən sadə ladlı mahnılara, kilsə ilahiləri və məhdud improvizasiya imkanlarına əsaslanır.

Digər mühüm məqam muğamın dil və poeziya ilə ayrılmaz bağlılığıdır. Muğam sözsüz oxuna bilsə də, onun zirvəsi xanəndəlik sənətidir. Xanəndə isə Azərbaycan dilində oxuyur. Muğamın melodik vurğuları, pauzaları və emosional yüksəlişi dilin fonetik imkanlarına uyğun formalaşıb. Erməni dili və poeziyası isə bu melodik struktura uyğun deyil və tarixən də muğamla birgə inkişaf etməyib.

Muğamın alət tərkibi də onun milli mənsubiyyətini açıq göstərir. Tar, kamança, balaban kimi alətlər muğamın əsas daşıyıcılarıdır və bu alətlər Azərbaycan musiqi mədəniyyətində formalaşıb, təkmilləşib. Xüsusilə tarın müasir forması və ifa texnikası məhz Azərbaycan musiqisinə aiddir. Ermənilərdə isə bu alətlər olmayıb.

**Müsahibimiz əlavə etdi ki, "Sarı gəlin" zaman-zaman, diyar-diyar türk ellərini dolaşmış, hər kəs öz nisgilinə uyğun "Sarı gəlin" yaratmışdır. Son zamanlar "Sarı gəlin" türküsünə heyranlıq daha da artmışdır:**

– Qloballaşan dünyamızda bu türkünü təkcə türkdilli xalqlar deyil, digər xalqlar da çox sevirlər. İndi də "Sarı gəlin"lə əlaqədar mətbuatda, internet səhifələrində mübahisə gedir. Elm adamları, millət təəssübkeşləri, müğənnilər, musiqiçilər, sıravi vətəndaşlar əsl həqiqəti sübut etməyə çalışırlar.

İslamdan əvvəl Oğuz tayfalarının ortaq musiqi mədəniyyəti olub. Tarixi mənbələrdə göstərilir ki, oğuzlar musiqi mədəniyyətini daha çox bu intonasiyada inkişaf etdirmişlər və mahnı zamanla formalaşaraq günümüzə gəlib çıxmışdır.

İntonasiyasına görə çox arxaik olan "Sarı gəlin"i tütək və balabanla ifa etdikdə daha təsirli alınır. Bu mənada, həmin musiqinin məhz tütək, daha sonra isə balabanla müşayiət olunması elmi dəlillərlə təsdiq edilmişdir. Tütəyin yanıqlı səsi, türkünün bayatı nəzmli misraları ilə harmoniya yaradaraq dinləyəni duyğulandırır. M.V.Vidadi yazmışkən, "ox kimi bağrını dəlir". Bu səbəbdəndir ki, millətindən asılı olmayaraq "Sarı gəlin"i dinləyən hər kəs onun sehrinə düşür.

Müsahibimizin söylədikləri bir daha təsdiq edir ki, musiqi beynəlmiləl və ümumbəşəri incəsənət sahəsidir. Onun üçün dil maneələri, tərcüməyə ehtiyac yoxdur və millətlərin sivil dəyərləri sonradan bütün bəşəriyyətin olur. Mədəni irs keçmişin yadigarı, xalqın kimliyinin, tarixinin və ruhunun daşıyıcısı, gələcək nəsillərə kimliyimizi çatdırmağın ən mühüm yoludur.

***Hazırladı:***
***Fidan ƏLİYEVA***
***XQ***




# Eynəklər dostumuzdur, yoxsa düşmənimiz?

## *Onları seçərkən nələrə diqqət edək – dəbə, keyfiyyətə, yoxsa qiymətə?*

**Son dövrlər təkcə görmə qüsuru olanlar deyil, günün böyük hissəsini kompüter və smartfon qarşısında keçirənlər arasında da optik eynəkdən istifadə edənlərin sayında artım müşahidə olunur. Bəziləri bu eynəklərdən görmə problemlərinə görə, kimlər isə müvəqqəti göz narahatlıqlarını aradan qaldırmaq məqsədilə istifadə edirlər.**

Lakin təəssüf ki, bir çox hallarda eynək seçiminə kifayət qədər ciddi yanaşılmır. Buna görə də keyfiyyətsiz və ya fərdi xüsusiyyətlərə uyğun olmayan eynəklər seçilir. Əksər hallarda vətəndaşlar mütəxəssis məsləhətinə müraciət etmir, yalnız xarici görünüşünə və qiymətin münasib olmasına diqqət yetirirlər. Bəziləri isə eynəkləri alış-veriş platformalarından onlayn sifariş edirlər. Bəs doğru seçilməyən eynəklər gözlərimizə necə təsir edir və hansı problemlərə yol açır?

Görmə qabiliyyəti zəif olan insanların əksəriyyəti eynək almaq üçün daha çox apteklərə müraciət edir. Araşdırmalarımız zamanı məlum oldu ki, paytaxtda fəaliyyət göstərən bəzi apteklərdə eynək satışı xüsusi oftalmoloji müayinə edilmədən aparılır. Bu apteklərdə müştərilərin gözləri elə yerindəcə "müayinə" edilib müvafiq eynək təyin olunur. Belə obyektlərdə eynək satan şəxslərin bəziləri bu sahənin mütəxəssisləri deyil. Oftalmoloqlar bildirirlər ki, belə hallar gələcəkdə görmə problemlərinin daha da artmasına səbəb ola bilər.

Məhz bu səbəbdən gözlərimizin sağlamlığı üçün ən kiçik detallara belə diqqət etməliyik. Paytaxt sakinləri arasında keçirdiyimiz sorğunun nəticələri göstərdi ki, gözlərinin qədrini bilib vaxtında həkim sözünə əməl edənlər də var, görünüşə aldanıb dəbin qurbanına çevrilənlər də…

54 yaşlı Məmməd Hüseynov dəbin qurbanına çevrilənlərdəndir. Onun sözlərinə görə, əvvəllər gözlərində ciddi problem olmayıb. Lakin son illərdə yaxını görmədə çətinlik yarandığı üçün optik eynəkdən istifadə etməyə başlayıb. Nəticədə, eynək taxdığı zaman göz və başağrıları olub. O, vaxtında həkimə müraciət etmədiyi üçün hazırda gözünün bir az da zəiflədiyini və eynək seçərkən əsas diqqəti xarici görünüşə yönəltdiyini söylədi.

65 yaşlı Səkinə Əliyeva isə dəfələrlə apteklərdən həkim məsləhəti olmadan müxtəlif eynəklər aldığını və nəticədə görmə qabiliyyətinin daha da pozulduğunu deyərək peşmanlığını ifadə etdi.

50 yaşlı Elmira Şabanova isə eynəyini, əsasən, qiymətinin sərfəli olmasına və görünüşünə görə xarici platformalardan onlayn sifariş verdiyini, lakin görmədə müsbət nəticə əldə etmədiyini söylədi.

47 yaşlı Arif Qurbanov isə uzun illərdir həkim tövsiyəsinə əsasən eynək taxdığını və bu günə qədər görmə ilə bağlı ciddi problem yaşamadığını dedi.

**Mövzu ilə bağlı Ədliyyə Nazirliyi Tibb Baş İdarəsinin həkim-oftalmoloqu İlham Mikayıllının fikirlərini öyrəndik. Mütəxəssis qeyd etdi ki, optik eynək gündəlik ləvazimat deyil, dəqiq müayinəyə əsasən seçilməli olan tibbi vasitədir:**



– Təcrübə göstərir ki, eynək seçimi çox vaxt kifayət qədər diqqətlə aparılmır və bu, göz və başağrısı, görmənin getdikcə pisləşməsi kimi problemlərə yol açır. Optik eynək tibbi vasitə olduğu üçün onun seçimi də tibbi prinsiplərə əsaslanmalıdır. Burada düzgün müayinə əsas şərtidir. Eynək nömrəsinin düzgün təyin edilməsi yalnız müəyyən cihaz ölçmələri ilə məhdudlaşmamalı, gözün uzaq və yaxın görmə qabiliyyəti, astiqmatizmin mövcudluğu, çəpliyin olub-olmaması, göz hərəkətlərinin sərbəst və ağrısız olması mütləq müayinə edilməlidir.

Uşaqlarda və gənc yaş qruplarında bəzi görmə qüsurları gizli şəkildə qala bildiyindən müayinənin daha diqqətlə aparılması xüsusi əhəmiyyət daşıyır. Köhnə reseptlər əsasında və ya hazır eynəklərdən istifadə isə əksər hallarda düzgün nəticə vermir.

**Həkim linzanın materialına və xüsusiyyətlərinə də diqqət etməyi məsləhət gördü:**

– Optik eynəyin əsas elementi linza olduğu üçün onun materialı xüsusi əhəmiyyət kəsb edir. Müasir eynəklərdə əsasən plastik əsaslı linzalardan istifadə olunur. Bu linzalar yüngül, təhlükəsiz və gündəlik istifadə üçün daha uyğundur. Yüksək nömrəli eynəklərdə isə linzanın qalınlığı estetik va funksional narahatlıq yarada bilər. Bu səbəbdən daha nazik və yüksək texnoloji göstəricilərə malik linzaların seçilməsi məqsədəuyğundur. Linzanın keyfiyyəti yalnız görmənin aydınlığına deyil, eyni zamanda, uzunmüddətli istifadə zamanı gözün rahatlığına da təsir göstərir.

**Oftalmoloq optik eynəklərdə qoruyucu örtüklərin önəmini də qeyd etdi:**

– Müasir optik linzalarda müxtəlif qoruyucu və funksional örtüklərdən istifadə edilir. Bu örtüklər işığın əks olunmasını azaldır, linzanın daha aydın görünməsini təmin edir və göz yorğunluğunu minimuma endirir. Xüsusilə avtomobil idarə edən şəxslər, eləcə də uzun müddət elektron ekranlardan istifadə edənlər üçün bu cür örtüklər vacibdir. Eyni zamanda, günəş şüalarının zərərli təsirindən qoruyan ultrabənövşəyi filtrli linzalar da göz sağlamlığının qorunmasında əsaslı rol oynayır.

**Müsahibimiz apteklərdə xüsusi cihazla təyin edilən optik eynəklərlə bağlı da fikirlərini söylədi:**

– Eynək satılan optik mərkəzlərdə eynək "yazdırmaq" olmaz, bu düzgün deyil. Çünki burada xüsusi riyazi hesablamalar var. Bu da olduqca vacibdir. Həkim müayinə edərkən mütləq astiqmat dərəcəsini, gözün nömrəsini düzgün seçməlidir.

Hazırda optik eynəklər satılan məkanlarda reflektometr deyilən cihaz qoyulur və oradan alınan rəqəmlərə görə insanlara eynək təyin olunur. Lakin sadəcə sözügedən cihazdan alınan rəqəmlərlə düzgün eynək seçmək kifayət deyil. Biz müayinədə o cihazdan aldığımız nömrələri yenidən şəxsin gözünə uyğun olub-olmadığını yoxlayırıq. Məsələn, cihazda -2 çıxıbsa bu o demək deyil ki, pasiyent mütləq bu nömrəyə uyğun eynək taxmalıdır. Ola bilər ki, həmin şəxsin -1,5 eynəklə də yüz faiz görməsi olsun. Amma optik eynəklər satılan mağazalarda bunu təyin edən həkim olmadığı üçün sadəcə cihazdan çıxan rəqəmə görə eynək təqdim olunur. Normaldan artıq nömrənin təyin edilməsi isə görmədə müəyyən problemlərə yol açır.

Məhz bu səbəbdən də optik eynək seçmək üçün ərazi üzrə ilkin səhiyyə xidməti müəssisələrindəki sahə (ailə) həkiminə və həkim-oftalmoloqlara müraciət etmək tövsiyə olunur. Onlar pasiyenti zəruri tibbi müayinələrdən keçirir, göstəriş olduğu halda, TƏBİB-in tabeliyində fəaliyyət göstərən dövlət xəstəxanalarına göndəriş verirlər.

**İlham Mikayıllı optik eynək alarkən keyfiyyət sənədinin olmasının vacibliyini də vurğuladı:**

– Eynəklərin mənşəyini yoxlamaq asandır. Etiketdə qeyd olunan ticarət markasının adı ilə eynəyin çərçivəsinin iç tərəfində yazılanları müqayisə edin. Həm də diqqət yetirin ki, ektiketdə istehsalçı ölkənin, müəssisənin adı, onun ünvanı qeyd olunsun. Həmin keyfiyyət sənədində şüşənin materialı, eynəyin gözləri ultrabənövşəyi şüalardan nə dərəcədə qoruması haqqında məlumat olur. Burada onun çəkisinə, rənginə də xüsusi fikir verilməlidir. Belə ki, cihazın çəkisi yüngül olduqda, həm burun sümüklərinə, həm də qulağın arxa nahiyəsinə daha az təzyiq etmiş olur. Uzaqdangörmə eynəklərinin çərçivəsinin daha böyük, yaxındangörmə eynəklərinin isə daha ensiz olması da istifadəni asanlaşdırır.

Keyfiyyətsiz eynəkdən istifadə gözdə quruluğa, sulanmaya, kataraktaya səbəb ola bilər. Eynəyin şüşəsi çox tünd olduqda isə bəbəyin genəlməsi, büllurun bulanması və görmə zəifliyinə yol açır. Əgər eynəklər sizə bəzək üçün deyil, sağlamlıq baxımından lazımdırsa, onda onları nüfuzlu mağazalardan və ya həkim təyini ilə apteklərdən alın.

**Müsahibimiz optik eynək seçərkən yaş amilinin nəzərə alınmalı olduğunu vurğuladı:**

– Yaş artdıqca, gözün yaxın məsafəyə fokuslanma qabiliyyətində zəifləmə müşahidə oluna bilər. Presbiopiya adlanan bu fizioloji proses yaşa və gözün müvafiq göstəricilərinə uyğun yaxın optik eynəklərlə korreksiya olunur. Bundan əlavə, onu da qeyd edim ki, yeni eynək taxıldıqdan sonra qısa uyğunlaşma dövrü normal hesab olunur. Lakin uzunmüddətli başağrısı, davamlı bulanıq görmə və ya narahatlıq müşahidə olunarsa, mütləq mütəxəssisə müraciət edilməlidir. Bu hallar eynək nömrəsinin və ya çərçivə-linza uyğunluğunun düzgün seçilmədiyini göstərir.

**Sonda həkim kompüter, telefon, televizor şüalarından qorunmaq adı ilə satılan eynəklərin qoruma faizinin, demək olar ki, olmadığını söylədi:**

– İlk növbədə, qeyd edim ki, kompüter qarşısında uzun müddət keçirənlər üçün Mavi İşıq Filtrinin istifadəsi tövsiyə edilir, baxmayaraq ki, onun effektivliyi hələ də müzakirə mövzusu olaraq qalır. Digər tərəfdən, bu cür eynəklər xüsusən kompüter və telefon mağazalarında satıldığından şüşələrinin keyfiyyətli olması da sual altındadır. Gözləri qorumaq məqsədilə alınan belə eynəklərin 1 ay müddətində istifadə olunması görmə itiliyini kəskin şəkildə aşağı endirir. Elə optik şüşələr olmalıdır ki, onlar gözə zərərli təsir göstərməsin.

**Göründüyü kimi, səhv seçilmiş eynək bizə "dost" yox, göz sağlamlığımızı zəifladən gizli "düşmənimiz" ola bilər. Bu dünyanın işığından məhrum olmamaq üçün eynək seçimində dəqiqlik və peşəkar yardıma üstünlük vermək vacibdir.**

***Elenora HƏSƏNOVA***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 07 (30976) 14 yanvar 2026-cı il, çərşənbə

## İDMAN

### Futbol klublarımızın xaricdə təlim-məşqləri



**Türkiyənin Antalya bölgəsində təlim-məşq toplanışında olan Azərbaycan çempionu “Qarabağ” ilk yoxlama oyununu keçirib.**

“Gloria Sports Arena”da Özbəkistanın “Neftçi” (Fərqanə) komandası ilə qarşılaşan ağdamlılar rəqibin qapısından 5 cavabsız qol vurub. “Qarabağ”ın heyətində Marko Yankoviç (3, 29), Leandro Andrade (8), Joni Montiel (10) və Nəriman Axundzadə (71) fərqləniblər.

Qeyd edək ki, Qurban Qurbanovun rəhbərlik etdiyi komanda növbəti yoldaşlıq oyununu yanvarın 16-da Polşanın “Zaqlebie Lubin” kollektivinə qarşı keçirəcək.

Birləşmiş Ərəb Əmirliklərinin paytaxtı Əbu-Dabidə təlim-məşq toplanışında olan “Neftçi” isə növbəti yoxlama oyununda dünən Misirin “Piramids” komandası ilə üz-üzə gəlib. “Məhəmməd bin Zayed” stadionunda baş tutan oyun 1:1 hesabı ilə başa çatıb.

Xatırladaq ki, ilk sınaq matçında “Kayrat”a (Qazaxıstan) 3:0 hesabı ilə qalib gələn “Neftçi” yanvarın 16-da keçiriləcək sonuncu oyunda Çinin “Çenqdu Ronqçenq” klubu ilə qarşılaşacaq.

### Xabi Alonso “Real”dan getdi



**İspaniyanın “Real” (Madrid) klubundan istefaya göndərilən Xabi Alonso azarkeşlərə müraciət edib. Mütəxəssis sosial şəbəkə hesabında bu komandaya rəhbərlik etməyin şərəf və böyük məsuliyyət olduğunu bildirib.**

O, bu peşəkar mərhələnin başa çatdığını qeyd edib:

“Bu peşəkar mərhələ başa çatdı və hər şey istədiyimiz kimi alınmadı. “Real”ı çalışdırmaq şərəf və böyük məsuliyyət idi. Kluba, oyunçulara və hər şeydən əvvəl azarkeşlərə – bütün madridistlərə – inam və dəstəyə görə təşəkkür edirəm. Hörmət, minnətdarlıq və əlimdən gələni etdiyim üçün qürur hissi ilə gedirəm”.

Qeyd edək ki, yanvarın 12-də istefaya göndərilən Xabi Alonsonu “kral klubu”nda Alvaro Arbeloa əvəzləyib.

### Tovuz stadionuna yaşıl örtük salınır



**Tovuz şəhər stadionunda ot örtüyünün bərpa prosesini sürətləndirmək üçün süni günəş işığından da istifadə edilir.**

Bu barədə “Turan Tovuz” klubunun mətbuat xidmətinin rəhbəri Süleyman Tağıyev məlumat verib. O, meydanın bərpası üçün görülən işlər toxunaraq bildirib ki, ot örtüyünün mövsümün ikinci yarısına kimi tam hazır olması üçün bütün prosedurlar həyata keçirilir. Müəyyən avadanlıqlar gətirilib. Qazonun bərpa prosesini sürətləndirmək üçün süni günəş işığından da istifadə edilir. Amma hər şeyin ideal olması üçün hava şəraitinin də normal olması vacibdir. Son dövrlərdə bölgədə şaxtalı və yağıntılı havalar müşahidə edilir.

*Qabil YUSİFOĞLU*
*XQ*

*Dilimiz – kimliyimiz*

# Ana dilinə sayğı milli qeyrət meyarıdır

**Azərbaycan Yazıçılar Birliyinin Natəvan klubunda ana dilinin qorunması və inkişafına həsr olunmuş “Dilimiz – kimliyimiz” mövzusunda ədəbi-ictimai müşavirə keçirilib.**

Məclisi giriş sözü ilə AYB-nin katibi, Əməkdar incəsənət xadimi Elçin Hüseynbəyli açaraq Azərbaycan dilinin qorunması və saflığı ilə bağlı ölkə Prezidentinin çıxışlarını xatırladıb, bu mövzunun həm elmi, həm də ictimai müstəvidə xüsusi əhəmiyyət daşıdığını vurğulayıb. O qeyd edib ki, XIX əsrin sonlarından etibarən Azərbaycan türk dili Qafqazda aparıcı ünsiyyət və mədəniyyət dili olub, sonrakı dövrlərdə müəyyən tarixi-siyasi səbəblərdən sıxışdırılıb. Lakin



Prezident İlham Əliyevin rəhbərliyi dövründə Azərbaycan yenidən regionda söz sahibi olan dövlətə çevrilib və bu proses Azərbaycan dilinin nüfuzunun artmasına da güclü təkan verib. O inamla bildirib ki, yaxın gələcəkdə Azərbaycan dili regionun aparıcı dillərindən biri kimi mövqeyini daha da möhkəmləndirəcək.

Müşavirədə AYB-nin sədri, Xalq yazıçısı Anar, akademiklər İsa Həbibbəyli, Rafael Hüseynov, Nizami Cəfərov, Teymur Kərimli, Kamal Abdulla, Muxtar İmanov, Xalq yazıçıları Çingiz Abdullayev, Elmira Axundova, Milli Məclisin deputatları Elnarə Akimova, Səyyad Aran, professorlar Nadir Məmmədli, Telman Vəlixanlı, Kərim Tahirli, “Ədəbiyyat qəzeti”nin baş redaktoru Azər Turan, Azərbaycan Yazıçılar Birliyinin katibi Səlim Babullaoğlu, Bədii Tərcümə və Ədəbi Əlaqələr Mərkəzinin rəhbəri Əsəd Cahangir Azərbaycan dilinin qorunmasının yalnız dilçilərin deyil, bütövlükdə cəmiyyətin borcu olduğunu qeyd ediblər.

Çıxışlarda dövlət dil siyasəti, ədəbi dil normaları, terminoloji təhlükəsizlik, elmi və bədii mühitdə dil mədəniyyətinin qorunması məsələləri geniş müzakirə olunub.

*Q.YUSİFOĞLU*
*XQ*

# Uzunömürlülüyün sirri açıldı



**İnsan ömrü təkcə illərin sayı ilə ölçülmür. Bəzən qısa bir ömür dərin iz buraxır, bəzən isə uzun illər mənasızlıq içində itir. Tarix boyu bəşəriyyətin ən çox düşündüyü suallardan biri də budur: uzun və sağlam yaşamağın sirri nədir?**

Alimlərin araşdırmalarına görə, insan ömrünün, təxminən, 20–30 faizi genetik xüsusiyyətlərdən asılıdır. Bu genlər orqanizmin xəstəliklərə qarşı müqavimətini, maddələr mübadiləsinin sürətini, hətta stresə reaksiyasını müəyyən edir. Məhz buna görə də uzunömürlü insanların çoxu, eyni zamanda, uzunömürlü ailələrdən çıxır. Onların genetik kodunda təbiətin özünəməxsus “möhkəmlik proqramı” mövcuddur.

San-Paulu Universitetinin alimləri tərəfindən aparılan genişmiqyaslı tədqiqat göstərib ki, 110 yaşına qədər və daha uzun yaşayan insanlar gücləndirilmiş və yüksək adaptasiya qabiliyyətinə malik immun sisteminə sahib olurlar. “Daily Mail” nəşri “Genomic Press”ə istinadən xəbər verir ki, tədqiqatın rəhbəri tanınmış genetik Mayana Zatsdır.

Alimlərin qənaətinə görə, uzunömürlülərin immun sistemi xüsusi olaraq uzunömürlü həyat üçün uyğunlaşıb. Bu insanların immun hüceyrələri özlərindən onilliklərlə gənc olan şəxslərə xas sürətlə yenilənir və zədələnmiş komponentləri effektiv şəkildə təkrar emal edir. Nəticədə, ürək-damar xəstəliklərinə, onkoloji problemlərə və demensiyaya (ağıl zəifliyi) səbəb ola biləcək təhlükəli mutasiyaların və zədələnmiş zülalların orqanizmdə toplanmasının qarşısı alınır.

Tədqiqat zamanı alimlər immun cavabın koordinasiyasında mühüm rol oynayan CD4+ T-helper hüceyrələrinin fəaliyyətində də maraqlı fərqlər müşahidə ediblər. Məlum olub ki, uzunömürlülərdə bu hüceyrələr adətən yoluxmuş və ya anormal hüceyrələrə hücum edən T-killer hüceyrələri kimi davranır. Bu cür immun modeli nadir hallarda gənc insanlarda da müşahidə olunur.

Hazırda da davam edən tədqiqat çərçivəsində 100 yaşdan yuxarı 140-dan çox uzunömürlü və 110 yaşdan yuxarı 20 “super uzunömürlü” araşdırılıb. İştirakçılar arasında dünyanın ən yaşlı insanı hesab edilən və 2025-ci ilin yazında 116 yaş 326 günlüyündə vəfat edən rahibə İna Kanabarro Lukas da yer alıb.

Maraqlıdır ki, tədqiqat iştirakçılarının əksəriyyətinin müasir tibbi xidmətlərə məhdud çıxışı olmalarına, bəzilərinin isə ümumiyyətlə tibbi nəzarət altında olmamasına baxmayaraq, sağlam düşüncə qabiliyyətini qoruyub saxlayıb və gündəlik həyat fəaliyyətlərini müstəqil şəkildə yerinə yetiriblər.

“Healthy Longevity” klinikasının baş direktoru Pyotr Sramekin sözlərinə görə, 100 və daha artıq yaşa çatan insanların uzunömürlü olmasına bir sıra amillərin vəhdəti kömək edir. Bu amillər sırasında nisbətən nadir rast gələnən və şərti olaraq “uzunömürlülük genləri” adlandırılan genetik xüsusiyyətlər də var.

“Ola bilsin ki, bu cür genetik üstünlüklər əhalinin cəmi təxminən 2 faizində mövcuddur. Belə insanlar mütləq şəkildə ideal həyat tərzi sürməyə də bilərlər”, – deyə Pyotr Sramek qeyd edib.

Müasir dövrdə texnologiyanın sürətli inkişafı həyatımızı asanlaşdırsa da, bizi hərəkətsizliyə və tənhalığa sürükləyə bilir. Uzunömürlülüyün sirrini axtararkən bu təhlükəni də unutmamalıyıq. Canlı ünsiyyət, ailə söhbətləri, dost məclisləri insan psixikasını möhkəmləndirən, ruhu cavan saxlayan amillərdir. Ən güclü dərman belə bəzən səmimi bir sözün təsiri qədər faydalı olmur.

Beləliklə, deyə bilərik ki, uzunömürlülüyün sirri tək bir formulda gizlənmir. O, sağlam bədən, sakit ruh, mənalı həyat və möhkəm insani münasibətlərin vəhdətində formalaşır. İnsan öz ömrünün memarıdır: necə yaşasa, elə də yaşlanar. Uzun yaşamaqdan daha önəmlisi isə ləyaqətlə, faydalı və iz buraxan bir ömür sürməkdir. Çünki əsl uzunömürlülük illərin çoxluğu deyil, o illərin içində toplanan dəyərdir. Müasir tibbin, elmin və statistikanın verdiyi cavablar nə qədər əhəmiyyətli olsa da, uzunömürlülüyün kökündə yalnız genlər və dərmanlar deyil, həyat tərzi, mənəvi dəyərlər və insanın özünə münasibəti dayanır.

*Nurəngiz ADİLQIZI*
*XQ*

# FHN gözlənilən hava şəraiti ilə əlaqədar əhaliyə müraciət edib

**Milli Hidrometeorologiya Xidmətinin məlumatına görə, ölkə ərazisində yaxın günlər ərzində qeyri-sabit və yağıntılı hava şəraitinin müşahidə olunacağı, əsasən dağlıq və dağətəyi rayonlara qar yağacağı, ayrı-ayrı yerlərdə intensiv olacağı, temperaturun xeyli enəcəyi, bəzi yerlərdə güclü külək əsəcəyi proqnozlaşdırılır.**

Bununla əlaqədar olaraq Fövqəladə Hallar Nazirliyi əhaliyə müraciət edərək, müvafiq təhlükəsizlik qaydalarına ciddi əməl etməyə çağırır.

Müraciətdə deyilir ki, soyuq hava şəraiti qaz və elektrik qızdırıcı cihazlarından istifadənin xeyli artmasına səbəb olduğundan həmin cihazlardan istifadə zamanı yanğın təhlükəsizliyi qaydalarına ciddi riayət edilməlidir. Nasaz, qeyri-standart və ya kustar üsulla hazırlanmış qızdırıcı cihazlardan istifadə olunmamalı, elektrik şəbəkəsi həddindən artıq yüklənməməli, işlək vəziyyətdə olan qızdırıcı cihazlar nəzarətsiz qoyulmamalıdır.

Eyni zamanda, xüsusilə dağlıq ərazilərdə yaşayan, eləcə də dağlara səfər edən vətəndaşlar şaxtalı və qarlı havada mümkün qədər yaşayış məntəqəsini tərk etməməli, belə bir zərurət yarandıqda hərəkət istiqaməti barədə yaxınlarını əvvəlcədən məlumatlandırmalı, avtomobilin texniki göstəricilərinin fəslə uyğunluğunu və kifayət qədər yanacaq ehtiyatını təmin etməlidirlər. Qar uçqunu ehtimalı olan yerlərdən, o cümlədən dik yamaclardan kənar gəzmək və günün qaranlıq vaxtına qalmadan yaşayış məntəqəsinə geri dönmək tövsiyə olunur.

“Bundan başqa, güclü külək zamanı yüngül konstruksiyalı və müvəqqəti tikililərdən, bina və reklam lövhələrindən uzaq durmaq, elektrik dirəyi və naqillərinin, hündür ağacların altında dayanmamaq tövsiyə edilir. Həmçinin güclü küləyin baş verən yanğınların söndürülməsi ilə əlaqədar yaratdığı çətinlikləri nəzərə alaraq, küləkli hava şəraitində yanğın təhlükəsizliyi qaydalarına xüsusilə ciddi riayət edilməlidir. Unutmayın: Qaydalara biganəlik həyatımıza təhlükədir! Təhlükə zamanı 112-yə zəng edin!”, – deyə müraciətdə bildirilir.

## “Xətai Tikinti Mexanizasiya” ASC səhmdarlarının nəzərinə!

27 fevral 2026-cı il saat 15:30-da “Xətai Tikinti Mexanizasiya” ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı Bakı şəhəri, Sabunçu rayonu, B. Bünyadov küçəsi 3 nömrəli ünvanda keçiriləcəkdir.

**İclasın gündəliyi:**

**1.** Səhmdar cəmiyyətin 2025-ci ilə aid maliyyə-təsərrüfat fəaliyyətinin yekunlarının hesabatı

**2.** Təşkilati məsələlər:

- İdarə heyəti üzvlərinin və sədrinin seçilməsi.
- Müşahidə şurası üzvlərinin və sədrinin seçilməsi.

**3.** Səhmdar cəmiyyətin hüquqi ünvanının dəyişdirilməsi

**4.** Nizamnaməyə dəyişikliklərin edilməsi.

Səhmdarlar sənədlərlə hər həftənin 2-ci və 5-ci günləri saat 14:00-dan 16:00-a qədər ASC-nin inzibati binasında Bakı şəhəri, Sabunçu rayonu, Ə.Əliyev küçəsi 4 nömrəli ünvanda tanış ola bilərlər. Əlaqə telefonu: 077-741-88-82.

*Müşahidə şurası*

“Səpnəkəran” Sudan İstifadəedənlər Birliyinin 7 yanvar 2026-cı il tarixli növbədənkənar ümumi yığıncağının qərarına əsasən 2008-ci il noyabrın 25-də Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Lənkəran Bölgə Şöbəsi tərəfindən 400008-Q3-0003 nömrə ilə dövlət qeydiyyatına alınmış “Səpnəkəran” sudan istifadəedənlər birliyi ləğv olunaraq hüquqi şəxsin qoşulma prinsipi əsasında (birləşmə) formasında eyni kənd icra nümayəndəliyinin ərazisində fəaliyyət göstərən 2006-cı il mayın 15-də Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Lənkəran Bölgə Şöbəsi tərəfindən 0506-QL1-01 nömrə ilə dövlət qeydiyyatına alınmış “Mamusta kənd” sudan istifadəedənlər birliyinin bazasına qoşulmuş (birləşdirilmiş) və onun hüquqi varisidir.

✓ *Hərbi qulluqçu Salamov Xəyal Zakir oğlunun adına verilmiş SQ seriyalı, 0028542 nömrəli hərbi vəsiqə itdiyi üçün etibarsız sayılır.*

✓ *2008-ci il noyabrın 25-də Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Lənkəran Bölgə Şöbəsi tərəfindən 400008-Q3-0003 nömrə ilə dövlət qeydiyyatına alınmış “Səpnəkəran” sudan istifadəedənlər birliyinə verilmiş qeydiyyat şəhadətnaməsi və nizamnaməsi itdiyi üçün etibarsız sayılır.*

## HAVA

# Dağlarda qar, aranda yağış və sulu qar...



**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin arabir yağıntılı olacağı gözlənilir. Bəzi yerlərdə intensivləşəcəyi, ayrı-ayrı yerlərdə yağışın sulu qarla qarışıq yağacağı ehtimalı var. Güclü şimal-qərb küləyi əsəcək.**

Havanın temperaturu gecə və gündüz 1-4 dərəcə isti olacaq. Atmosfer təzyiqi 757 millimetr civə sütunundan 766 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət 80-85 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında hava şəraitinin bəzi yerlərdə arabir yağıntılı olacağı, sulu qar, dağlıq və dağətəyi rayonlarda qar yağacağı proqnozlaşdırılır. Ayrı-ayrı yerlərdə intensivləşəcəyi ehtimalı var. Bəzi yerlərdə arabir duman müşahidə ediləcək. Qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək.

Havanın temperaturu gecə 1 dərəcə şaxtadan 4 dərəcəyədək isti, gündüz 5-9 dərəcə isti, dağlarda gecə 3-8, gündüz 0-3 dərəcə şaxta olacaq.

*Q.ƏLİYEV*
*XQ*

**ALLAH RƏHMƏT ELƏSİN!**

“Xalq qəzeti”nin kollektivi iş yoldaşları Fikrət Əhmədova nənəsi

**HƏBİBƏ ƏLİYEVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994 (51) 280-16-44

“Xalq” qəzeti redaksiyası” MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 2788
SİFARİŞ 16
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU
Çapa imzalanmışdır 00:00